**Bakı Dövlət Universiteti**

**Tarix fakültəsi**

**Azərbaycan tarixi (təbiət fakültələri üzrə)**

**kafedrası nəzdində**

**“Dünya azərbaycanlıları: tarixi-demoqrafiya”**

**Elmi-tədqiqat laboratoriyası**

# DÜNYA AZƏRBAYCANLILARI:
# TARİX VƏ MÜASİRLİK

**(Elmi-nəzəri toplu)**

## IV BURAXILIŞ

*BDU Tarix fakültəsi Elmi Şurasının 17.12.2015-ci il tarixli qərarı ilə çap edilir.*

**BAKI – 2015**

**Redaksiya heyəti:** **dos.A.Ə.Rzayev**
**dos.M.Q.Abdullayev**
**t.f.d.G.T.Novruzova**
**t.f.d.A.Ə.Məmmədova**
**t.f.d. S.Z.Quliyeva**
**b.e. i. U.M.Paşayeva**

**D-96 Dünya azərbaycanlıları: tarix və müasirlik**. Elmi-nəzəri toplu. IV buraxılış. – Bakı: "AVROPA" nəşriyyatı, 2015, 210 s.

*Qeyd:* 1. Redaksiya heyəti müəlliflərin elmi yaradıcılığında mövqelərini tam ifadə etməsi üçün hər cür şərait yaratmışdır. Müəlliflərin və redaksiya heyətinin mövqeyi uyğun gəlməyə bilər.
2. Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.

*Ünvan:* Bakı, Z.Xəlilov k. 23
Bakı Dövlət Universiteti, III tədris binası, 10-cu mərtəbə, 1007-ci otaq
Telefon: 012-537-04-61
Email: dacontact@mail.ru

D $\frac{4702060104-88}{8032-2015}$ *Qrifli nəşr*

© ***"AVROPA" nəşriyyatı, 2015***

## MÜNDƏRİCAT


**Redaksiya heyətindən** 4

**I BÖLMƏ.** 7

**XIX-XX ƏSRLƏRDƏ AZƏRBAYCANDA MİQRASİYA PROSESLƏRİ (tarixi-demoqrafik tədqiqat)**

**II BÖLMƏ**. 98

**AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ**

**1.***M.Q.Abdullayev* – Azərbaycan xanlıqlarında ali zümrənin say tərkibi (Quba, Bakı, İrəvan və Naxçıvana aid materiallar əsasında)

**2.***G.T.Novruzova* **-** Миграция Азербайджанцев в Россию 116

**3.***S.O.Mustafayeva* **-** Проблема границ в Южно-Кавказском регионе после окончания I Мировой войны 145

**4.** *A.Ə.Məmmədova,U.M.Paşayeva* - 1930-1991-ci illərdə Şəki rayonunun inzibati-ərazi quruluşu və ona edilən dəyişikliklər 170

**5.** *S.Z.Quliyeva* – Vartaşen (Oğuz) rayonu əhalisinin say dinamikası və yerləşməsi (1930-2010) 188

**6**. *Ş.M.Məmmədli* – Oğuz rayonunun tarixi abidələri 199

7. *K.S.Mustafayeva* – “Maaf” institutu və onun xanlıqların idarəetmə sistemində yeri 204

## *Redaksiya heyətindən*

Əhali problemləri müasir dünyamızın qlobal problemləri sırasındadır. Uzun bir tarixi inkişaf yolu keçərək ayrıca bir elm sahəsinə çevrilən Əhali haqqında elm və Əhalinin öyrənilməsi tarixi qlobal xarakter alan əhali problemlərinin öyrənilməsində, onların yaranması səbəblərinin aydınlaşdırılmasında, o cümlədən, həlli yollarının axtarılmasında mühüm rol oynayır.

Azərbaycan tarixşünaslığında ilk dəfə əhalinin öyrənilməsinin nəzəri əsaslarını işləyən alim Kərim Şükürov qeyd edir ki, əhalinin öyrənilmə tarixinə 2 cür yanaşmaq mümkündür: 1) əhali haqqında yazılanları xronoloji ardıcıllıqla şərh etmək; 2) əhali haqqında elmin müasir vəziyyətindən çıxış edərək, əhali haqqında elm tarixi kimi araşdırmaq (*K.Şükürov. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları.Bakı, Elm, 2004, s.24*)

Dünya azərbaycanlılarının kompleks şəkildə öyrənilməsi ideyasını respublikamızda ilk dəfə reallaşdıran "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" elmi-tədqiqat laboratoriyasının yarandığı gündən əsas elmi istiqaməti Azərbaycan əhalisinin öyrənilməsi, onun inkişafına təsir göstərən müsbət və mənfi amilləri aşkarlamaq olmuşdur. Laboratoriyada aparılan elmi araşdırmalarda əhalinin öyrənilmə tarixinə yuxarıda qeyd edilən hər iki cür yanaşmanı müşahidə etmək mümkündür.

Aparılan araşdırmaların ən mühüm nəticələri "Dünya azərbaycanlıları: tarix və müasirlik" adlı elmi-nəzəri toplunun 3 buraxılışında çap olunmuşdur. Toplunun növbəti IV buraxılışı laboratoriyanın "XIX-XX əsrlərdə Azərbaycanda miqrasiya prosesləri (tarixi-demoqrafik tədqiqat)" adlı 3 illik araşdırma mövzusuna həsr edilmişdir.

Azərbaycan miqrasiya proseslərini tarixən yaşamış ölkə-

lərdəndir. Tarixin müxtəlif dövrlərində bu daha çox əhalinin sayını artırmaq və ya bölgədə sosial dayaq yaratmaq məqsədilə aparılan köçürmələr, əhalinin hərbi əməliyyatlar, zəlzələ kimi təbii fəlakətlər, yoluxucu xəstəliklər və s. zamanı ərazini tərk etməsi şəklində təzahür etmişdir.

Miqrasiyalar əhalinin sayına və tərkibinə (sosial, milli və s.) ciddi təsir göstərən proseslərdəndir. Bu səbəbdən bir çox tarixi və siyasi proseslərə təsir etmək, bəzi hallarda hətta, onları dəyişmək gücünə malikdir.

XIX-XX əsrlər Azərbaycan ərazisində miqrasiya proseslərinin daha geniş və kütləvi şəkil aldığı dövrdür. 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə sülhlərindən sonra Azərbaycan torpaqlarına erməni və rus əhalinin köçürülməsi bölgənin tarixi inkişafını tamamilə dəyişdi. Gəlmələrin yerli əhalini öz torpaqlarından sıxışdıraraq çıxarması əhalinin say və milli tərkibinin məqsədli dəyişdirilməsinə, süni şəkildə münaqişə ocaqlarının yaradılmasına səbəb oldu. Həlli düyünə çevrilmiş "Dağlıq Qarabağ münaqişəsi", müasir Azərbaycan Respublikasının ərazisinin 20%-dən çox hissəsinin işğalı bu proseslərin son nəticəsidir. Çar Rusiyası tərəfindən Azərbaycanda həyata keçirilən mütəşəkkil miqrasiyalar Azərbaycanın əhalisi haqqında elmə "qaçqın", "köçkün" kimi yeni anlayışlar gətirdi.

Bütün bunlar, miqrasiya proseslərinin öyrənilməsinin nə qədər əhəmiyyətli olduğunu göstərir. Toplu hazırlanarkən qarşıya qoyulan əsas məqsəd XIX-XX əsrlərdə Azərbaycan ərazisində gedən miqrasiya proseslərinin səbəbləri və istiqamətlərini, onun əhalinin formalaşmasına təsirini, dövlətlərarası miqrasiyanın xarakterini və xaricdə yaşayan azərbaycanlı əhalinin təşkilatlanmasındakı rolunu öyrənmək olmuşdur. Miqrasiya prosesləri çar Rusiyasının keçmiş Car-Balakən camaatlığı, Dərbənd xanlığı, İrəvan və Naxçıvan xanlıqları (Qərbi Azərbaycan), Mil-Muğan ərazisində apardığı köçürmə siyasəti və onun davamı olan məcburi miqrasiyaların əsasında araşdırılmışdır. Bununla yanaşı, azərbaycanlıların Vətən torpaqlarından kənarda, konkret olaraq keçmiş SSRİ məkanında – Rusiya Federasiyası, Ukrayna,

Belorus və Qazaxıstanda Azərbaycan diasporlarının yaranması və fəaliyyəti dərindən tədqiq edilmişdir.

Araşdırma əhali problemləri ilə məşğul olan rəsmi dövlət qurumları, araşdırmaçılar, ali məktəblərin müəllim-tələbə heyəti, eyni zamanda, tariximizə və onun bir parçası olan əhali tarixinə maraq göstərən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Redaksiya heyəti və müəlliflər topluda irəli sürülən və təklif və mülahizələr doğuran elmi məsələləri müzakirə etməyə, təklifləri nəzərə almağa, əks fikirlərə və alternativ mülahizələrə toplunun səhifələrində yer verməyə hazırdır.

# I BÖLMƏ

# XIX-XX ƏSRLƏRDƏ AZƏRBAYCANDA MİQRASİYA PROSESLƏRİ (tarixi-demoqrafik tədqiqat)*

## Giriş

Qloballaşan dünyanın qarşı-qarşıya qaldığı ən ciddi problemlər arasında əhali problemini xüsusi qeyd etmək lazımdır. Dünya əhalisinin sayının sürətlə artımı, yoxsulluq səviyyəsində yaşayanların sayının yüksək olması, təbii fəlakətlər, kütləvi aclıqlar əhali problemini bütün dünya üçün qlobal problemə çevirmişdir. Lakin bunu xüsusi qeyd etmək lazımdır ki, dünyanın inkişaf etməkdə olan ölkələri kimi, inkişaf etmiş ölkələri üçün də əhali problemi eyni şəkildə aktualdır. Bu problem inkişaf etmiş ölkələrdə bir tərəfdən əhali artımının sürətlə azalması, digər tərəfdən isə miqrasiya problemləri şəklində təzahür edir. Bu səbəbdəndir ki, bu gün demək olar dünya dövlətlərinin əksəriyyəti öz əhali problemlərini nizamlayan strategiyalarını işləyib hazırlamışlar.

Azərbaycan Respublikasında da əhali və onun tərkib hissəsi olan miqrasiya problemi ciddi narahatlıq doğuran problemlər sırasındadır. SSRİ dağıldıqdan sonra yaranan ağır sosial-iqtisadi şərait, siyasi gərginlik, Qarabag münaqişəsi problemi doğuran və dərinləşdirən səbəblərə aiddir. Lakin bunu xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanda əhalinin demoqrafik inkişafı artıq 1999-cu ildən dövlət tərəfindən nəzarətə götürülmüşdür.

* Mövzu Dünya azərbaycanlıları:tarixi-demoqrafiya ETL-də 2009-2011-ci illərdə yerinə yetirilmiş hesabat əsasında çapa hazırlanıb. İcraçılar: G.T.Novruzova, A.Ə.Məmmədova, S.Z.Quliyeva, U.M.Paşayeva, A.A.Hacıyev, Ş.F.Fərəcov, A.N.Mustafayev

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 19 dekabr tarixli fərmanı ilə “Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası” təsdiq edilmişdir. Konsepsiya dövlətin əhalinin kəmiyyət və keyfiyyət tərkibinin yaxşılaşdırılmasına yönəldilən siyasətinin məqsədli prioritetlərini müəyyənləşdirir, əhalinin sosial müdafiəsini və sağlamlığının qorunmasını gücləndirir, xarici miqrasiya proseslərini qaydaya salır.

Bu məqsədlə bir sıra qanunvericilik sənədləri (“Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı”; “Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)”; “İmmiqrasiya haqqında”; “Əmək Miqrasiyası haqqında” v.s. Qanunlar) qəbul edilmiş, respublika qanunvericiliyi Konstitusiyaya və insan hüquqları sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılmışdır.

Qeyd edək ki, Azərbaycan miqrasiya proseslərini tarixən yaşamış ölkələrdəndir. Tarixin müxtəlif dövrlərində bu daha çox əhalinin sayını artırmaq və ya bölgədə sosial dayaq yaratmaq məqsədilə aparılan köçürmələr, eyni zamanda hərbi əməliyyatlar meydanına çevrilmiş ərazini dinc əhalinin tərk etməsi şəklində təzahür etmişdir. Xüsusilə Səfəvi-Osmanlı, Rusiya-İran müharibələri, eyni zamanda zəlzələ kimi təbii fəlakətlər zamanı əhalinin məcburi yerdəyişməsi qeydə alınmışdır.

XIX əsr tarixşünaslığına qədim Azərbaycan torpaqlarına ermənilərin kütləvi şəkildə köçürülərək yerləşdirilməsi və məskunlaşdırılması dövrü kimi daxil olmuşdur. XX əsr isə azərbaycanlıların öz dədə-baba torpaqlarından vəhşicəsinə qovulması, qaçqın düşməsi, soyqırımı, deportasiyası dövrüdür. Azərbaycan torpaqlarında möhkəmləndikdən sonra, daha geniş əraziləri ələ keçirmək və “Böyük Ermənistan” xülyasını gerçəkləşdirmək məqsədilə yerli müsəlman əhaliyə qarşı açıq qanlı aksiyalar da məhz bu dövrdə gerçəkləşdirilmişdir. Belə ki, XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər, artıq XX əsrin əvvəllərində yerli türk-müsəlman əhalini öz dədə-baba torpaqlarından sıxışdırıb çıxarmağa

başlayırlar. Digər tərəfdən isə Rusiya imperiyasının, daha sonra isə Sovet hökumətinin bölgədə apardıgı siyasət nəticəsində tarixi Azərbaycan torpaqlarının hüdudları qisa müddət ərzində kiçilmiş, azərbaycanlılar isə öz dədə-baba torpaqlarında azlıqlara çevrilmişlər.

Miqrasiya proseslərindən danışarkən azərbaycanlıların başqa ölkələrə miqrasiyası və burada təşkilatlanması məsələlərini də xüsusi qeyd etmək lazımdır. Bu mövzu 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etdikdən sonra xüsusilə altuallıq qazanır. Hazırda Azərbaycan dövləti bu sahədə ciddi iş aparır və qeyd etmək lazımdır ki, artıq bu məsələdə bir sira ugurlar da əldə edilmişdir. Qarşıda duran əsas vəzifələr - xaricdə yaşayan azərbaycanlıların coğrafi məskunlaşmasının və demoqrafik göstəricilərin daima öyrənilməsi, azərbaycanlıların sıx yaşadıqları ölkələrdə diaspor təşkilatlarının yaradılması və onların tarixi Vətəni ilə əlaqələrinin möhkəmləndirilməsi, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında iştirakının aktivləşdirilməsi, xaricdəki Azərbaycan lobbisinin siyasi və iqtisadi potensialının və ondan istifadə imkanlarının müəyyənləşdirilməsi kimi məsələlər zamanla öz həllini tapır.

Beləliklə, yuxarıda söylənilən fikirlərə yekun vuraraq qeyd etmək istərdik ki, müasir dövrdə bəşəriyyətin yaşadığı problemlər onları aradan qaldırmaqda həlledici olan elm sahələrinin sürətlə inkişaf etdirilməsini tələb edir. Əhali problemlərini öyrənən miqrasiyanın da ayrıca elm sahəsinə çevrilməsi və sürətli inkişafı zamanın tələblərindəndir.

## 1. Miqrasiyanın səbəbləri, istiqamətləri

Miqrasiya latınca «miqratio», «miqro» sözlərindəndir və mənası «keçirəm, köçürəm» deməkdir. Əhali miqrasiyası köç edən insanların bu və ya digər ərazinin sərhədlərini keçərək yaşayış yerlərini daimi, qısa və ya uzun müddətə dəyişməsidir. Əhali miqrasiyası xarici (beynəlxalq) və daxili miqrasiyalara

bölünür. Beynəlxalq və daxili miqrasiyaların özlərinin də müxtəlif formaları mövcuddur. Beynəlxalq miqrasiyalar ölkələrarası və qitələrarası ola bilər. Daxili miqrasiyalar isə kənddən kəndə, kənddən şəhərə, şəhərdən kəndə kimi təzahür edir.

Əhali miqrasiyası müddətinə və həyata keçirilmə üsuluna görə də fərqlənir. Miqrasiya müddətinə görə daimi, müvəqqəti və ya mövsümi, həyata keçirilmə üsuluna görə isə mütəşəkkil (dövlətin iştirakı ilə) və ya qeyri mütəşəkkil (fərdi) ola bilər.

Qeyd etmək lazımdır ki, miqrasiya ayrıca müstəqil sahə kimi öyrənilən gənc elmlərdəndir. Beynəlxalq miqrasiyanın müstəqil sahə kimi öyrənilməsinə XX əsrin 90-cı illərindən başlanmışdır. Bu dövrdə miqrasiya axınları artıq beynəlxalq münasibətlərə hiss ediləcək dərəcədə təsir göstərirdi. Müasir dünyada ölkələr arasında qarşılıqlı iqtisadi-siyasi münasibətlərin daha da yaxınlaşması, sosial-mədəni həyatın beynəlmilləşməsi, eyni zamanda, milli, irqi, regional münaqişələrin, fövqəladə vəziyyətlərin və təbii fəlakətlərin doğurduğu problemlər əhalinin kütləvi miqrasiyası ilə müşayiət olunur.

Konkret məqsədi və eyni hərəkət istiqaməti olmadığı üçün miqrasiya proseslərini vahid nəzəriyyə tətbiq etməklə izləmək, öyrənmək və idarə etmək mümkün deyildi. Hazırda, miqrasiyanın hərəkətinə imkan yaradan aşağıdakı amillər müəyyən olunmuşdur:

1) Struktur şərtləri: regionlar və ölkələrarası iqtisadi inkişaf fərqləri əhalinin cəlbedici görünən dövlətə miqrasiyasına şərait yaradır. Dövlətlərarası münaqişələr və digər bu kimi hadisələr isə əhalinin daha təhlükəsiz əraziyə köçürülməsinə səbəb olur.

2) Təsisat kanalları: dövlətlərin miqrasiya və inteqrasiya rejimi, hüquqi və tənzimləmə bazası. Bir sıra dövlətlər (xüsusilə işçi qüvvəsindən əziyyət çəkən dövlətlər) özləri miqrasiya üçün şərait yaradırlar.

3) Bir-biri ilə əlaqədə olan sosial şəbəkələr (məsələn, diaspor). Belə şəbəkələr miqrantların öz adət-ənənələrini, dillərini və mədəniyyətlərini qorumağa imkan verir, hətta növbəti miqrasiyalar üçün zəncir yaradır.

XX əsrdən başlayan qloballaşma prosesi miqrasiyanın strukturuna, təsisat kanallarına, diasporun formalaşmasına, səbəb və istiqamətlərinə təsir edir. Xarici miqrasiya immiqrasiya və emiqrasiya formalarında mövcuddur. Xarici miqrasiyanın subyektlərinə qaçqınlar, qaçqın statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər, əməkçi miqrantlar, tranzit miqrantlar, qeyri-qanuni miqrantlar, həmçinin təhsil və nikah nəticəsində miqrasiya edən şəxslər daxildir.

Dövlətlər bu prosesə uyğunlaşmaq üçün əhalinin hərəkətinin idarə edilməsində və miqrasiya proseslərinin tənzimlənməsində yeni mexanizmlər işləyib hazırlayırlar. Çünki, miqrasiya proseslərinin tənzimlənməməsi demoqrafik vəziyyətin kəskinləşməsinə təsir edən amillərdən birinə çevrilmişdir (xüsusilə, əmək yaşda olan əhalinin emiqrasiyası).

Beynəlxalq miqrasiya prosesləri ayrı-ayrı qitələrin, dövlətlərin və regionların iqtisadi inkişaf səviyyəsi ilə sıx surətdə bağlıdır. Miqrasiya axınlarının əsasən inkişaf etmiş Avropa ölkələrinə və Amerikaya istiqamətləndiyini nəzərə alaraq, həmin ölkələrin miqrasiya siyasətinə nəzər salaq.

Tarixən baş vermiş miqrasiyaların səbəbi kimi insanların öz həyatı tələbatlarını ödəmək istəkləri, müharibələr, təbii fəlakətlər və digər amilləri göstərə bilərik. Əhalinin miqrasiyası tarixi-siyasi hadisələrdən asılı olaraq ayrı-ayrı dövrlərdə fərqli olmuşdur.

Belə ki, Böyük coğrafi kəşflər nəticəsində avropalıların Asiya, Afrika, Amerika qitələrinə güclənən miqrasiyası XIX əsrdən başlayaraq zəifləməyə başladı. Dünyada, xüsusilə də Avropada iqtisadiyyatın və sənayenin inkişafı və urbanizasiyanın artması buna əsas səbəb oldu. Sonrakı dövrdə miqrasiya proseslərinə səbəb əsasən münaqişələr və müharibələr olmuşdur.

XX əsrdə isə vaxtı ilə Avropa dövlətlərindən asılı və ya yarımasılı olan ölkələrdən müstəmləkə mərkəzinə axınları müşahidə edirik.1976-cı ildə inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə axın var idisə, 2005-ci ildə əksinə axın güclənmişdir. Son 30 ildə isə Asiya və Afrika ölkələrindən Avropa və Amerikaya miqrasiya axını artmışdır. BMT-nin

2009-cu ilə aid statistik göstəricilərinə əsasən demək olar ki, bir il ərzində orta hesabla 2,3 milyon insan miqrasiya edir.

XX əsrin ortalarında miqrantlar dövlətləri və yerli cəmiyyətləri narahat etmirdisə, artıq əsrin sonlarında, xüsusilə də XXI əsrin əvvəllərində bu məsələ inkişaf etmiş ölkələrin siyasi və iqtisadi həyatina öz ciddi təsirini göstərir. ABŞ və Qərbi Avropanın bir sıra dövlətləri miqrasiya prosesinin tənzimlənməsi istiqamətində ciddi fəaliyyət göstərirlər.

XX əsrin sonunda Sovet İttifaqının dağılması nəticəsində regionda yaranmış ağır sosial-iqtisadi vəziyyət, milli münaqişələr burada da miqrasiya prosesinə güclü təsir etdi.

Qeyd etmək lazımdır ki, miqrasiya prosesinin qarşısını almaq məqsədilə görulən tədbirlər, qəbul edilən sərt qanunlar bu prosesin qarşısını tamamilə almaq imkanında deyil. Bunlar, əksinə, qeyri qanuni miqrasiyaya şərait yaradır. Digər bir cəhət isə bu halda geri qayıtmaq istəyən immiqrantların sayının azalmasıdır. Yəni, qeyri-qanuni miqrantlar sərt tədbirlər nəticəsində çətinliklərlə üzləşəcəklərini düşündüklərindən geri qayıtmırlar. Bu səbəbdən də miqrasiyanın tənzimlənməsi istiqamətində dövlətlərin əməkdaşlıq etmələri daha münasibdir.

İnkişaf etmiş dövlətlər miqrasiya prosesini çətin idarəedilən bir proses kimi qiymətləndirir və bir sıra əhali problemlərinin başlanğıcı kimi görürlər. Demoqraflar isə bir sıra müsbət cəhətlərinə görə miqrasiya prosesindən iqtisadi-sosial və digər sahələrdə istifadə etməyi təklif edirlər. O.V.Fomiçeva BMT-nin statistik göstəricilərinə əsasən belə qənaətə gəlir ki, doğum sayının azaldığı uzun ömürlü ölkələrdə əhalinin qocalması prosesi gücləndiyindən 40-45 il sonra əmək fəaliyyəti yaşında olan əhaliyə tələbat yaranacaqdır. Bu səbəbdən də, əhalinin strukturunu tənzimləmək üçün miqrasiya prosesini daha münasib hesab edir.

Ali təhsilli və təhsilsiz miqrantların qəbulu müxtəlif dövlətlər tərəfindən fərqli qarşılanır. Belə ki, ali təhsilli miqrantların cəlb edilməsi üçün bir sıra güzəştli proqramlar həyata keçirilir, təhsilsiz miqrantlar isə ucuz işçi qüvvəsi kimi daha çox sahibkarların marağındadır. Mövsümü işlərin yerinə

yetirilməsi üçün bir sıra Avropa dövlətlərinin ali təhsili olmayan ucuz işçi qüvvəsinə ehtiyacı olur.

Dövlətlər miqrasiya tiplərini (əmək, təhsil, nikah v.s.) də diqqətdə saxlayır, onları tənzimləməklə miqrasiya proseslərinin yaratdığı problemlərin qarşısını almağa çalışırlar.

Hazırda Avropa İttifaqı (Aİ) ölkələri öz aralarındakı sərhədləri açdıqlarından daxili miqrasiya prosesinin tənzimlənməsinə xüsusi diqqət yetirirlər. Belə ki, Aİ ölkələrindən birinin vətəndaşları iş axtarmaq üçün bu ölkələrdən birinə gedə, hətta orada işləyib yaşaya bilər. Belə tənzimləmə inkişaf etmiş Avropa dövlətlərinin öz aralarında miqrasiya prosesinə nəzarət etmələrinə şərait yaradır. Aİ-nin qanunvericilik sistemi üzv dövlətlərin əhalisinə vahid sosial şərait yaradılmasını təmin edir. Həmçinin, təhsil səviyyəsinin bərabərləşdirilməsi və diplomların tanınması istiqamətində də proqramlar həyata keçirilir. Bununla da, miqrasiya prosesini daha kompleks şəkildə tənzimləməyə çalışırlar.

Vətəndaşların vizasız hərəkəti üçün (xüsusilə, turizm və biznes məqsədilə) Aİ, ABŞ, Kanada və Yaponiya öz aralarında və bir sıra ölkələrə güzəştlər müəyyən etmişlər. Bu proses qeyri-qanuni miqrasiyanın qarşısını almaqda mühüm addımdır.

İnkişaf etmiş dövlətlər bir tərəfdən öz aralarında sərhədləri açsalar da, digər tərəfdə inkişaf etməkdə olan dövlətlərlə sərhədləri möhkəmləndirirlər ki, qanunsuz miqrasiyanın qarşısını alsınlar. Məhz buna görə də, İspaniya və Mərakeş sərhəddində Aİ-nın ən mühüm sərhəd məntəqələrindən biri yerləşir.

Aİ üzvləri arasında qeyri-qanuni miqrasiya ilə mübarizədə əməkdaşlıq məqsədilə 2002-2006-cı illərdən Aİ ilə üçüncü dövlətlər arasında immiqrasiya, sığınacaq, viza məsələlərinə dair administrativ əməkdaşlığı əks etdirən proqram fəaliyyət göstərir.

Dövlətlərin miqrasiya siyasətinin öyrənilməsi, bu sahədə təcrübə mübadiləsi əhəmiyyətli və vacib vəzifəyə çevrilmişdir.

Aİ və Müstəqil Dövlətlər Birliyi (MDB) kimi regional təşkilatlar, həmçinin ABŞ, Yaponiya, Türkiyə, Rusiya kimi

dövlətlər miqrasiya proseslərinin dövlətlər tərəfindən idarə olunması və tənzimlənməsi sahəsində əməkdaşlığa, həmçinin elmi-nəzəri tədqiqatlara xüsusi əhəmiyyət verirlər. Miqrasiya proseslərinin tənzimlənməsində beynəlxalq təcrübənin öyrənilməsi və ondan istifadə olunması ölkə daxilində miqrasiya qaydalarının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, ikitərəfli və çoxtərəfli əsaslarla beynəlxalq müqavilələrin bağlanması, digər ölkələrlə qarşılıqlı şəkildə miqrasiya siyasətinin uzlaşdırılmasını şərtləndirir.

Azərbaycan Respublikasında da siyasi, sosial-iqtisadi proseslərlə əlaqədar XX əsrin sonlarından başlayaraq beynəlxalq miqrasiya güclənmişdir. Bu prosesləri tənzimləmək məqsədilə Azərbaycan Respublikası Beynəlxalq Miqrasiya Təşkilatı, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı, Aİ, MDB, Avropa Şurası kimi beynəlxalq təşkilatlar, Almaniya, Avstriya, İsveçrə, Rusiya və başqa dövlətlərlə sıx əməkdaşlıq edir, ikitərəfli və çoxtərəfli sazişlərə, həmçinin Avropa Şurasının konvensiya və hüquqi aktlarına qoşulmuşdur: Digər ölkə ərazisinə müvəqqəti gələn şəxslərə tibbi xidmət göstərilməsi haqqında Avropa Sazişi; Əmək miqrasiyası və mühacir zəhmətkeşlərin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş; Muzdluların cəlb edilməsinə, onlardan istifadə olunmasına, onların maliyyələşdirilməsinə və təliminə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiya; Birləşmiş Millətlər Təşkilatının “Bütün fəhlə miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında” Beynəlxalq Konvensiyası; Əmək miqrasiyası və mühacir zəhmətkeşlərin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında MDB Sazişi v.s.

Bu məqsədlə bir sıra qanunvericilik sənədləri qəbul edilmiş, respublika qanunvericiliyi Konstitusiyaya və insan hüquqları sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılmışdır.

XX əsrdə beynəlxalq miqrasiya prosesləri nəticəsində xaricdə yaşayan azərbaycanlıların sayı artmışdır. XX əsrin əvvəllərindən başlayaraq əsasən, Avropada (Fransa, Polşa, Almaniya,

Türkiyə) məskunlaşan azərbaycanlılar 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirət həyatı yaşayaraq müxtəlif (siyasi, mədəni) təşkilatlar yaratmışlar. Onların ilk təşkilati fəaliyyətlərini diaspora hesab etmək olar. Hazırda Rusiya, Türkiyə, Ukrayna, Qazağıstan, ABŞ və Avropa ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanması işi müstəqil Azərbaycan dövləti tərəfindən həyata keçirilir. Xaricdə yaşayan insanlar öz aralarında sosial şəbəkələr vasitəsilə əlaqələri qorumağa çalışırlar. Lakin həmin dövlətlərdəki səfirlik, konsulluq da bu işdə müəyyən xidmətlər göstərməlidir. Xaricdə yaşayan azərbaycanlıların Vətəninə bağlı qalması və öz adətlərinə bağlı şəkildə formalaşması üçün bu əlaqələr vacibdir.

Qeyd edək ki, miqrasiyanın formalarından biri də "zorakı" miqrasiyadır. Miqrasiyanın bu forması zorla evindən qovulmuş və ya müharibə şəraitində evini tərk etmək məcburiyyətində qalmış kütləvi insan qrupunu nəzərdə tutur. Hazırda miqrasiyanın zorakı formasını özündə əks etdirən iki anlayışdan (qaçqın və məcburi köçkün) istifadə edilir. İndi isə bu anlayışlara ayrı-ayrılıqda diqqət yetirək. «Qaçqın» anlayışı nisbətən mütləq anlayış olub məzmunu beynəlxalq hüquq prinsipləri ilə müəyyən edilir. Burada biz gündəlik leksikonda istifadə olunan «qaçqın» sözü ilə beynəlxalq-hüquqi təyin olan «qaçqın» anlayışı arasında xeyli fərq olduğunu vurğulamalıyıq. Adi danışıq dilində bu və ya digər səbəbdən onu narahat edən şəraitdən və mühitdən qaçan istənilən kəs «qaçqın» adlana bilər və bu halda anlayış xeyli geniş məzmunludur. İkinci halda isə - «qaçqın» anlayışı daha dar məzmun kəsb edir və xüsusi komponentlərə müvafiq olmalıdır. «Qaçqın» anlayışının standart beynəlxalq-hüquqi təyini «Qaçqınların statusu haqqında Konvensiya»da (Cenevrə, 28 iyul 1951-ci il) müəyyən olunmuşdur və aşağıdakı prinsipial meyarları nəzərdə tutur:
- öz ölkəsinin hüdudlarından kənarda olmaq;
- öz dövlətinin müdafiəsindən məhrum olmaq;
- insanın öz həyatı, azadlığı və təhlükəsizliyi üçün əsaslı olaraq qorxması;

- irqi, dini, vətəndaşlıq, siyasi baxışları və müəyyən sosial qrupa mənsubiyyətinə görə təqib olunması;
- yuxarıda göstərilən səbəblər üzündən öz ölkəsinə qayıtmağın mümkünsüzlüyü.

«Məcburi köçkün» anlayışına gəlincə, onun üzərində daha ətraflı dayanmaq lazımdır; bu da, ilk növbədə, anlayışın xeyli yeni yaranması və beynəlxalq hüquq çərçivəsinin tam müəyyən edilməsi ilə bağlıdır. İlk dəfə «məcburi köçkün» anlayışı MDB dövlətlərinin 1993-cü il Müqaviləsində istifadə olunmuş və əsas meyarları «qaçqın» anlayışı ilə analojidir. Fərq ondadır ki, qaçqınlar başqa dövlətin ərazisində sığınacaq tapır, məcburi köçkünlər isə «öz dövlətinin daxilində hərəkət edirlər».

«Məcburi köçkün» anlayışı ilə bağlı qeyri-müəyyənlik ondan ibarətdir ki, o, BMT çərçivəsində imzalanan konvensiyalarda «vətəndaşlığı olmayan şəxs», «ölkə daxilində hərəkət edən kəslər» anlayışları ilə əvəzlənir və bu, xeyli hüquqi qarışıqlıq yaradır.

Bu anlayışların təşəkkülü tarixinə gəlincə, əslində problem bəşəriyyətin bütün tarixi boyu mövcud olsa da onunla bağlı beynəlxalq-hüquqi həllin axtarışı yalnız XX yüzillikdə başlamışdır. I Dünya müharibəsi, həmçinin Rusiya imperiyasında baş verən hərbi-siyasi hadisələr, Asiya və Afrika ölkələrində milli hərəkatın yüksəlməsi keçən əsrin 20-ci illərində dünyada böyük sayda insanın öz dövlətini tərk etməsinə, məcburi mühacirət etməsinə və qaçqına çevrilməsinə gətirib çıxardı. Bəzi məlumatlara görə, 1923-cü ildə Avropa qitəsində özünə sığınacaq axtaranların sayı 2-2,5 milyona çatmışdır.

1919-cu ildə Millətlər Liqasının yaradılması (1919-1939-cu illərdə mövcud olmuşdur) ilə «qaçqınlar problemi» də beynəlxalq gündəmə gəlir. Millətlər Liqasının Şurası 26 fevral 1921-ci il tarixdə qaçqınlarla bağlı ilk qətnaməsini qəbul edir, 1926-cı ilin iyununda isə Beynəlxalq Qırmızı Xaç Komitəsinin təşəbbüsü ilə qaçqınlar üzrə Ali Komissar vəzifəsi təsis olunur. Cenevrədə qaçqın problemi ilə bağlı 1926-cı ildə keçirilmiş konfransın Yekun Aktına görə, qaçqınlar – öz hökumətinin

müdafiəsindən məhrum olmuş və digər dövlətlərin vətəndaşlığını almamış şəxslər idi. Lakin, istər 1921-ci il Millətlər Liqasının qətnaməsi, istərsə də 1926-cı il Cenevrə Aktı «qaçqın» məfhumunu bütün milli və etnik qruplar üçün deyil, ruslar və ermənilər üçün nəzərdə tutmuşdu. Bu səbəbdən, «qaçqın» anlayışının beynəlxalq-hüquqi təyini, həmçinin qaçqınların statusu bu sənədlərdə müəyyən olunmuş sayıla bilməz.

Eyni yanaşma Millətlər Liqasının 1938-ci il Konvensiyasında da təzahür edir: bu sənəddə də yalnız Almaniyadan olan qaçqınların statusu müəyyən olunurdu. Elə həmin il iştirakçı dövlətlər «Almaniyadan (Avstriya daxil olmaqla) məcburi mühacirət etmişlərin vəziyyətini yüngülləşdirmək üçün» «Qaçqınların işi üzrə Hökumətlərarası Komitə»nin təsis olunmasına qərar verir.*

Nəzərdən keçirdiyimiz sənədlərdəki məhdud yanaşmalar, əslində, beynəlxalq hüququn deyil, beynəlxalq şəraitin ziddiyyətləri ilə bağlı idi: Avropa çox ağır hərbi-siyasi kataklizmlər ərəfəsində idi və qaçqınların müdafiəsi üçün beynəlxalq-hüquqi sistemin yaradılmasına hələ hazır deyildi. Üstəlik, 1939-cu ildə başlamış II Dünya müharibəsi Millətlər Liqasının fəaliyyətinə son qoyur və qaçqınların beynəlxalq müdafiəsi sistemi rüşeym mərhələsində qalır.

Qaçqın problemi ilə bağlı növbəti müzakirələr yalnız 1943-cü ildə bərpa olur: 9 noyabr 1943-cü il tarixdə «Yardım məsələləri və müharibədən sonrakı bərpa işləri üzrə Birləşmiş Millətlər Agentliyi» (UNRRA) yaradılır. 44 dövlətin iştirakı ilə təsis edilmiş Agentliyin birinci dərəcəli vəzifələri sırasında müharibə zamanı qaçqın düşmüş şəxslərin repatriasiyasına† yardım etmək (repatriasiyanın könüllü olması şərtilə) məsələsi də var idi.

---

* 1943-cü ildə keçirilən Bermud konfransında Komitənin mandatına yenidən baxılmış və "irqi, dini və siyasi mənsubiyyətlər səbəbindən ölkəsini tərk etmiş" avropalıların hamısı bu mandat altına salınmışdı.

† Repatriasiya-vətənə qaytarılma (hərbi əsirlərin,qaçqınların,mühacirlərin və b. öz vətənlərinə qaytarılması).

II Dünya Müharibəsinin başa çatması beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və müdafiəsi məqsədilə dünya dövlətlərinin əməkdaşlıq edəcəyi vahid təşkilatın yaradılmasını zəruri edir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi San-Fransiskoda 50 dövlətin iştirakı ilə keçirilən konfransda imzalanır və 24 oktyabr 1945-ci il tarixdə qüvvəyə minir. BMT Baş Assambleyasının artıq ilk sessiyasında (1946-cı ilin yanvarı) təcili həllini gözləyən məsələlərdən biri kimi qaçqınlar haqqında məsələ gündəliyə çıxarılır. Bu sessiyada qaçqınlar problemi ilə bağlı kifayət qədər böyük fikir ayrılığı ortaya çıxır. Belə ki, SSRİ tərəfi mühacirət etmiş və ya qaçqın düşmüş insanların dərhal vətəndaşı olduqları dövlətə geri qaytarılmasında və bununla əlaqədar müvafiq ikitərəfli sazişlərin bağlanmasında təkid edirdi. Qərb ölkələri isə, əksinə, repatriasiyanın könüllü olmasında israrlı idilər.

Müzakirələr BMT Baş Assambleyasının 15 dekabr 1946-cı il tarixli 62/1 saylı qətnaməsi ilə nəticələndi: qətnaməyə görə, Qaçqınlar üzrə Beynəlxalq Təşkilat yaradılırdı. Təşkilatın Nizamnaməsində əvvəlki beynəlxalq aktların bir çox bəndləri öz əksini tapmışdı: bu sənədə görə, təqiblərin qurbanları, yəhudi əsilli kəslərin bəzi qrupları, həmçinin, nasist və faşist rejimlərinin qurbanları olmuş əcnəbi vətəndaşlar və apatridlər* qaçqın sayılırdı. Qaçqınlar üzrə Beynəlxalq Təşkilatın Nizamnaməsi öz dövlətlərinin müdafiəsindən məhrum olmuş şəxsləri də qaçqın siyahısına aid edirdi.

Qeyd etmək yerinə düşər ki, BMT 1947-1951-ci illər ərzində bir milyona yaxın insanı tərk etdikləri ölkələrə köçürməyə müyəssər olmuşdu. Növbəti illərdə BMT qaçqınlarla bağlı fəaliyyət istiqamətini genişləndirir: Baş Assambleyanın 3 dekabr 1949-cu il tarixli IV sessiyasının iclasında 319 saylı qətnamə qəbul olunur. Qətnaməyə müvafiq olaraq BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı təsis edilir və onun fəaliyyətinin başlanğıc tarixi 1 yanvar 1951-ci il kimi göstərilir.

---

* Apatrid - vətəndaşlığı olmayan şəxslər (şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması ilə səciyyələnən hüquqi vəziyyət).

Qaçqınların işi üzrə Ali Komissarlıq Qaçqınlar üzrə Beynəlxalq Təşkilatı əvəz etmiş olur.

Ali Komissarlığın yaradılmasında məqsəd qaçqınların «beynəlxalq müdafiəsinin təmin olunması» və «qaçqın probleminin qəti həllinin tapılması» idi. Komissarlığın Nizamnaməsində Ali Komissarın səlahiyyət çərçivəsi «qaçqınların müəyyən qrupları»na aid edilirdi. Bununla əlaqədar, Nizamnamədə «qaçqın» anlayışının təyin edilməsi cəhdi təəccüblü görünür: bir tərəfdən, sənəddə yalnız müəyyən qrup qaçqınlar (bunlar əsasən yuxarıda qeyd etdiyimiz 1926-cı, 1928-ci və 1938-ci il Konvensiyaları ilə təyin olunan qaçqınlar idi) Komissarlığın səlahiyyət çərçivəsinə daxil edilmişdi, amma, digər tərəfdən, «qaçqın» anlayışına fərdi qiymət verilirdi. Bu ziddiyyətlər səbəbindən, «qaçqın» anlayışı və qaçqınların statusu ilə bağlı daha qəti, obyektiv sənədə ehtiyac var idi.

Məlum məsələ ilə bağlı həlledici mərhələlərdən biri, heç şübhəsiz, 1951-ci il oldu: BMT Baş Assambleyasının qərarına müvafiq olaraq, Cenevrədə qaçqınların hüquqi statusunu nizamlayacaq Konvensiyanın hazırlanması üçün səlahiyyətli nümayəndələrin Konfransı çağrıldı. Bu konfransın gərgin əməyi nəticəsində 28 iyul 1951-ci il tarixdə Qaçqınların statusu haqqında BMT Konvensiyası qəbul olundu. Konvensiyanı imzalamış və onu ratifikasiya etmiş dövlətlər Qaçqınların işi üzrə Ali Komissarlığın Nizamnaməsinə müvafiq meyarlara uyğun insanların «qaçqın» statusu alması ilə razılaşırdılar.

Sonrakı illərdə daha bir neçə beynəlxalq-hüquqi sənədlər də qəbul olundu ki, onlar «qaçqın» anlayışının təyinini xeyli dəqiqləşdirdi. Bu sənədlər içərisində BMT-nin 1967-ci il Deklarasiyası, Afrika Birliyi Təşkilatının 1969-cu il Konvensiyası və 1984-cü il Kartaxena Deklarasiyası beynəlxalq aləmdə böyük etibar qazandı. Hər üç bəyannamə «qaçqın» statusunu xeyli genişləndirərək təkcə hər hansı mənsubiyyətə görə təqib olunma nəticəsində deyil, həm də xarici təcavüz, işğal, yadelli hakimiyyət səbəbindən ölkəni tərk edənlərin də bu çərçivəyə daxil edilməsinə imkan verirdi.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində nəhəng bir coğrafi məkanda etnik, milli, dini və dövlətlərarası münaqişələrin yaranıb böyük sürətlə artması qaçqın probleminin yeni konturlarını yaratmış oldu. Bu problemləri hüquqi baxımdan nizamlamaq məqsədilə 1993-cü ildə Moskvada MDB ölkələrinin qaçqınlar və məcburi köçkünlər haqqında Müqaviləsi imzalandı. Azərbaycan Respublikasının da qoşulduğu bu müqavilədə bəzi yeni hüquqi təyinlər (məsələn, «qaçqın» anlayışı ilə bağlı «zorakılıq» sözünün istifadəsi) və həmçinin, əvvəldə nəzər yetirdiyimiz yeni anlayış - «məcburi köçkün» anlayışının beynəlxalq hüquqa daxil edilməsi diqqətəlayiqdir.

Qaçqınlar və məcburi köçkünlərlə bağlı beynəlxalq aktlar və dövlətlərarası sazişlər bu beynəlxalq – hüquqi normaların milli qanunvericilikdə də əksini tapmasına şərait yaratmışdır. Lakin istər beynəlxalq, istərsə milli qanunvericilikdə «qaçqın» və «məcburi köçkün» anlayışları ilə bağlı boşluqlar hələ də qalmaqdadır. Məsələn, götürək elə «məcburi köçkün» anlayışını. Əvvəldə də qeyd etdik ki, bu anlayış qeyri-müəyyəndir və yalnız 1993-cü il Moskva Müqaviləsinin iştirakçıları olan dövlətlərin qanunvericiliyində əks olunub. Bu isə həmin qanunların beynəlxalq çərçivədə praktiki işləməsinə mane olur.

Digər tərəfdən, «qaçqın» anlayışının özünü də tam mütləq, meyarları dəqiq işlənmiş anlayış kimi qəbul etmək olmaz. Elə imzalanan razılaşmalar, o cümlədən 1951-ci il Konvensiyası bu məsələni xeyli açıq qoyur: «qaçqın» anlayışının və qaçqınların statusunun fərdi təyinini dövlətlərin öz ixtiyarına buraxır; bu da öz növbəsində anlayışın müxtəlif interpretasiyasına yol açır.

Nəzərdən keçirdiyimiz məsələlər belə deməyə əsas verir ki, müxtəlif dövlətlərdə, həmçinin ayrı-ayrı Bəyannamələrdə «qaçqın» və «məcburi köçkün» anlayışlarının fərqli təyini və nəzərəçarpacaq təsnifat müxtəlifliyi mövcuddur. Bu qarışıqlığı aradan qaldırmaq üçün məlum anlayışların hüquqi vəhdətini saxlaya biləcək yeni Konvensiyaya ehtiyac var.

Ümumilikdə isə miqrasiya probleminin öyrənilməsi bir

daha göstərir ki, müasir dünyanın yaşadıgı sosial-iqtisadi, o cümlədən təbii fəlakətlər, siyasi hüquqların məhdudlaşdırılması kimi məsələlər miqrasiyanı günümüzün aktual probleminə çevirmişdır. Bu isə onun ayrica bir elm kimi öyrənilməsini vacib edən ən mühüm səbəblərdəndir.

## 2. Dövlətlərarası miqrasiya, diasporun formalaşması

Postsovet məkanında etnik parçalanmalar prosesi yeni yaranmış müstəqil dövlətlərin qraşısında həll etməli olduqları siyasi, sosial, demoqrafik problemlərin bütöv bir kompleksini yaratdı. Gənc dövlətlər hüquqi müstəvidə millətlərarası münasibətlər problemi ilə üz-üzə qaldılar. Milyonlarla keçmiş sovet vətəndaşı Vətəninə qayıtmaq və ya yaşadığı ölkədə qalmaq seçimi qarşısında qaldı. Yaşadıqları ölkələrdə qalanlar diasporlarda birləşdilər.

SSRİ dağılandan sonra öz tarixi Vətəninin hüdudlarından kənarda, qeyri millətlərin əhatəsində olan insanlar üçün əhalinin əsas hissəsini təşkil edən xalqın mədəniyyətini və dilini qəbul etmək seçimindən başqa, həm də yeni yaşayış yerində öz milli özünəməxsusluğunu, mədəniyyətini və dilini qoruyub saxlamaq məsələsi gündəmdə dururdu.

«Diaspor» fenomeni sovet tarixçiləri üçün xüsusi tədqiqat obyekti olmamışdır. Çoxmillətli böyük dövlət olan və özünün dövlət quruluşu formasında milli dövlət və inzibati ərazi elementlərini birləşdirən Sovet İttifaqında milli məsələ deyilən məsələ «yox idi». Sovet İttifaqında insanların yeni tarixi birliyi–sovet xalqı «yaranmışdı». Millətlərin öz müqəddəratını hüququ təyin etməsi haqqında Lenin nəzəriyyəsi ilə «silahlanmış» Sovet höküməti üçün «etnik» kateqoriya ikinci dərəcəli əhəmiyyətə malik idi.

Azərbaycan diasporunun təşkilati cəhətdən təşəkkül tapması respublikanın müstəqilliyinin bərpasından sonra, daha dəqiq desək, 1993-2003-cü illərdə hakimiyyətdə olmuş Heydər Əliyevin prezidentliyi dövrünə təsdüf edir. Heydər Əliyev Azərbaycan millətinin vahidliyinin ideoloji əsaslarını işləyib hazırlamışdı. Dünya

azərbaycanlılarının I qurultayında Ümummilli lider qeyd edirdi: ***«Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız – siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkənin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də müxtəlif ölkələrdə də Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır».***

Azərbaycanda demoqrafik tədqiqatların həyata keçirilməsi dövlət tərəfindən stimullaşdırılır. Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 1999-cu il tarixli fərmanı ilə «Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası» təsdiq edilmişdir. Həmin Konsepsiya əhalinin kəmiyyət və keyfiyyət tərkibinin yaxşılaşdırmasına yönəldilən dövlət siyasətinin prioritetlərini müəyyənləşdirir, əhalinin sosial müdafiəsini və sağlamlığının qorunmasını gücləndirir və xarici miqrasiya proseslərini qaydaya salır. Konsepsiyada demoqrafiya sahəsində milli prioritetlər demoqrafiya ilə bağlı elmi tədqiqatların genişləndirilməsi, təhsil müəssisələrində demoq-rafiya kursunun tədrisi, əhalinin bu sahəyə dair biliklərinin artırılması

məsələləri kimi qeyd olunmuşdur.

Diasporologiya yeni tarixi fənlərdən biridir. Müasir Azərbaycan diasporologiyasının qarşısında aşağıdakı vəzifələr durur:

- xaricdə yaşayan azərbaycanlıların coğrafi məskunlaşmasının və demoqrafik göstəricilərin öyrənilməsi;
- Azərbaycan diasporunun təşəkkül tapmasının və inkişafının tədqiqi;
- diasporun azərbaycanlıların yaşadıqları ölkələrdə əlaqələrinin möhkəmləndirilməsindəki rolunun araşdırılması;
- bu ölkələrin ictimai-siyasi həyatında azərbaycanlıların iştirakının müəyyənləşdirilməsi;
- Azərbaycan diasporunun tarixi Vətəni ilə əlaqələrinin gücləndirilməsinin öyrənilməsi;
- xaricdəki Azərbaycan lobbisinin siyasi və iqtisadi potensialının və ondan istifadə imkanlarının müəyyən edilməsi və s.

Burada Rusiyada Azərbaycan diasporunun fəaliyyətinin öyrənilməsi məsələləri üzərində xüsusi dayanmaq istərdik. Diasporologiyanın əsas məqsədləri sırasında Rusiyada da yaşayan azərbaycanlıların artım dinamikası və yerləşməsinin, habelə onların Rusiya dövlətinin həyatındakı yeri və rolunun, Rusiyada Azərbaycan diasporu təşkilati strukturunun təşəkkülünün, formalaşmasının və inkişafının öyrənilməsidir.

Göstərilən məqsəd çərçivəsində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Rusiyanın Azərbaycan əhalisinin demoqrafik göstəricilərini tədqiq etmək;
- azərbaycanlıların Rusiyaya miqrasiyasını öyrənmək;
- miqrantların hüquqi statusunun müəyyən edilməsi ilə əlaqədar Rusiya Federasiyasının dövlət siyasətinin xüsusiyyətlərini, bu siyasətin diasporun siyasi davranışının formalaşmasına təsirini göstərmək;
- Rusiya cəmiyyətinin sosial strukturunda azərbaycanlıların yerini müəyyənləşdirmək;
- Azərbaycan diasporunun nümayəndələrinin peşələr üzrə məşğulluğunu göstərmək;

- Azərbaycan elitasının Rusiyanın iqtisadi, ictimai-siyasi, mədəni və elmi həyatında yerini və rolunu araşdırmaq;
- Rusiyada Azərbaycan diasporu strukturlarının formalaşmasını izləmək, onların regional şöbələrinin fəaliyyətini işıqlandırmaq;
- Azərbaycan diasporunun kütləvi informasiya vasitələrinin və mədəni-təhsil mərkəzlərinin fəaliyyətini və inkişafını tədqiq etmək.

Azərbaycan diasporunun nümunəsində postsovet Rusiyasında baş verən tarixi-demoqrafik prosesləri tədqiq etməyə cəhd göstərilmişdir. Burada aşağıdakı məqamları xüsusi qeyd etmək lazımdır:

- birincisi, bütövlükdə Rusiya Federasiyasında və ayrı-ayrılıqda federasiyasının subyektlərində yaşayan azərbaycanlıların həyatında baş verən demoqrafik dəyişikliklər aydınlaşdırılmışdır. Həmin dəyişikliklər, 1989-cu il Ümumittifaq və 2002-ci il Ümumrusiya əhali siyahıyaalmalarının materialları əsasında tədqiq olunmuşdur;
- ikincisi, yeni tarixi şəraitdə etnik özünəməxsusluğun qorunub saxlanması mexanizmini başa düşmək üçün Azərbaycan diasporunun özünün daxilində baş verən proseslər öyrənilmişdir;
- üçüncüsü, gənc, suveren postsovet dövlətlərdə etnoslararası qarşılıqlı əlaqələr təhlil olunmuşdur.

Konkret mənbələr əsasında Azərbaycan diasporunun təşkilati cəhətdən formalaşması, fəaliyyəti, həm də onun Rusiyanın ictimai-siyasi, iqtisadi, elmi və mədəni həyatına verdiyi töhvə tədqiq edilmiş, azərbaycanlıların Rusiya Federasiyasının inkişafındakı rolu müəyyənləşdirilmişdir. Eyni zamanda, Rusiyadakı Azərbaycan diasporunun elitası probleminə toxunulmuşdur.

Rusiyada yaşayan azərbaycanlıların say dinamikası, tərkibi və yerləşməsi geniş faktik material əsasında Rusiya Federasiyasının ərazisində azərbaycanlıların yerləşməsi, Federasiyanın subyektləri üzrə bölgüsü, şəhər və kənd əhali-sinə, kişi və qadın cinsinə görə say göstəriciləri, dillərə yiyələnməsi, yaş strukturu, yaşayış yerinin seçməsi və s. məsələlər tədqiq olunmuşdur.

1994-cü ildə əhalinin mikrosiyahıyaalınmasının materialları verilmiş, azərbaycanlıların Rusiyaya miqrasiyasının xarak-

teri, miqrantların hüquqi statusunun müəyyən edilməsi üzrə Azərbaycan Respublikasının və Rusiya Federasiyasının dövlət siyasətinin xüsusiyyətləri öyrənilmiş, bu siyasətin Azərbaycan diasporunun siyasi davranışının formalaşmasına göstərdiyi təsir müəyyənləşdirilmişdir.

Sonuncu 1989-cu il Ümumittifaq siyahıyaalınmasına görə RSFSR-də 147.021.869 nəfər yaşayırdı. Onlardan 119.865.946 nəfərini ruslar təşkil edirdi .

Öz tarixi vətəninin hüdudlarından kənarda yaşayan azərbaycanlıların daha çox hissəsi-335.889 nəfəri RSFSR-də qeydiyyatdan keçmişdir. Onlardan 221.500 nəfəri kişi, 114.389 nəfəri qadın idi. Azərbaycanlıların əsas hissəsi Şimali Qafqaz və Mərkəz iqtisadi rayonlarında qeydə alınmışdır.

1989-cu ildə Azərbaycan SSR-dən RSFSR-ə 50.526 miqrant getmişdir. Onlardan 22.999 nəfəri Şimali Qafqaz, 10.802 nəfəri Mərkəz iqtisadi regionlarında məskunlaşmışdır.

90-cı illərin əvvəllərində SSRİ-nin dağılması ilə Azərbaycanda öz sosial statusunu itirən əmək qabilliyyətli işçi qüvvəsi Rusiyaya axın edir. Burada onlar qeyri-ixtisaslı, qeyri-peşəkar əməklə məşğul olan qeyri-leqal miqrantların sıralarını artırırlar.

Rusiya Federasiyası əhalisinin tam dolğun siyahıyaalınması 2002-ci ildə keçirilmişdir. Siyahıyaalınmanın nəticələrinə görə əhalinin ümumi sayı 145.166.731 nəfər olmuşdu ki, onlardan 115.889.107 nəfəri rusların payına düşürdü. 1989-cu ildə 335.889 nəfər olmuş azərbaycanlıların sayı isə artaraq 621.840 nəfərə çatmışdı.Onlardan 386.776 nəfəri kişi, 235.064 nəfəri qadın idi.

1989-cu il Ümumittifaq və 2002-ci il Ümumrusiya əhali siyahıyaalma materialları belə bir qənaətə gəlməyə əsas verir ki, azərbaycanlıların daha çox Rusiya Federasiyasının Cənub və Mərkəz Federal dairələrində məskunlaşmasının səbəbi göstərilən regionların iqtisadi inkişaf səviyyəsinin yüksək olmasıdır ki, bu da öz növbəsində təbii amillərlə, istehsalın inkişafı və yerləşməsi ilə, nəqliyyat təminatı ilə, əhalinin gəlirlərinin yüksək olması ilə izah olunur. Tarixi şərtləndirmə amili də az əhəmiyyət kəsb etmir. Belə ki, bu dövrdə Moskvada

azərbaycanlıların sayı 20.727 nəfərdən artaraq 95.563 nəfərə, Moskva vilayətində - 5.974 nəfərdən 14.651 nəfərə, Sankt-Peterburqda - 11.804 nəfərdən 16.613 nəfərə çatmışdır.

Dağıstan Muxtar Respublikasında azərbaycanlıların ümumi sayı 2002-ci ildə 111.656 nəfər olmuşdur.

Qeyd edək ki, Dağıstan azərbaycanlıların tarixən daimi yaşayış yeri olmuşdur. Burada azərbaycanlıların sayca coxluğu onunla izah olunur ki, Cənubi Dağıstan tarixən Azərbaycan ərazisi olmuşdur və yalnız XIX əsrdə Rusiya imperiyası tərəfindən aparılan inzibati-ərazi dəyişiklikləri nəticəsində Azərbaycan hüdudlarından kənarda qalmışdır.

Sosial-peşə statusu, əmlak bərabərsizliyi iqtisadi miqrantları Rusiyanın ucqarlarına sıxışdırır. Azərbaycanlılar Uzaq Şərq Federal dairəsini fəth etməyə başlayırlar. Belə ki, 2002-ci il siyahıyaalınmasına əsasən burada azərbaycanlıların sayı 18.132 nəfər olmuşdur. Sibir və Ural Federal dairələrində isə azərbaycanlıların sayı artaraq, 2002-ci il siyahıyaalınmasına əsasən Ural Federal dairəsində 100.073 nəfərə, Sibir Federal dairəsində isə 61.105 nəfərə çatmışdır. İlk dəfə azərbaycanlılar Çukot, Komi-Perm, Ust-Ordınsk, Koryak, Evenk Muxtar Vilayətlərində qeydə alınmışlar.

Beləliklə, tədqiq olunan məsələlər aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- Azərbaycanlıların Rusiya Federasiyasının Cənub və Mərkəz Federal dairələrində daha çox məskunlaşmasının səbəbi qeyd olunan regionların iqtisadi inkişaf səviyyəsinin yüksək olmasıdır ki, bu da öz növbəsində təbii amillərlə, istehsalın inkişafı və yerləşməsi ilə, nəqliyyat təminatı, əhalinin yüksək gəlirləri ilə bağlıdır;
- miqrasiya və milli azlıqların inkişafı siyasəti üzrə qanunvericilik aktlarının qəbulu və həyata keçirilməsi federal və regional səviyyələrdə milli münasibətlərin hüquqi inkişaf bazasının inkişafına səbəb olur;
- federasiyanın bəzi subyektlərində azərbaycanlı əhalinin sayı Rusiyanın əsas azsaylı xalqlarının ümumi sayından çoxdur.

2002-ci il siyahıyaalınma materiallarında milli tərkibə və istifadə etdiyi dillərə görə şəhər və kənd əhalisinin, kişi və qadınların sayı haqqında məlumat verilir. Ayrı-ayrı millətlərdən olan əhalinin yaş qrupları, nikah, təhsil səviyyəsi, dolanışıq vasitələrinin mənbələri üzrə göstəricilər verilir, əhalinin vətəndaşlığa görə bölgüsü həyata keçirilir.

2002-ci il siyahıyaalınmasına görə Rusiyanın azərbaycanlı əhalisinin sayı 621.840 nəfər təşkil etmişdir. Bunlardan 479.517 nəfəri, onlardan 307.346 nəfəri kişi, 172.171 nəfəri qadın olmaqla şəhər əhalisi idi. Rusiya Federasiyasının kənd yerlərində 142.323 nəfər azərbaycanlı, onlardan 79.430 nəfər kişi, 62.893 nəfəri isə qadınlar idi.

2002-ci il əhali siyahıyaalınması zamanı ilk dəfə olaraq Rusiya Federasiyasının dövlət dili olan rus dilini bilmə səviyyəsi haqqında da məlumat verilmişdir. Siyahıyaalma göstərdi ki, 621.840 nəfər olan azərbaycanlı əhalinin 587.515 nəfəri rus dilində danışır.

Rusiya Federasiyasının subyektləri üzrə Azərbaycan dilini bilən ayrı-ayrı millətlərin nümayəndələri haqqında məlumatlar da maraqlıdır. Rusiya Federasiysı üzrə bu rəqəm 669.757 nəfərdir.

Azərbaycanlı əhalinin sosial-iqtisadi göstəriciləri də diqqətə layiqir. Dolanışıq vasitələrinin mənbələrinin təhlili aşağıdakı faktları üzrə çıxartdı: ən sabit sosial-iqtisadi göstəricilərə malik olanlar 30-39 yaş qrupu - 254.871 nəfər və 15 yaşınadək olan qrupdur - 169.983 nəfər.

Rusiyaya gələn iqtisadi miqrantların böyük əksəriyyəti orta və orta ixtisas təhsilli şəxslərdir. 1989-cu il siyahıyaalınmasında azərbaycanlıların təhsil səviyyəsi haqqında məlumat verilmir, lakin 2002-ci il siyahıyaalınması göstərdi ki, 15-70 və daha çox yaşda olan təhsilli azərbaycanlıların sayı 449.914 nəfərdir. Onlardan 65.533 nəfərinin əsas, 155.531 nəfərinin orta (tam), 89.186 nəfərinin orta təhsili vardır. 3.242 nəfərin ibtidai təhsilinin olmadığı göstərilir. Onlardan 1.934 nəfəri savadsızdır, 2.175 nəfərinin təhsil səviyyəsi haqqında məlumat verilməyib.

Elita elmdə qəbul edilmiş ümumi təsnifata uyğun olaraq məhsuldar və hakimiyyət elitasına bölünür; ictimai həyat sahələrinə görə isə siyasi və intellektual, biznes-elita və bürok-rat-elita kimi təsnif olunur.

Azərbaycan diasporunun intellektual elitası müxtəlif peşələrdə çalışan insanlarla təmsil olunmuşdur. Bu sırada Rusiya Federasiyasının əməkdar elm xadimi, əməkdar həkim, uşaq onkologiyası və gematologiyası ETİ-n direktoru, Ümum-rusiya Azərbaycan Konqresinin (ÜAK) prezidenti M.C.Əliyev; "Вопросы истории" jurnalının baş redaktoru A.A.İsgəndərov; Sankt-Peterburq şəhəri Smolnı universitetinin rektoru, Petrovsk Elmlər Akademiyasının akademiki Q.M.İmanov; Hərbi akademiyanın aparıcı mütəxəssisi, İnnovasiya Texnologiyaları Fondunun prezidenti Y.M.Neymətov; Rusiya Federasiyası Keyfiyyət problemi akademiyasının akademiki, Rusiyanın Milli birliklər Konqresinin RH sədri Z.Qocayev; f.e.d., professor, şair və tərcüməçi, T.D.Məlikovu və b. göstərmək olar.

Biznes-elitanı "Crokus International"ın prezidenti, ÜAK-ın vitse-prezidenti A.İ.Ağalarov, "AST" xoldinqin prezidenti, ÜAK-ın vitse-prezidenti T.M.İsmayılov, "Birləşmiş kapital" İnvestisiya qrupunun direktorlar şurasının sədri, ÜAK MŞ-nın üzvü N.Axundov, "Almaz" ETB-in prezidenti R.Aşurbəyli və b. təmsil edirlər.

Elmi araşdırmalarda "LUKoil" neft şirkətinin prezidenti, ÜAK-ın I-ci vitse-prezidenti V.Ələkbərovun həm Rusiyanın siyasi həyatında, həm də Azərbaycan diasporunun işində rolu qeyd olunmuşdur. Keçmiş bakılıların, Azərbaycan diasporunun fəal üzvləri İTAR-TASS-ın Baş direktorunun I müavini, ÜAK-ın vitse-prezidenti M.S.Qusmanın; Rusiya Vəkillər Gildiyasının prezidenti, ÜAK-ın vitse-prezidenti V.İ.İqoninin; kinorejissor Y.S. Qusmanın və b. fəaliyyəti də işıqlandırılmışdır.

Rusiyadakı azərbaycanlıların ümumi demoqrafik göstəricilərinin təhlili aşağıdakı nəticələrə gəlməyə əsas verir:

- azərbaycanlılar Rusiya cəmiyyətinin sosial, təsərrüfat, iqtisadi, demoqrafik strukturunda müəyyən yer tuturlar;

- Rusiyaya gedən azərbaycanlı iqtisadi miqrantların böyük əksəriyyəti orta və orta ixtisas təhsilli şəxslərdir;
- azərbaycanlı əhalinin sosial-iqtisadi göstəricilərinin təhlili sübut edir ki, onlar kifayət qədər dolanışıq vasitələrinə malikdirlər;
- Rusiya Federasiyasında yaşayan azərbaycanlılar rus dilinin daşıyıcısıdırlar;
- Rusiya Federasiyasında Azərbaycanla Rusiya arasında dövlətlərarası münasibətlərə, humanitar əlaqələrin və iki dövlət arasında etibarlı münasibətlərin inkişafına təsir göstərmək iqtidarında olan Azərbaycan elitası formalaşmışdır.

Rusiya dövlətinin ərazisində təşəkkül tapmış Azərbaycan diasporu ən gənc diaspordur. Son illərdə Rusiyanın bir çox regionlarında, ilk növbədə Moskvada və Sankt-Peterburqda diaspora təşkilatları yaranmağa başlamışdır. Onların kortəbii inkişafı dövrünü yeni özünütəşkil, müxtəlif ictimai, milli-mədəni birliklər, mərkəzlər, hərəkatlar şəklində həmyerli birliklərinin yaradılması dövrü əvəz etmişdir. Bu təşkilatlar diasporun çoxtəbəqəli olduğunu, onun qruplarının sosial-mədəni cəhətdən yek-cins olmadığını nümayiş etdirir.

Bununla belə bu qrupları birləşdirən obyektiv əsas vardır: ümumi qayğılar və məqsədlər, özlərinin milli-mədəni və dil ehtiyaclarının ödənilməsi, maraqlarının və hüquqlarının qorunması, milli köklərin və tarixi vətənləri – Azərbaycanla əlaqələrin qorunub saxlanması.

Sovet dövründə Azərbaycan hüdudlarından kənarda yaşayan azərbaycanlıları birləşdirən ilk təşkilat 3 oktyabr 1989-cu ildə qeydiyyatdan keçmiş Azərbaycan mədəniyyəti cəmiyyəti "Ocaq" olmuşdur. «Ocaq» cəmiyyətinin əsas məqsədləri və vəzifələri Azərbaycan xalqının milli irsinə yiyələnmək, Moskva azərbaycanlılarının mədəni həyatına kömək göstərmək, rusiyalıları Azərbaycan Respublikasının nailiyyətləri ilə tanış etmək və s. idi. Cəmiyyətə f.e.d., professor, ÜAK-nin vitse-prezidenti Tofiq Davud oğlu Məlikov rəhbərlik edir.

1992-ci ildə ictimai təşkilat olan "Beynəlxalq Azərbay-

can Vətəndaş assambleyası" yaranmışdır. Cəmiyyətin sədri t.e.d., professor Zahid Qocayevdir. 2000-ci ildə Z.Qocayev Rusiyanın 30-dan çox diaspor təşkilatının daxil olduğu Rusiya Milli Birliklər Konqresinin prezidenti seçilmişdir.

Qeyd edək ki, əgər sovet dövründə azərbaycanlılar kortəbii olaraq həmyerli təşkilatlarında birləşirdilərsə, müstəqil Rusiya dövlətinin hüquqi bazası sayəsində yeni təşkilati strukturda-diasporda birləşdilər.

Rusiya Federasiyasının Ədliyyə Nazirliyi iri Azərbaycan diaspor təşkilatlarını qeydə almışdır. Rusiya azərbaycanlıları federal səviyyədə Ümumrusiya Azərbaycan Konqresini (ÜAK), Rusiya Azərbaycanlılarının Federativ Milli-Mədəni Muxtariyyəti (RAFMMM), Rusiya Azərbaycanlılarının həmyerli təşkilatlarını təsis etmişlər. Bu təşkilatlardan hər birinin öz regional şöbələri var. Məsələn, ÜAK Rusiya Federasiyasının 68 regionunda təmsil olunur.

Diaspor təşkilatlarından hər birinin təsisçisi Rusiyanın tanınmış və nüfuzlu azərbaycanlılarıdır. Bunların sırasında Rusiyanın əməkdar inşaatçısı, "Тверьгражданстрой" tikinti şirkəti Səhmdar Cəmiyyətinin Baş direktoru, akademik S.S.Abuddayev; Sosialist Əməyi Qəhrəmanı, REA-nın müxbir üzvü, "İTERA" şirkətləri beynəlxaq qrupunun direktorlar şurasının baş müşaviri, ÜAK-ın vitse-prezidenti F.Q.Salmanov; ÜAK icra aparatının birinci direktoru Z.S.Nağdaliyev; "Министрой" səhmdar cəmiyyətinin direktorlar şurasının sədri, Ekologiya və təhlükəsiz həyat beynəlxalq Akademiyasının həqiqi üzvü, ÜAK MŞ-nın üzvü, AZERROS FMMM-in Sankt-Peterburq şöbəsinini sədri V.İ.Məmişov; dünya şöhrətli kinorejissor R.İbrahimbəyov; Rusiya Federasiyasının əməkdar həkimi, Sankt-Peterburq şəhəri Çoxprofilli terapiya və peşə xəstəlikləri klinikasının direktoru R.Y.Abbasov və b. göstərmək olar.

Azərbaycan diasporunun fəaliyyətinin əsas istiqaməti Rusiya Federasiyasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında iştirak etməkdir.

Rusiya Federasiyasının tam hüquqlu vətəndaşları olan

azərbaycanlılar ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirlər: Rusiya Federasiyası prezidentinin seçkiləri, Dövlət Dumasına və yerli idarə orqanlarına seçkilər. Bu, Azərbaycan diasporunun ictimai fəallığının heç də tam olmayan çərçivəsidir.

Ümumrusiya Azərbaycan Konqresi Rusiyanın iri ictimai təşkilatları ilə, həmçinin Rusiya Federasiyası Dövlət Dumasının Milli məsələlər komitəsi ilə əməkdaşlıq edir.

2004-cü ilin oktyabrında ÜAK-ın II qurultayında çıxış edən Rusiya Federasiyasının Prezidenti V.Putin qeyd edirdi ki, "… biz Rusiyadakı Azərbaycan icmasını dövlətlərimiz arasında münasibətlərin möhkəmləndirilməsinin mühüm amili hesab edirik. Onun təşəbbüsləri bizim siyasi və əməli əməkdaşlığımıza xeyir gətirir…." .

"Milli-mədəni muxtariyyətlər haqqında" Federal qanuna əsasən Rusiyadakı Azərbaycan diasporunun kütləvi informasiya vasitələri yaradılmışdır: Rusiya azərbaycanlılarının FMMM-nın mətbu orqanı olan "Rusiya azərbaycanlıları – AZERROS" qəzeti; ÜAK-ın orqanı – "Azərbaycan Konqresi"; "Azərbaycan XXI əsr", "Vətən", "İrs-Nasledie", "Bakı" kimi beynəlxalq jurnallar nəşr olunur. Rusiya Federasiyasının regionlarında da qəzetlər nəşr olunur.

Elə həmin Federal qanun və Azərbaycan respublikasının Prezidenti Heydər Əliyev və Moskva şəhərinin meri Y.Lujkov arasında imzalanmış müqavilə çərçivəsində 157 saylı Moskva məktəbinin bazasında Azərbaycan etno-mədəni kontingentli məktəb yaradılmışdır.

Moskva hökümətinin 2002-ci il 31 may 758 saylı sərəncamı ilə 75 saylı uşaq musiqi məktəbinə "Qara Qarayev adına uşaq musiqi məktəbi" fəxri adı verilmişdir.

Yaranmış diaspor təşkilatları gənc Azərbaycan diasporu üçün vahid Ümumrusiya etno-mədəni məkanın yaradılması missiyasını öz öhdəliklərinə götürürlər. Onların fəaliyyət istiqaməti azərbaycanlıların və Azərbaycandan çıxmış şəxslərin vətəndaşlıq hüquqlarının müdafiəsi və bu hüquqların həyata keçirilməsi, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluğun

və əməkdaşlığın möhkəmləndirilməsi, Dağlıq Qarabağ münaqişəsi haqqında tarixi həqiqətlərin yayılmasına yönəlmişdir.

Həyata keçirilmiş tədqiqat və təhlil aşağıdakı nəticələrə gəlməyə əsas verir:

- Rusiya azərbaycanlıları Rusiya gerçəkliyinin ayrılmaz və tərkib hissəsidir. Onlar ölkə qarşısında öz peşə və vətəndaşlıq borcunu yerinə etirən yaradıcı insanlardırlar. Azərbaycanlılar Rusiyanın ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatında fəal iştirak edirlər;
- azərbaycanlıların yeni Rusiya cəmiyyətinə layiqli inteqrasiyası onlara təşkil olunmaq, Rusiya azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti, Ümumrusiya Azərbaycan Konqresi, Moskva "Ocaq" cəmiyyəti, Rusiya azərbaycanlıların həmyerlilər birliyi və s. kimi xeyli sayda milli birliklər yaratmaq imkanı vermişdir;
- Azərbaycan diasporu mürəkkəb siyasi, iqtisadi, sosial, mədəni və psixoloji şəraitdə yaşamaq və öz gələcək taleyini müəyyənləşdirmək məcburiyyətindədir. Odur ki, ona həm yaşadığı ölkənin dövləti, həm də tarixi Vətəni tərəfindən yardım göstərilməsinə ehtiyac var;
- Rusiyanın Azərbaycan diasporu bütövlükdə və onun hər bir üzvü ayrı-ayrılıqda, milli mənsubiyyətindən asılı olmayaraq, diasporun işində fəal iştirak edir, dövlətlərarası münasibətlərə yardımçı olur, yaşadıqları ölkədə öz vətəndaşlıq və iqtisadi mövqelərini qüvvətləndirir, Azərbaycan-Rusiya münasibətlərinə siyasi və iqtisadi vasitəçi rolunu oynayırlar və i.a.;
- Rusiyanın Azərbaycan diasporunun potensialı Rusiyanın Azərbaycandakı və Azərbaycanın Rusiyadakı iqtisadi maraqlarının həyata keçirilməsinə dəstək olmaq iqtidarındadır;
- Azərbaycan diasporunun nümayəndələri Rusyia Federasiyasının oliqarxları sırasına daxildir və Rusiya-Azərbaycan münasibətlərində ölkənin siyasi strategiyasına təsir göstərə bilərlər.

Azərbaycançılıq ideologiyası, Dünya azərbaycanlılarının kompleks şəkildə öyrənilməsi, Azərbaycan diasporu və Azərbaycan lobbisi, lobbiçiliyin diasporun həyatında zəruriliyi,

azərbaycanlıların tarixi-demoqrafik problemləri, əhalinin miqrasiyası, bu və bunun kimi digər məsələlər fundamental araşdırmalar tələb edir.

Bilirik ki, «Dünya azərbaycanlıları» ideyası ictimai fikirdə vətəndaşlıq hüququ qazanmışdır. Dünya azərbaycanlılarının problemləri mahiyyət etibarı ilə ümumdünya tarixinin tərkib hissəsidir. Buna görə də diaspor problemlərini araşdıran tədqiqatçı ümumdünya reallıqlarını nəzərə almalı, həm də onun tərkibində öz varlığını sübut etməlidir. Diaspor formalaşdığı dövlətin və onun xalqının müəyyən keyfiyyətlərini özündə əks etdirdiyi kimi, nüfuzlu bir qüvvəyə çevrildikdə yaşadığı mühitdə də öz izini qoya bilər.

Azərbaycanlılar dünyanın çox yerində məskunlaşıb. Bir sıra ölkələrdə isə azərbaycanlılar say etibarı ilə, tutduqları vəzifəyə görə tutarlı söz deməyə qadirdilər. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ölkə miqyaslı qəbullarından tutmuş beynəlxalq miqyaslı görüşlərə, yüksək səviyyəli danışıqlaradək hər yerdə, hər an Azərbaycan həqiqətlərini dünyaya yaymaqla Azərbaycana qarşı yaradılmış informasiya blokadasını yarmışdır. Xarici ölkələrə hər səfərində həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşlər keçirmiş, onların vəziyyətləri, problemləri ilə maraqlanmış, diasporun mütəşəkkil fəaliyyəti üçün formalaşmasını və təşkilatlanmasını vəzifə kimi irəli sürmüşdür.

Araşdırmalar nəticəsində **MDB-yə daxil olan Ukrayna, Belorus, Pribaltika, Qazaxıstan** ölkələrində azərbaycanlıların məskunlaşması, say dinamikası və diaspor təşkilatlarının yaradılması və fəaliyyəti öyrənilmişdir. Bu ölkələr 1991-ci ildə müstəqillik əldə etdikdən sonra əhalinin sayını, məskunlaşmasını, etnik vəziyyətini öyrənmək üçün əhali siyahıyaalmaları keçirmişlər. Belə ki, 1999-cu ildə Belorusda keçirilən siyahıyaalmaya görə azərbaycanlıların sayı 6,3 min nəfər ya 0,006 % təşkil etmışdir.

**Cədvəl 1**

**Belorusda yaşayan azərbaycanlıların say dinamikası**

| Millətlər | Bütün əhali | | Beloruslar | | Azərbaycanlılar | |
|---|---|---|---|---|---|---|
| İllər üzrə | Min nəfərlə | Faizlə | Min nəfərlə | Faizlə | Min nəfərlə | Faizlə |
| **1959** | 8065,7 | 100 | 6532 | 80,98 | … | … |
| **1970** | 9002,3 | 100 | 7289,6 | 80,97 | 1,300 | 0,01 |
| **1979** | 9532,5 | 100 | 7568 | 79,39 | 2,700 | 0,03 |
| **1989** | 10152 | 100 | 7904,6 | 77,86 | 5,000 | 0,05 |
| **1999** | 10045 | 100 | 8158,9 | 81,22 | 6,300 | 0,06 |
| **1999% 1989** | 99 | | 103,2 | | 127 | |

2009-cu ildə Belorusda keçirilən əhalisiya almasına görə, ümumi əhalinin sayı 9.503.807 nəfər, azərbaycanlıların sayı isə 5.567 nəfər olmuşdur. Onlardan 68,4%-i və ya 3.807 nəfəri kişi, 31,6 %-i və ya 1.760 nəfəri qadınlardır. Azərbaycanlıların 79,5%-i (4.426 nəfər) şəhərdə, 20,5 % (1.141 nəfər) kənddə yaşayır.

Belorusda yaşayan azərbaycanlılar diaspora şəklində təşkilatlanıblar. Burada diaspor təşkilatlarının əsas vəzifələri Azərbaycan dilinin, adət-ənənələrimizin, qədim Azərbaycanın tarixi və zəngin mədəni irsimizin qoruyub saxlanılmasıdır.

**Cədvəl 2**

**Belorusdakı Azərbaycan diaspor təşkilatları**

| Təşkilatın adı | Təsis olduğu il | Təşkilatın rəhbəri |
|---|---|---|
| Azərbaycan-Belorus cəmiyyəti Konqresi (ABCK) | 23 noyabr 2002, Minsk ş. | Bağırov Natiq - konqresin sədri |
| “Qobustan” Mədəniyyət və Təhsil İctimai İttifaqı. ABCK-n regional cəmiyyət | sentyabr 1990, Minsk ş. | Bağırov Natiq - Sədr |
| “Xəzər” Azərbaycan İctimai İttifaqı | 2001, Mogilev ş. | Cəmiyyətin sədri - Abışov Tapdıq |
| Azərbaycan Mədəniyyət və Tarix Cəmiyyəti | 2001, Bobruysk ş. | Cəmiyyətin sədri - Həsənov Ədalət |
| Azərbaycanlıların “Dostluq İctimai İttifaqı” | 2001, Qrondo ş. | Cəmiyyətin sədri - Hüseynov Vahid |

Qazaxıstan SSR-də azərbaycanlıların ilk məskunlaşması 1937-ci il repressiya dövrünə düşür. Aşağıdakı cədvəldə biz azərbaycanlıların Qazaxıstan SSR-i üzrə say dinamikasını izləyə bilərik.

**Cədvəl 3**

**Qazaxıstan SSR-də yaşayan azərbaycanlıların say dinamikası**

| | 1939 | 1959 | 1970 | 1979 | 1989 |
|---|---|---|---|---|---|
| **Bütün əhali** | 6.151.102 | 9.309.847 | 12.848.573 | 14.684.283 | 16.464.464 |
| **Qazaxlar** | 2.327.625 | 2.794.966 | 4.161.164 | 5.289.349 | 6.534.616 |
| **Ruslar** | 2.458.687 | 3.974.229 | 5.499.826 | 5.991.205 | 6.227.549 |
| **Azərbaycanlılar** | 12.996 | 38.362 | 56.166 | 73.345 | 90.083 |

1999-cu ildə müstəqil Qazaxıstan Respublikasında siyahıyaalınma keçirilir. Materiallara əsasən azərbaycanlıların sayı 78.300 min nəfər təşkil edirdi. Qeyd edək ki, azərbaycanlıların sayı 1989-cu illə müqayisədə 11.783 nəfər azalıb.

Qazaxıstanın bütün vilayətlərində azərbaycanlılar öz təşkilatlarını yaradıblar. 1992-ci il 29 may tarixində Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən «Turan» Azərbaycan Mədəniyyət Mərkəzi qeydə alınmışdır. Mərkəz Qazaxıstanda yaşayan azərbaycanlıların ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak etməsinə xidmət edir. 1993-cü il martın 22-də Qazaxıstanın Pavlodar vilayətində 116 nəfər azərbaycanlının iştirakı ilə «Vətən» Azərbaycan Milli-mədəni mərkəzi təsis olunmuşdur. Mərkəzə Pavlodar şəhərinin Fəxri vətəndaşı Cəfər Mahmudov rəhbərlik edir. 2001-ci ildə mərkəzin Gənclər birliyi yaradılmışdır. Birliyə İsmail İbrahimov başçılıq edir. 1996-cı ildə Almatı şəhərində «Ozan» şəhər mədəniyyət mərkəzi yaradılmışdır. Mərkəzə İ.Quliyev rəhbərlik edir. Ölkənin paytaxtı Astana şəhərində 2000-ci ildə «Xəzər» Azərbaycan İctimai Birliyi yaradılmışdır. Birliyə Vidadi Adıyev rəhbərlik edir. Həmin il birliyin nəzdində Azərbaycan məktəbi açılıb. 2007-ci ildən məktəb dövlət büdcəsindən maliyyələşir. Mərkəzin

əsas vəzifələrindən biri Azərbaycan xalqının mədəni irsini qoruyub-saxlamaq, təbliğ etməkdir. Burada Azərbaycan xalq alətləri, milli qeyimlər və musiqi albomları toplanıb.

Qazaxıstan azərbaycanlıları Konqressinin prezidenti Əbülfəz Xamədovdur. 2007-ci il iyunun 16-da Almata şəhərində Azərbaycan diasporunun «Vətən» adlı qəzeti təsis olunmuşdur. İlk nömrə azərbaycanlıların Qazaxıstana sürgün olunmasının 70 illiyinə həsr edilmişdir

Əhali siyahıyaalmasının ilk kampaniyası müstəqil Ukrayna Respublikasında 2001-ci ildə keçirilib. Keçmiş Sovetlər İttifaqının bir çox respublikaları kimi Ukrayna da çoxmillətli ölkədir. Siyahıyaalma nəticələri göstərdi ki, burada 130-dan çox millətin nümayəndəsi yaşayır. Azərbaycanlıların sayı 2001-ci ildə 45,2 min nəfər olub.

**Cədvəl 4**

**Ukrayna Respublikasında yaşayan azərbaycanlıların say dinamikası**

| | **Sayı (min nəfər)%** | **Əhalinin faktiki sayı min nəfər %** | | **2001-ci il % 1989** |
|---|---|---|---|---|
| | | **2001** | **1989** | |
| **Krım Muxtar Respublikası** | 2024,0 | 100,0 | 100,0 | 99,4 |
| Rus | 1180,4 | 58,3 | 65,6 | 88,4 |
| Ukraynalı | 92,2 | 24,3 | 26,7 | 90,5 |
| Azərbaycanlı | 3,7 | 0,2 | 0,1 | 173,0 |
| **Dnepropetrovsk vilayəti** | 3561,2 | 100,0 | 100,0 | 92,0 |
| Ukraynalı | 2825,8 | 79,3 | 71,6 | 102,0 |
| Rus | 627,5 | 17,6 | 24,2 | 67,1 |
| Azərbaycanlı | 5,6 | 0,2 | 0,2 | 93,9 |
| **Donesk vilayəti** | 4825,6 | 100,0 | 100,0 | 90,8 |
| Ukraynalı | 2744,1 | 56,9 | 50,7 | 101,9 |
| Rus | 1844,4 | 38,2 | 43,6 | 79,6 |
| Azərbaycanlı | 8,0 | 0,2 | 0,1 | 187,1 |
| **Xarkov vilayəti** | 2895,8 | 100,0 | 100,0 | 91,2 |
| Ukraynalı | 2048,7 | 70,7 | 62,8 | 102,8 |
| Rus | 742,0 | 25,6 | 33,2 | 70,4 |
| Azərbaycanlı | 5,6 | 0,2 | 0,2 | 86,9 |
| **Sevastopol şəhəri** | 377,2 | 100,0 | 100,0 | 95,4 |
| Ukraynalı | 270,0 | 71,6 | 74,4 | 91,8 |
| Rus | 84,4 | 22,4 | 20,7 | 103,3 |
| Azərbaycanlı | 0,6 | 0,2 | 0,1 | 2,5 . |
| **Odessa vilayəti** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Ukraynalı | 1542,3 | 62,8 | 54,6 | 107,6 |
| Rus | 508,5 | 20,7 | 27,4 | 70,7 |
| Azərbaycanlı | 2,8 | 0,1 | 0,1 | 111,6 |
| **Kiyev şəhəri** | | | | |
| Ukraynalı | 2110,8 | 82,2 | 72,5 | 113,3 |
| Rus | 337,3 | 13,1 | 20,9 | 62,8 |
| Azərbaycanlı | 2,6 | 0,1 | 0,1 | 93,2 |

Cədvəldən göründüyü kimi, azərbaycanlıların əksəriyyəti Donesk, Xarkov, Dnepropetrovsk vilayətlərində məskunlaşıb. Bu, həmin ərazilərdə vilayətlərin iqtisadi inkişafı, eyni zamanda rus dilinin əsas ünsiyyət vasitəsi olması ilə bağlıdır.

Beləliklə, tədqiqata əsaslanaraq qeyd edə bilərik ki, XX əsrdə azərbaycanlıların başqa ölkələrə yayılma coğrafiyası genişlənib və azərbaycanlılar yaşadıqları ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatında özünə məxsus yer tuturlar.

## 3. Miqrasiyanın Azərbaycan əhalisinin formalaşmasına təsiri

Azərbaycan miqrasiya proseslərini tarixən yaşamış ölkələrdəndir. Tarixin müxtəlif dövrlərində bu daha çox əhalinin sayını artırmaq və ya bölgədə sosial dayaq yaratmaq məqsədilə aparılan köçürmələr, eyni zamanda hərbi əməliyyatlar meydanına çevrilmiş ərazini dinc əhalinin tərk etməsi şəklində təzahür etmişdir. Xüsusilə Səfəvi-Osmanlı, Rusiya-İran müharibələri, eyni zamanda zəlzələ kimi təbii fəlakətlər zamanı əhalinin yerdəyişməsi ilə bağlı faktlar daha çox diqqəti cəlb edir. Fikrimizi əsaslandırmaq üçün bəzi faktlara diqqət yetirək: 1. Quba xanlığının əhalisinin təsvirinə dair 1820-ci ilə aid sənədlər təsdiq edir ki, qonşu ərazilərdən köçürülmüş əhaliyə müəyyən güzəştlər edilirdi. Bu isə xanlığın əhalisini artırmaq məqsədilə məcburi köçürülmə ilə yanaşı, həm də firavan həyat axtarışı ilə könüllü olaraq xanlığın ərazisinə köçməyə imkan yaratmışdı. Rusiya-İran müharibələri nəticəsində Qarabağ xanlığından Şəkiyə köçmüş əhali müharibələrdən sonra geri qayıtmışdır. Naxçıvan xanlığında isə hakimiyyət uğrunda mübarizə, sosial şəraitdən narazılıq, vergilərin ağırlığı əhalinin qonşu xanlıqlara

(xüsusilə, Qarabağa) miqrasiyasına səbəb olmuşdur .

Azərbaycan ərazisində miqrasiyalara dair ən mühüm faktlardan biri XVII əsrin sonlarında Azərbaycanın şimal-qərbində qeydə alınmışdır. Belə ki, həmin ərazidə meydana gəlmiş **Car-Balakən camaatlığının** yaranması prosesinin özü miqrasiyalarla bağlı olmuşdur. XVI–XVII əsrlərdə camaatlığın yaranmasında həlledici rol oynayan avarlar Böyük Qafqaz dağlarının şimal ətəklərindən cənub ətəklərinə, yəni müasir Azərbaycan Respublikasının Zaqatala və Balakən rayonlarının ərazisinə köç edirlər. Əvvəllər bu miqrasiya müvəqqəti xarakter daşıyırdı. İş tapmaq, daha sonra isə qarət məqsədilə gələnlər bir müddət sonra öz yaşayış yerlərinə geri qayıdırdılar. Əhalinin çox az hissəsi buraya daimi yaşamaq üçün köç etmişdi. Gürcü müəllifi Vaxuştinin məlumatına əsasən, 1549-cu ildə Kaxet çarı Levan təxminən otuz leq ailəsini gürcü mənbələrində Pipineti* (Zaqatala rayonunun Tala kəndinin yuxarısında yer) adlandırılan yerə köçürmüşdü. Əvəzində leqlər yayda Qafqaz dağlarından çar Levanın sarayına buz gətirməli idilər. Lakin 1616-cı ildə Səfəvi hökmdarı I Şah Abbasın (1587-1629) Kaxetiyə yürüşündən sonra, buraya Dağıstandan müsəlman əhalinin köçü daha intensiv şəkil alır. Müddətinə görə daimi olan bu miqrasiya əslində vaxtilə Qafqaz Albaniyasının tayfalarından biri olan leqlərin† keçmiş Albaniyanın hüdudlarına daxil olan Böyük Qafqaz dağlarından şimaldakı sərt coğrafi şəraitli ərazilərdən cənuba (köç vaxtı Albaniyanın bu əraziləri Kaxet gürcü çarlığının tərkibində idi) köçü idi.

Qeyd etmək lazımdır ki, Böyük Qafqaz dağlarının şimal

---

* Pipan gürcü mənbələrində Pipineti kimi göstərilir. Əslində isə bu Biban deməkdir və «bab» ərəb sözündən götürülmüşdür (bab – qapı, an – çox güman ki, yerli dillərdə -lar[2] cəm şəkilçisi deməkdir).

† Qədim mənbələrdə adlandırıldığı kimi «leq» və ya «ləzgi» etnonimi Dağıstandilli xalqlar üçün ümumiləşdirilmiş addır. Gürcü mənbələrində və XIX əsr rus tarixşünaslığında digər Dağıstandilli xalqlar kimi avarlar da çox vaxt leq adlandırılır. Məsələn, XVIII əsrdə gürcü tarixşünaslığının əsasını qoyan Vaxuşti avarları leq adlandırırdı .

ətəklərində yaşayan etnoslar əlverişli olmayan təbii-coğrafi şəraitə və az torpaqlılığa görə həmişə cənuba can atmışlar. İşğal olunmuş alban torpaqlarını da əhatə edən Kaxet çarlığı bu prosesə uzun müddət mane olsa da, tamamilə qarşısını ala bilmir. Əlverişli şərait yaranan kimi cənuba miqrasiya edən leqlər (avarlar) əvvəlcə Qolodada məskunlaşırlar. Sonra isə Car, Tala kəndlərinin əsasını qoyaraq, burada yaşayan və Kaxet gürcü çarlarından asılı vəziyyətdə olan yerli əhalini öz himayələrinə alırlar. Lakin onların daxili işlərinə qarışmır, yəni ingiloy və türk kəndlərindəki daxili idarəetmə sistemini dəyişmirlər. Yerli əhali üzərinə keşkəl* vergisi qoymaqla kifayətlənirlər.

Car-Balakən camaatlığı formalaşdıqdan sonra da burada əhalinin miqrasiyaları davam edir. Lakin müvəqqəti xarakter daşıyan bu miqrasiyalar birinci növbədə Car-Balakən camaatlığının ərazisində həyata keçirilən hərbi əməliyyatlarla (1738-ci ildə Nadir şahın qardaşı İbrahim xanın komandanlıq etdiyi əfşar qoşunları ilə döyüşlər, 1803, 1804, 1806-cı illərdə rus hərbi dəstələrinin Car-Balakən camaatlığına yürüşləri və s.) bağlı idi.

Qeyd edək ki, hərbi əməliyyatlar zamanı car-balakənlilər geri çəkilmə, partizan mübarizəsi, müdafiə və əks-hücum kimi müxtəlif döyüş üsullarından istifadə edirdilər. Düşmənin hərbi qüvvələri yaxınlaşdıqca, onun yolunun üstündəki kəndlərin əhalisi meşələrə, dağlara doğru geri çəkilirdi. Boş qalan kəndləri heç bir müqavimətə rast gəlmədən asanlıqla tutan düşmən özünü qalib hiss edir və geri çəkilən əhaliyə zərbə endirmək üçün irəli getməyə həvəslənirdi. Dağlıq və sıx meşəlik ərazilərdə daha yaxşı döyüşmək qabiliyyətinə malik olan car-balakənlilər isə özləri üçün əlverişli olan döyüş mövqelərinə qədər düşmənin irəliləməsinə mane olmur və yalnız düşmən həmin mövqeyə çatanda qəfildən ona hücum edirdilər. Maraqlıdır ki, Car-Balakən camaatlığının ərazisinə hücumlar zamanı hər dəfə

---

*«Zakavkazya» qəzetinin 1908-ci il 10 iyun tarixli nömrəsində B.K.Şirvanski Zaqatala dairəsindəki torpaq münasibətlərinə həsr edilmiş məqaləsində «keşkəl» anlayışını köç-gəl (perekoçuy - prixodi) şəklində işlədir.

car-balakənlilər bu taktikanı tətbiq etmişlər. Nəticədə əhali öz yaşayış yerini dəfələrlə tərk etmək məcburiyyətində qalmışdır. Düşmənin yolunun üstündə olan bu kəndlər isə hər dəfə yandırılır, talan edilirdi. Deməli, hərbi əməliyyatlar başa çatdıqdan sonra, öz yurdlarına qayıdan əhali hər dəfə evini, təsərrüfatını yenidən qurmalı olurdu ki, bu da uzun vaxt tələb edirdi. Meyvə bağlarının, üzümlüklərin məhv edilməsi, kəndlərin talan edilməsi hərbi yürüşlərdən sonra, bölgədə aclığa səbəb olurdu ki, bu da əhalinin müvəqqəti miqrasiyası ilə nəticələnirdi. Car salnaməsində verilən məlumata görə, 1741-ci ildə sərdar Məhəmməd Əli xanın və Qəni xanın komandanlıq etdiyi əfşar qoşunlarının Car-Balakənə yürüşündən sonra, burada ərzağın qiyməti bahalaşır. Qavaz və Xizixdə buğdanın tağarı üç qızıla olduğu halda, Car-Balakəndə on iki qızıla satılırdı. Bu isə almaq imkanında olmayan əhali arasında aclığın başlamasına səbəb olur. 1742-ci ildə isə car-balakənliləri cəzalandırmaq üçün, bütün qonşu vilayətlərdən onlara ərzaq satışı qadağan olunur. Bu tədbirlərin nəticəsində aclıq çəkən əhali öz yaşayış yerini tərk edir.

Şimal-Qərbi Azərbaycanda əhalinin müvəqqəti daxili hərəkətinə təkan verən ikinci səbəb isə onun məşğuliyyəti idi. Əsas məşğuliyyəti maldarlıq olan əhali (avarlar və saxurlar) ildə iki dəfə (yazda yaylağa, qışda qışlağa) öz mal-qarası ilə köç edirdi. Car-balakənlilərin Böyük Qafqaz dağlarının şimal yamaclarında yaylaqları var idi. Qanıx çayının sağ və Qabırrı çayının sağ və sol sahilləri isə onların qışlaq əraziləri idi. 1830-cu il işğalınadək camaatlığın sərhədləri daxilində olan bu ərazilərdə camaata məxsus onlarla binələr var idi. 1905-ci ildə Kurakin tərəfindən tərtib olunmuş Dağıstan vilayətinin, Tiflis və Yelizavetpol quberniyalarının xəritəsində car-balakənlilərə məxsus binələrin çoxu qeyd olunub. 1830-cu ildə Car-Balakən camaatlığı işğal edildikdən sonra, bu ərazilər xəzinə torpaqları elan edilərək Siqnax (Sığnaq) qəzasına birləşdirilir. 1830-cu il üsyanından sonra isə car-balakənlilərə və İlisu sultanlığının dağ mahalının əhalisinə mal-qaranı otarmaq məqsədilə Qanığın sağ sahilinə keçmək qadağan edilir.

Qeyd edək ki, indi də Zaqatala, Balakən rayonlarının yaşlı və orta yaşlı sakinləri Qanığın sağ sahilində, müasir Gürcüstan Respublikasının ərazisində vaxtilə qışlaqları olduğunu xatırlayırlar.

Car-Balakən camaatlığında miqrasiyanın qeyri-mütəşəkkil forması da, çox az hallarda qeydə alınsa da mövcud olmuşdur. Məlumdur ki, burada kəndlilər hüquqi cəhətdən azad idilər. Buna görə də onların hərəkət azadlığı var idi. Zaqatala Silki-Torpaq komissiyasının (1869-1874) materiallarından göründüyü kimi, Car-Balakən camaatlığında kəndlilərin fərdi şəkildə kənddən-kəndə köçməsi halları baş vermişdir. Bu proses avar, saxur, ingiloy və türk kəndlərində demək olar ki, eyni şəkildə gedirdi. Avar, saxur kəndlərində kəndli istifadəsində olan icma torpağından məhrum edilirdi. Şəxsi mülkü olan evini satdıqdan sonra kəndi tərk edirdi. İngiloy və türk kəndlərində isə kəndli daxil olduğu icmanın ödədiyi keşkəl vergisinin ona aid olan hissəsini tamamilə ödəməli idi. Bundan sonra icma bu üzvünü ona çatan pay torpağından məhrum edirdi. Həmin pay torpağı icmanın sərəncamına keçir və bu pay torpağına görə ödənilən vergini də icma ödəyirdi. Kəndli isə özünün şəxsi mülkü olan evini həyətyanı sahəsi ilə birlikdə sataraq kəndi tərk edirdi.

Kəndlinin başqa bir kənddə yerləşməsi daha çətin bir proses idi. Onun məskunlaşmaq istədiyi kəndin icmasının razılığı olmadan bu proses baş tuta bilməzdi. İcma isə müəyyən şərtlərlə, o cümlədən şəxsi mülk almaq şərtilə, kəndlinin məskunlaşmasına razılıq verirdi. Zaqatala Silki-Torpaq komissiyasının məlumatlarına əsasən, Faldarlı kənd icması yalnız İslam dininin Sünnə məzhəbinə etiqad edən müsəlmanların kənddə məskunlaşmasına icazə verirdi. Şiə məzhəbindən olanları və xristianları öz icmalarına qəbul etmirdilər.

Burada qeyd edək ki, kəndlinin məskunlaşmaq istədiyi kənddə şəxsi mülk alması da çətin idi. Çünki kənddə şəxsi mülkün alqı-satqısı çox nadir hallarda baş verirdi. Həm də alqı-satqı həyata keçiriləndə də evini satan kəndli onu əvvəlcə öz icma üzvlərinə təklif edirdi. Onlar almasa, ev kənar şəxslərə satılırdı.

Kəndlinin məskunlaşmaq istədiyi kənddə ev alması onu hələ həmin icmanın bərabərhüquqlu üzvü etmirdi. Kəndli icmanın əkinəyararlı torpaqlarının bölünməsində iştirak etmirdi. O, yalnız icmanın razılığı ilə axu* aça bilərdi.

Qeyd edək ki, əhalinin miqrasiyası məhdud mənada «köçürülmə» kimi də başa düşülür. Bu mənada miqrasiya əhalinin digər yerlərə məqsədyönlü şəkildə köçürülməsi deməkdir.

Car-Balakən camaatlığından əhalinin məqsədyönlü şəkildə köçürülmə tarixi Rusiya imperiyasının burada apardığı işğalçılıq siyasəti ilə birbaşa bağlı olmuşdur. Belə ki, 1803-cü ildə general Qulyakovun komandanlıq etdiyi rus hərbi dəstələrinin Car-Balakən camaatlığına yürüşü zamanı çarizm, bölgənin yerli əhalisi ilə bağlı siyasətinin konturlarını müəyyənləşdirir. Rusiyanın bölgədə dayaqlarını möhkəmləndirmək üçün buradan türk-müsəlman əhalinin – muğal və avarların köçü planlaşdırılır. Gürcü keşiş və knyazlarının «müsəlman gürcülər» kimi təqdim etdikləri ingiloyları isə xristianlaşdıraraq, burada özlərinə sosial dayaq yaratmağa çalışırlar. Rusiya imperiyasının Car-Balakən camaatlığının ərazisində həyata keçirdiyi köçürmə siyasətinə ilk məruz qalan muğal adlandırılan türk əhali olur. Onların köçürülməsinə general Qulyakovun komandanlıq etdiyi rus qoşunları ilə birlikdə Car-Balakən camaatlığına gəlmiş kn.Çavçavadze nəzarət edirdi.

Köçürülən ilk kənd Muğanlı olur. 1803-cü il aprelin 3-də mayor Alekseyev kabardin polkundan dörd bölük kazakla kənd camaatını - 200-ə yaxın ailəni zorla Gürcüstana köçürür.

---

* XVIII əsrin sonları-XIX əsrin əvvəllərində Car-Balakən camaatlığında,o cümlədən İlisu sultanlığında kəndlilər icmanın ümumi mülkiyyətində olan meşələri təmizləyərək, əkin sahələrinə çevirirlər. Axu adlandırılan bu əkin sahələri onu təmizləyənin irsən keçən şəxsi mülkiyyəti idi. O, axunu icmanın razılığı olmadan istədiyi yerdə (kəndin yaxınlığında, və ya dağda və s.) aça bilərdi. Axu sahibi bu torpağa görə heç kimə vergi ödəmirdi və onu satmaq, kiməsə bağışlamaq və s. hüquqlara malik idi. Qeyd edək ki, həm avar,saxur, həm də türk, ingiloy icma üzvləri axular açırdılar. XIX əsrin əvvəllərində axuların açılması kütləvi şəkil almışdı.

Ümumilikdə isə 1.000 türk ailəsi (orta hesabla hər ailəni 5 nəfərdən götürsək, 5.000 nəfər) öz torpaqlarında yaşamaq hüququndan məhrum edilir. Köçürülən əhalinin geri qayıtmasının qarşısını almaq üçün onları bir müddət general Qulyakovun Urdo keçidindəki hərbi qərargahının yaxınlığında, güclü hərbi nəzarət altında saxlayırlar. Sonralar isə indiki Gürcüstan ərazisində məskunlaşdırırlar.

1806-cı ildə Rusiya hökuməti avarların Car-Balakən camaatlığının ərazisindən Rusiyanın içərilərinə köçürülməsini planlaşdırır. Hətta, Sisianov öldürüldükdən sonra yeni təyin olunmuş baş komandan qraf Qudoviç Sankt-Peterburqdan öz vəzifəsinin icrasına «Car ləzgilərinin köçürülməsindən başlamaq» barədə sərəncam alır. Göründüyü kimi, Qafqaz uğrunda Qacarlar İranı ilə müharibə (1804-1813) aparan Rusiya bölgənin hərbi strateji əhəmiyyətini nəzərə alaraq, təhlükəsiz zona yaratmaq planını tezliklə gerçəkləşdirmək niyyətində idi. Sankt-Peterburq avarların silah gücünə də olsa Rusiyanın içərilərinə köçürülməsini və onların torpaqlarında rusların məskunlaşdırılmasını daha etibarlı variant hesab edirdi.

Qeyd etmək lazımdır ki, köçürmə planı Rusiya üçün iki cəhətdən daha çox əhəmiyyətli idi:

1. Rusiya Car-Balakənə tam nəzarət edəcəkdi. Bu isə Qacarlar İranının Dağıstanla əlaqələrini çətinləşdirəcək və gələcəkdə Dağıstan itaətə gətirilərkən dağlıları öz arxalarından - sığınacaqlarından məhrum edəcəkdi.
2. Rusiya bazarı xammalla (ipək, yun, mal-qara dərisi, üzüm çaxırı, meyvə arağı, bal, dələ və başqa heyvan xəzləri və s.) təmin ediləcəkdi.

1806-cı ilin yayında Qacarlar İranı ilə hərbi əməliyyatların yenidən başlaması və Şimali Azərbaycanda ruslara qarşı müqavimət hərəkatının başlaması planın həyata keçməsinə mane oldu.

Tarixi Azərbaycan liman şəhərlərindən olan **Dərbənddə** də demoqrafik proseslərə miqrasiya ciddi təsir göstərmişdir.

1722-ci ildə I Pyotrun Azərbaycana (Xəzər sahili bölgə-

lərə) yürüşündən başlayaraq Dərbəndə xristian əhalinin məskunlaşdırılması prosesinə təkan verilmişdir.

Bunu xüsusi qeyd etmək istərdik ki, XVIII əsrə qədər Dərbənd şəhərində xristian mənşəli əhali (erməni, rus və s.) qeydə alınmamışdır. Dərbənddə xristian mənşəli əhalinin məskunlaşması I Pyotrun Xəzərsahili bölgələrə yürüşü dövrünə təsadüf edir. İşğal edilmiş bölgələrdə, o cümlədən Dərbənddə özünə sosial-etnik dayaq yaratmaq strategiyasında I Pyotr ermənilərə xüsusi önəm verirdi. I Pyotrun general Matyuşkinə ünvanladığı 4 oktyabr 1722-ci il tarixli təlimat və patriarx İsa, həmçinin bütün erməni xalqına göndərdiyi qramotada ermənilərin köçürüləcəyi Xəzərsahili vilayətlər arasında Dərbənd şəhərinin də adı çəkilirdi. Yaranmış tarixi şansı əldən buraxmayan ermənilər 1724-cü ilin noyabrında Dərbəndə köçmək üçün Rusiya xarici işlər kollegiyasına müraciət etdilər. Müraciətdə Şamaxı sakini Pop Anton özü ilə bərabər Dərbəndə 50 erməni ailəsinin yerləşdirilməsini xahiş edirdi. Bu müraciətlə əlaqədar olaraq 1724-ci il 10 noyabr tarixli fərmanla Dərbəndin komendantı Yunger və general Matyuşkinə həmin ermənilərin şəhərin baş evlərində və həmçinin rusların əleyhdarları hesab edilən, şübhəli adamların evlərində yerləşdirilməsinə göstəriş verilmişdi. Rus səyyahı Qerberin məlumatına əsasən, artıq I Pyotrun hakimiyyətinin sonuna yaxın ermənilər Dərbəndin bütöv bir küçəsini zəbt etmişdilər. Pyotrun ölümü ermənilərin Dərbəndə köçməsinə mane olur. 1727-ci ildə Polşada yaşayan ermənilər Dərbəndə köçmək üçün Rusiya hökumətinə müraciət etmiş və onlara müvafiq razılıq verilmişdi. 1723-cü ildə Osmanlı ordusu Gürcüstanı və Azərbaycanın qərbini (indiki Ermənistan ərazisini) ələ keçirən zaman yaşadıqları ərazini tərk edən 700 nəfər gürcü və erməni Gilana gəlmiş və 1730-cu ildə oradan Dərbəndə köçürülmüşdülər. Qraf Zubovun yürüşü zamanı xəyanət edərək ruslara satqınçılıq yolu ilə xidmət edən ermənilər Dərbəndin müsəlman əhalisinin qəzəbinə tuş gəlməkdən qorxaraq rus qoşunları Qafqazdan geri çağırıldıqdan sonra Dərbəndi tərk etmək qərarına gəlmişdilər. E.İ.Kosubskinin yazdığına görə,

Dərbənd şəhəri və onun ətrafındakı 9 kənddə yaşayan 4000 nəfərdən çox əhalini əhatə edən 500 erməni ailəsi rus qoşunlarının mühafizəsi altında Rusiya ərazisinə köçmək üçün rəsmi müraciət etmişdilər. E.İ.Kosubskinin Dərbənddə yaşayan erməni əhalisinin sayı haqqında yazdığı məlumat real gerçəkliyə uyğun gəlmir. Belə ki, XVIII əsrin sonunda Dərbənd xanlığının əhalisi şəhər və ətraf kəndlər də daxil olmaqla 9-10 minə qədər olmuşdur. Həmin dövrdə Dərbənddə cəmi 60-100 erməni ailəsinin olması faktını digər rus müəllifləri də təsdiq edirdilər .

Ermənilərin Dərbənddən köçmək haqqında müraciətlərinə cavab olaraq qraf Qudoviçə ünvanlanmış 1 may 1797-ci il tarixli fərmanda ermənilərin Həştərxan və Qızılyara köçürülməsi üçün lazımi tədbirlərin görülməsi tapşırılırdı. Çar hökumətinin 4 avqust 1798-ci il, 15 aprel və 28 oktyabr 1799-cu il tarixli fərmanları ilə Dərbəndi tərk edən ermənilər adambaşına 30 desyatin torpaqla təmin edilərək Qızılyar qəzasının iki, Mazdok və Georgiyevskin bir kəndində məskunlaşdırılır. Həmin fərmanlarda Dərbənd ermənilərinin bir hissəsinin Svyatoy Krest şəhərinə də köçürülməsi nəzərdə tutulsa da, həmin şəhərə Dərbənddən cəmi 5 erməni (3 kişi, 2 qadın) köçmüşdü. 1806-cı ildə Dərbənd Rusiya tərəfindən yenidən işğal edildikdən sonra Qızılyara köçürülmüş ermənilərin bir hissəsi yenidən Dərbəndə qayıtmağa başlamışdı. E.İ.Kosubskinin məlumatına əsasən, 1810-cu ildə Dərbənddə artıq 56 erməni var idi. Ermənilərin Dərbəndə köçürülməsi bütün XIX əsr boyu davam etdirilmişdi. 1871-ci ildə İrandan sənətkarlıqla məşğul olan 16 erməni Dərbəndə köçürülmüşdü. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində ermənilərin kütləvi şəkildə Dərbəndə köçürülməsi qeydə alınmasa da, müxtəlif illərdə ayrı-ayrı erməni ailələrinin Dərbənddə məskunlaşması danılmaz bir faktdır. Bunu 1896-cı ildən Dərbənd şəhər ictimai idarəsinə seçilən nümayəndələr haqqındakı arayışlar da təsdiq edir. Belə ki, birinci şəhər ictimai idarəsinin tərkibinə seçilmiş 6 erməni nümayəndəsinin 4-ü şəhərin yerli sakini kimi göstərildiyi halda, M.S.Saruxanovun 1865-ci, K.İ.Şahicanovun 1874-cü ildən Dərbənddə

yaşadığı qeyd olunmuşdu. 1900-cü ildə Dərbənd şəhəri ictimai idarəsinə seçilmiş erməni nümayəndələrindən R.Q.Mailovun və K.A.Orbelovun 1864-cü, A.İ.Simonyansın isə 1887-ci ildən Dərbənddə yaşadığı göstərilmişdir. 1904-cü il seçkilərində şəhər ictimai idarəsinin tərkibinə daxil olan Məlik Şahnəzərovun 1872-ci, M.Q.Poqasovun 1875-ci, A.İ.Simonyansın 1895-ci, M.İ.Astvaqaturovun 1902-ci, S.A.Ter-Qazaryansın 1901-ci ildən Dərbənddə yaşaması göstərilmişdir. Göründüyü kimi, XX əsrin əvvəllərində də ermənilərin Dərbəndə köçürülməsi prosesi davam edirdi. 1903-cü ildə Yelizavetpol quberniyasından 21 erməninin (13 kişi, 8 qadın) Dərbənd şəhərində yerləşməsi haqqında məlumatlar vardır .

Qədim dövrlərdən Dərbənd və ətraf ərazilərdə məskunlaşmış dağ yəhudilərinin bu və ya digər səbəblərlə bağlı yerdəyişməsi prosesi baş verirdi. Mənbələrin məlumatına görə, Qazıqumıq hakimi Surxay xan 1797-ci ildə öz düşməni Şeyxəli xanın mülklərinə hücum etmiş, Dərbənd şəhərini ələ keçirə bilməsə də şəhərdən 18 km. cənubda yerləşən dağ yəhudilərinin məskunlaşdığı Abasova kəndini dağıtmış, bəzi məlumata əsasən 157, digər məlumata görə isə 200-dən çox kənd sakinini qətlə yetirmişdi. Bundan sonra Şeyxəli xan sağ qalmış, 150-yə yaxın yəhudini Dərbəndə köçürmüşdü. Dərbəndə köçürülmüş yəhudilər şəhərin o zaman hələ məskunlaşdırılmamış Dubara hissəsində yerləşdirilmiş və sonralar həmin hissə Yəhudi məhəlləsi kimi tanınmışdı. E.İ.Kosubskinin məlumatına görə, dağ yəhudilərinin Dərbənddə əsasən məskunlaşması XIX əsrin sonuna - Dərbənddə balıqçılıq sənayesinin inkişafı dövrünə təsadüf edirdi. Yəhudilər ayrı-ayrı vilayət hakimlərinin təzyiq və sıxıntılarından xilas olmaq, sığınacaq əldə etmək məqsədilə də Dərbəndə gəlirdilər. Belə ki, 1857-ci ildə Qimeydi kəndinin hakimi tərəfindən sıxışdırılan Mədət Ananiya oğlu və İmanil Həlim oğlunun ailəsi Dərbəndə köçmüşdülər. Qazi Mollanın varisi Həmzət bəyin təzyiqindən xilas olmaq üçün 1834-cü il iyul ayının 24-də Aser Sadıxov və Əhməd İmanquliyevin başçılığı ilə 31 ailə Dərbəndə qayıtmışdı. Mənbələrin məlumatına əsasən, Aser Sadıxov 30 il, Əhməd İmanquliyev 15 il bundan əvvəl

Dərbənddən Tarku şamxallığına getmişdilər. Digər ərazilərdən əhalinin Dərbəndə köçməsi ilə yanaşı, Dərbənd şəhərindən də əhalinin miqrasiyası haqqında məlumatlar vardır. Belə ki, 1877-ci ildə Osmanlı-Rusiya müharibəsinin başlanması İçkeriya və Auxda əhalinin narazılığına səbəb olmuşdu. 1877-ci ilin avqustunda bu narazıçılıq ruslara qarşı üsyana çevrilmiş və üsyançılar sentyabrın 8-də rusların Kumıx istehkamlarını dağıtdıqdan sonra Mehdinin başçılığı altında Dərbəndə hücuma başlamışdılar. Yaranmış təhlükə ilə əlaqədar olaraq rus hərbçilərinin şəhəri tərk etməmək əmrinə rəğmən yüzlərlə ailə, xüsusilə də ermənilər və yəhudilər paroxodlarla Dərbəndi tərk etmişdilər. General Komarovun əmri ilə Bakıdan göndərilmiş xüsusi gəmi 26 hərbçi ailəsini də Dərbənddən Həştərxana aparmışdır.

Dərbənddə rus əhalisinin məskunlaşması tarixi XVIII əsrdən başlasa da onların burada əsaslı şəkildə yerləşməsi 1806-cı ildə Dərbəndin Rusiya tərəfindən qəti işğalından sonra başlanmışdır. İlk əvvəllər Dərbəndə ancaq rus hərbçi və məmur ailələri gəlsə də, sonralar dinc əhalinin miqrasiyası da başlanmış və bu proses XX əsrin əvvəllərinə qədər, hətta sovet hakimiyyəti dövründə də davam etmişdir. Dərbəndə köçürülmüş ruslar şəhərin rus məhəlləsində məskunlaşırdılar. Mənbələrdə ayrı-ayrı illərdə Dərbəndə nə qədər rus ailəsinin köçürülməsi haqqında dəqiq statistik məlumat əldə etmək mümkün deyildir.

Onu qeyd edək ki, Dərbəndə köçürülmüş müxtəlif etnosların nümayəndələrinin şəhər icmasına qəbul edilməsi prosesi uzun müddət çəkirdi. E.İ.Kosubskinin XIX əsrin sonu –XX əsrin əvvəllərində əhalinin Dərbənd şəhər icmasına qəbul edilməsi barədə məlumatı miqrasiya prosesi haqqında müəyyən təsəvvür yaradır. Müəllifin məlumatına görə, şəhər icmasına 1896-cı ildə 8 ailə başçısı qəbul edilmiş, 5-i çıxarılmış, 1897-ci ildə 7-si qəbul edilmiş, 18-i çıxarılmış, 1898-ci ildə 7-si qəbul edilmiş, 6-sı çıxarılmış, 1900-cu ildə 19-u qəbul edilmiş, 3-ü çıxarılmış, 1901-ci ildə 18-i qəbul edilmiş, 5-i çıxarılmış, 1902-ci ildə 17-si qəbul edilmiş, 6-sı çıxarılmışdı. 1903-cü ildə Dərbəndin şəhər əhalisi kateqoriyasına Dağıstan vilayətindən

26 yəhudi (14 kişi, 12 qadın) Yelizavetpol quberniyasından 21 erməni (13 kişi, 8 qadın), Kiyev quberniyasından 5 rus (3 kişi, 2 qadın), 1904-cü ildə Dağıstan vilayətindən 3 yəhudi (1 kişi, 2 qadın), Tersk vilayətindən 1 yəhudi kişi, Ryazan quberniyasından 5 rus (2 kişi, 3 qadın), Bakı quberniyasından 3 müsəlman kişi, 1905-ci ildə Voronej quberniyasından 5 rus (4 kişi, 1 qadın), Bakı quberniyasından 5 erməni (2 kişi, 3 qadın) qəbul edilmişdi. Dərbənd şəhər ictimai idarəsinin 1905-ci il 8 avqust tarixli iclasında artıq çoxdan Nitıq, Muqatır, Qmeydi, Marağa və Rukel kəndlərindən Dərbəndə köçmüş 126 dağ yəhudisinin yəhudi icmasına qəbul haqqında müraciətlərinə baxılması da Dərbəndə əhali axınının miqyası və etnik xarakteri haqqında təsəvvür yaradır. Dərbənd şəhəri əhalisinin say dinamikasında erməni, yəhudi və rus mənşəli əhalinin xüsusi çəkisini əks etdirən cədvəl 5 (cədvəl müvafiq illər üzrə siyahıyaalma materialları əsasında tərtib olunmuşdur) əhalinin miqrasiyası ilə bağlı müəyyən fikirlər söyləməyə imkan verir.

**Cədvəl 5**

**Dərbənd şəhər əhalisi içərisində qeyri müsəlmanların sayı**

| İllər | ermənilər | | yəhudilər | | Ruslar | |
|---|---|---|---|---|---|---|
| | Sayı | Əhalinin ümumi sayına nis. % | Sayı | Əhalinin ümumi sayına nis. % | Sayı | Əhalinin ümumi sayına nis. % |
| 1824 | 239 | 2,1 | 444 | 4 | - | - |
| 1873 | 284 | 2,5 | 871 | 7,7 | 546 | 4,8 |
| 1897 | 621 | 4,2 | 2181 | 14,9 | 1092 | 7,5 |
| 1926 | 812 | 3,5 | 6597 | 28,6 | 5499 | 23 |

Hesablamalar göstərir ki, Dərbənd şəhərinə erməni mənşəli əhalinin ən güclü miqrasiyası 1873-1897-ci illər arasında, yəhudi və rusların axınları isə 1897-1926-cı illər arasında baş vermişdi. Aydın məsələdir ki, 1897-1926-cı illər arasında Dərbənd şəhərində yəhudilərin təbii artım hesabına 3 dəfə, rusların isə 5 dəfə çoxalması qeyri-mümkündür. 1898-ci ildə Petrovsk-Dərbənd sərnişin qatarının işə düşməsi, 1900-cu ildə Dərbənd-Bakı dəmir yol xəttinin açılması və Petrovsk-Biləcəri dəmir yolunun birbaşa Rusiyanın bütün dəmir yolu xətlərinə qoşul-

ması Dərbəndin sosial-iqtisadi inkişafına güclü təkan verdi. Bunun nəticəsində Dərbənddə bağçılıq, şərabçılıq, tərəvəzçiliyin inkişafı üçün yeni perspektivlər açıldı, balıqçılıq sənayesi sürətli inkişaf yoluna qədəm qoydu. Sosial-iqtisadi inkişafın sürətlənməsi iş dalınca Dərbənd istiqamətində əhalinin miqrasiyasına böyük təsir göstərdi. Məhz bunun nəticəsidir ki, XX əsrin əvvəllərində Dərbənddə müvəqqəti yaşayan əhalinin sayı xeyli artmışdı.

1826–1828-ci illər Rusiya-İran və 1828–1829-cu illər Rusiya-Osmanlı müharibələri Rusiyanın qələbəsi ilə başa çatdıqdan sonra, regionda köçürmə və xristianlaşdırma işinə yenidən təkan verilir.

İ.F.Paskeviç-İrəvanski İranla sərhəddə köçürüləcək 80.000 nəfər malorus kazakının bir hissəsini Qanıx çayı ilə Qafqaz dağlarının cənub-şərq ətəkləri arasındakı ərazidə yerləşdirməyi təklif edir. 1830-cu il 22 may tarixli raportunda baş komandan bu haqda yazır: «Hazırda əlahəzrətin qoşunlarının Car vilayətini tutması ilə Qafqaz dağlarının cənub-şərq ətəkləri arasındakı torpaq zolağı açılmışdır. … Həmin yerdə yaradılmış hərbi məskən Gürcüstanın şərq qurtaracağında yerləşdiyindən bu ölkəni həm də hələlik bizə itaət etməyən dağlı xalqların hücumundan qoruyacaqdır. Hazırda bunun üçün ən azı 2 batalyondan istifadə edilir. Bundan başqa Kaxet, Car və itaət etməyən dağlıların arasında yerləşən bu məskənlər mənim fikrimcə rusların vilayətin yerli sakinləri ilə daha yaxşı və tez yaxınlaşmasına kömək edəcək. Yuxarıda göstərilən torpaq sahəsi 70.000 desyatindir və burada 7.000 nəfər yerləşdirilə bilər».

Lakin qraf Paskeviç tezliklə fikrini dəyişərək Osmanlı imperiyasından köçürülən ermənilərin bir qismini burada yerləşdirmək qərarına gəlir. O, 1830-cu ildə hərbi nazir qraf A.İ.Çernışevə ünvanlanmış məktubunda yazırdı: «Həmin köçkünlərin sayı o qədər çoxdur ki, mən malorus kazakları üçün nəzərdə tutulan torpaqlarda məhz onların (yəni ermənilərin – Red.) yerləşdirilməsini zəruri sayıram. Onların özləri də Gürcüstan və onunla sərhəd əyalətlərdə (yəni Azərbaycan

torpaqlarında – Red.) yerləşməyə daha çox üstünlük verirlər».

Qeyd edək ki, ermənilərin bir hissəsinin də Sarica ərazisində məskunlaşdırılması nəzərdə tutulur. Müsəlman əyalətlərinin rəisi erməni mənşəli knyaz Mədətovun Sarıca adlı ərazidə İrandan köçürülən erməniləri yerləşdirmək planlarını İlisu sultanı pozur. Həmin vaxt çar hökuməti ermənilərin bir hissəsini Şəki xanlığının ərazisində yerləşdirir ki, bu da yerli sakinlərlə köçürülənlər arasında tez-tez münaqişələrə gətirib çıxarırdı.

Paskeviçin köçürülənlərin məskunlaşdırılması üçün nəzərdə tutduğu ərazilər Azərbaycanın şimal-qərbindəki Qapa Tubal (Kartuban) çayla Mazım çay arasında yerləşən ərazilər idi. Həmin ərazilərdə qısa müddət ərzində ruslar məskunlaşdırılır, yeni qəsəbələr salınır. Zaqatala dairəsinin 1896-cı il xəritəsində həmin qəsəbələrin – Novo-Mixaylovka, Novo-Alekseyevka, Voroşovka, İllarionovka və s. adları qeyd olunub. Ərazi məskunlaşdırıldıqdan sonra Gürcüstanın tərkibinə daxil edilir.

Azərbaycanın şimal-qərbində miqrasiya prosesinin növbəti mərhələsi isə 1830-cu il Car-Balakən üsyanından sonra başlamışdır. İşğalçılara qarşı qalxan və altı ay (1830-cu il iyun-dekabr ayları) davam edən üsyan yatırıldıqdan sonra Rusiya hökuməti yerli əhaliyə qarşı sərt cəza tədbirləri gördü. Strateji əhəmiyyət daşıyan Car və Göyəm kəndləri yerlə-yeksan edildi, adlarını isə «unutmaq» əmri verildi. Kənd camaatının bir hissəsi düzən ərazidə yerləşən və əvvəllər binə olmuş Danaçıya köçürüldü, qalanları isə qonşu kəndlərdə yaşayan qohumlarının yanında sığınacaq tapdılar. Lakin onların bölgədə qalmaları Rusiyanın maraqları baxımından ciddi təhlükə hesab edildiyindən, çoxdan baş tutmayan köçürmə planını həyata keçirmək qərara alındı. Bu məsələ Xristianların Köçürülməsi Komitəsinə tapşırıldı. Qraf Paskeviçin əmrinə əsasən əhalinin hissə-hissə Gürcüstanın ayrı-ayrı kəndlərində yerləşdirilməsinin mümkünlüyünü öyrənmək üçün məlumat toplanıldı. Gürcüstanın Mülki İşlər Qubernatoru car-balakənlilərin Lori çölündə yerləşdirilməsini təklif edir. Lakin təklif olunan ərazinin iqlimi əkinçiliklə, bağçılıqla məşğul olmağa imkan vermədiyindən, hətta,

Osmanlı imperiyasından köçürülən ermənilər belə burada məskunlaşmağa razılıq verməmişdilər. Bu səbəbdən qraf Paskeviç car-balakənlilərin də Lori çölunə köçürülməsini imkansız hesab edir. Onun Gürcüstanın Mülki İşlər Qubernatoruna ünvanlanmış məktubundan göründüyü kimi, çarizm bölgənin təhlükəsizliyinin təminatı ilə yanaşı, gəlirləri barədə də düşünürdü. Car-balakənlilər Rusiya bazarını ipəklə təmin edirdi. Lori çölündə isə iqlim ipəkçiliklə məşğul olmağa imkan vermirdi. Digər tərəfdən silah gücünə köçürüləcək əhalinin əvvəlki məşğuliyyətlərindən də məhrum edilməsinə necə reaksiya verəcəyi bilinmirdi. Bütün bunları nəzərə alan baş komandan köçürüləcək əhalinin öz məşğuliyyətlərini davam etdirməsinə imkan verən ərazilərin axtarılması barədə sərəncam verir. Sərəncama əsasən Gürcüstanın Mülki İşlər Qubernatoru Qazax, Şəmşəddil, Borçalı distansiyalarının baş pristavlarından bu distansiyalarda car-balakənlilərin köçürülməsi üçün Paskeviçin şərtlərinə uyğun torpaq və iqlim şəraitinin olub-olmaması ilə bağlı hesabatlarını tələb edir. Hər üç distansiyanın baş pristavı onların nəzarəti altında olan ərazilərdə car-balakənlilərin məskunlaşması üçün əlverişli şərait olmadığını bildirirlər. Son nəticədə car-balakənlilərin Yelizavetpol dairəsinə köçürülməsi daha münasib hesab olunur. 1560 ailənin köçürülərək burada yerləşdirilməsi nəzərdə tutulur. Lakin 1832-ci ildə Car-Balakən camaatlığında işğalçılara qarşı yenidən üsyanın qalxması bu planın həyata keçirilməsinə mane olur. 1852-ci ildə Azərbaycanın şimal-qərbində köçürmə siyasəti davam etdirilir.Vaxtilə burada mövcud olmuş İlisu sultanlığının dağ kəndlərinin əhalisi aran ərazisinə köçürülür.

Beləliklə, araşdırmalar göstərir ki, Azərbaycanın şimal-qərbində miqrasiya prosesləri müxtəlif səviyyədə davam etmiş və camaatlığın siyasi, sosial-iqtisadi tarixinə öz təsirini göstərmişdir.

Azərbaycanda miqrasiya proseslərinə təsir göstərən ən mühüm hadisə isə Rusiya-İran müharibələri nəticəsində və Şimali Azərbaycan ərazilərinin Rusiya tərəfindən işğalını rəsmiləşdirən Türkmənçay müqaviləsi (1828) olmuşdur. Bu müqavi-

ləyə əsasən bölgəyə xristian erməni əhalisinin köçürülməsinə başlanılmış və onlar daimi məskunlaşdırılmışlar. Rusiya-İran (1804-1813, 1826-1828) və Rusiya-Osmanlı (1806-1812, 1828-1829) müharibələrindən sonra İrandan və Osmanlı İmperiyasından 10 minlərlə erməninin köçürülərək Azərbaycan xanlıqları olan İrəvan, Naxçıvan və Qarabağın ərazisində məskunlaşdırılması regionun tarixi inkişafını kökündən dəyişdirir.

XIX əsr tarixşünaslığımızda ermənilərin kütləvi şəkildə qədim Azərbaycan torpaqlarında yerləşdirilməsi və məskunlaşdırılması dövrü kimi daxil olmuşdur. XX əsr isə azərbaycanlıların öz dədə-baba torpaqlarından vəhşicəsinə qovulması, qaçqın düşməsi, soyqırımı, deportasiyası dövrüdür. Azərbaycan torpaqlarında möhkəmləndikdən sonra, daha geniş ərazilər ələ keçirmək və Ermənistan xülyasını gerçəkləşdirmək məqsədilə yerli müsəlman əhaliyə qarşı açıq qanlı aksiyalar məhz bu dövrdə gerçəkləşdirilmişdir.

XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər, artıq XX əsrin əvvəllərində yerli müsəlman-türk əhalini öz dədə-baba torpaqlarından sıxışdırıb çıxarmağa başlayırlar.

1828-ci il fevralın 10-da İranla Rusiya arasında yeni bir müqavilə, Türkmənçay müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən Gülüstan müqaviləsi ilə Rusiya imperiyasının tərkibinə daxil edilən şimali Azərbaycan xanlıqlarının sırasına daha ikisi - İrəvan və Naxçıvan xanlıqları da daxil edildi. Nəticədə Rusiya İmperiyasının hüdudları xeyli genişlənərək Cənubu Qafqazı da əhatə etdi. Rus hərbi inzibati ərazisi xeyli genişlənmiş oldu. Rusiya imperiyasının I Pyotrun vəsiyyətlərini həyata keçirməsi üçün münbit şərait yarandı. Belə ki, Türkmənçay müqaviləsindən az sonra, 21 mart 1828-ci ildə Ali Manifest dərc olundu. Həmin Ali Manifestdə tövsiyə olunurdu ki, Rusiya imperiyasına birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarının adları dəyişdirilsin və bu ərazilərin hüdudlarında "Erməni vilayəti" yaradılsın. Yeni yaradılan Erməni vilayəti İrəvan və Naxçıvan əyalətlərinə, Ordubad dairəsinə bölünür. İrəvan əyalətinə xanlı-

ğın 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal, Ordubad dairəsinə də 5 mahal daxil idi. Vilayətin idarə rəisi vəzifəsinə yerli qoşunların komandanı Aleksandr Çavçavadze təyin edilmişdi.

Rusiyanın Qafqazdakı ordularının baş komandanı qraf Paskeviçin tapşırığı ilə kollec assesoru İ.Şopen yeni yaradılan Erməni vilayətində kameral siyahıyaalma keçirir. 20 cilddən ibarət olan siyahıyaalmanın nəticələri müəllifin 1852-ci ildə nəşr edilən "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" kitabında verilmişdir.

Həmin siyahıyaalmaya görə Erməni vilayətində 752 kənd olmuşdur. Onlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində idi. İşğaldan sonra Erməni vilayəti ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, yerli əhali didərgin düşmüşdür. İ.Şopenə görə İrəvan və Naxçıvan xanlıqlarının işğalına qədər bu ərazilərdə təxminən 23.730 ailə: "İrəvan əyalətində 17.000 ailə, Naxçıvan əyalətində 4.600 ailə, Ordubad dairəsində 2.130 ailə" yaşamışdır. Hər ailə tərkibini 5 nəfərdən götürsək,demək, sakinlərin ümumi sayı təxminən 118.650 nəfər olmuşdu.

Erməni vilayəti 1840-cı ildə ləğv edilərək əvəzində İrəvan qəzası yaradılır. İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad, Yeni-Bəyazid qəzalarından təşkil olunan İrəvan quberniyası 1917-ci ilə qədər dəyişməz qalır.

Erməni vilayətinin yaradılmasının əsas səbəbi Rusiya Cənubi Qafqazda özünə dayaq nöqtəsi yaratmaq və öz imperiya ambisiyalarını reallaşdırmaq idi. Erməni vilayətinin yaradılması üçün təcili İrəvan və Naxçıvan xanlıqları ərazisində yaşayan azərbaycanlıları öz ata yurdlarından sürgün etməli və onların yerinə rus hərbiçilərinin himayəsi və müdafiəsi altında İrandan daha sonra isə Osmanlı ərazilərindən ermənilərin kütləvi köçürülməsini təmin etməli idilər. Belə də oldu. Köçürülmə prosesi qısa zaman kəsiyində irimiqyaslı kampaniyaya çevrildi. Təbii ki, köçürülmə kompaniyasına milliyətcə erməni olan hərbçi rəhbərlik etməli idi. Türk-müsəlman əhaliyə qarşı

düşmənçilik münasibəti ilə ad qazanmış millətçi, rus ordusunun polkovniki L.Y.Lazarev (Lazaryan) və onun məsləkdaşı pod-polkovnik knyaz M.Z.Arqutinski – Dolqorukov bu işə başçılıq edirdilər. Onların köçürülmə əməliyyatı nəticəsində çox qısa bir müddətdə İmperiyanın yeni işğal olunmuş ərazilərinə 8 mindən çox erməni ailəsi köçürüldü. Onu da qeyd edək ki, işğal olunmuş Azərbaycan ərazilərinə köçürülən erməni ailələrindən daha artıq azərbaycanlı ailələri İrana və Osmanlıya köçüb getmişdir. Yeni yaradılan Erməni vilayətinə köçürülən erməni ailələrinin yerləşdirilməsi zamanı yerli əhaliyə qarşı çox böyük haqsızlıqlar edilirdi. Bunu görən A.S.Qriboyedov qraf İ.F.Paskeviç-Erəvanskiyə məktub yazaraq yerli əhaliyə qarşı haqsızlığın artmasına və bəylərin torpaqlarının "müvəqqəti" zəbt edilməsindən doğan narazılıqlara xüsusi diqqət yetirməsini təkidlə tələb edirdi.

Bu dövrdə Zaqafqaziyada etno-demoqrafik vəziyyətin dəyişdirilməsi mexanizmini əks etdirən kitablar nəşr edildi. Bunlardan, S.Qlinki «Описание переселение армян аддербиджанских в пределы России», V.A.Potto «Переселение христиан из Турции» и «Возрождение Армении», Q.A.Ezov «Сношения Петра Великого с армянским народом. Документы» və digərləri.

Q.A.Ezov öz əsərində Qafqazdan türk-müsəlman əhalinin köçürülməsini siyasi cəhətdən əsaslandırmağa çalışaraq yazırdı: "Müsəlmanlar öz dünya baxışlarına görə xristian hakimiyyətinə qarşı düşməndirlər". Ona görə də müsəlmanları xristian Rusiyasının ərazisindən qovub onların yerinə təbii ki, erməniləri yerləşdirmək lazımdır.

XIX əsrin əvvəllərində Rusiya imperiyası əsirlikdə olan almanları və polyakların bir hissəsini də Azərbaycan ərazisində yerləşdirir. Bu miqrantlar Azərbaycanın müxtəlif bölgələrində daimi məskunlaşdırılırdı. Rusiya imperiyası Qafqazı xristianlaşdırma məqsədilə buraya ermənilərdən başqa XIX əsrin ikinci yarısında isə ruslar, malakanlar və kazaklar (xüsusilə, Muğana, Qazaxa, Gədəbəyə, Şirvana və Abşerona da) köçürmüşlər.

XIX əsrin ortalarından başlayaraq kapitalist münasibətlərinin inkişafı nəticəsində Bakı, Gəncə, Quba, Şamaxı, Şuşa, Nuxa, Lənkəran kimi şəhərlərdə əhalinin miqrasiyası gəlmələrin (immiqrantların) hesabına artır. Gələnlərin əsas hissəsini Cənubi Qafqaz, Dağıstan və Rusiyanın bir sıra quberniyalarından, həmçinin Cənubi Azərbaycandan gələn əhali təşkil edirdi. Bu miqrantlar sonralar Şimalı Azərbaycanın şəhərlərində daimi məskunlaşmışdılar.

XIX əsrin ortaları və XX əsrin əvvəllərində iqtisadiyyatın inkişafı ilə əlaqədar Azərbaycan şəhərlərinə Rusiya, Qacarlar İranı, və Avropa dövlətlərindən işləməyə gələn xaricilərin sayı artır. Bu əsasən, XIX əsrin ortalarından başlayaraq neft sənayesinin inkişafı ilə bağlı olmuşdur. Sahibkarlıq fəaliyyəti (məsələn, Nobel və Rotşild kimi şirkətlər və onların mühəndisləri, v.s.) ilə yanaşı, adi fəhlə qismində işləmək üçün gələnlər (məsələn, iranlılar) də vardı. Həmin dövrdə Bakıya həm xaricdən, həm də daxildən əhali axını olmuşdur. XIX əsrin 50-60-cı illəri ilə əsrin sonunu müqayisə etdikdə, şəhər əhalisinin immiqrantların hesabına artaraq bütün əhalinin 12,4%-dən 16%-ə çatdığı məlum olur. Bakı və Yelizavetpol quberniyalarında iqtisadi və mədəni mərkəzlərin inkişafı ilə əlaqədar əhalinin əsasən bu şəhərlərə axını baş vermişdir.

XIX əsrin 30-cu illərindən başlamış köçmə kompaniyası tədricən ardıcıl xarakter almış, məqsədyönlü siyasətə çevrilmişdi. Əsrin axırlarında isə çar hökuməti köçürmə üzrə qanunvericilik aktlarının hazırlanmasına başlamışdı. 1899-cu il aprelin 15-də Rusiya çarı tərəfindən "Zaqafqaziyada köçürməyə icazə haqqında qanun" verilmişdi.

1900-cu il dekabrın 22-də elan olunmuş yeni qanunda isə Qafqazda mülki işlər üzrə baş rəisə icazə verilmişdi ki, "rus mənşəli və provaslav dininə mənsub kəndlilərin" vəsaitlərini yalnız ilkin qaydada müzakirə etməklə onları xəzinə torpaqlarında yerləşdirsin. Yerli hakimiyyət orqanları çar hökumətinin bu sərəncamını həyata keçirərək artıq 1901-ci ilin martında köçürmə sahələrini müəyyənləşdirməyə başlamışdılar.

1904-cü ilin iyulunda "Sakınlərin və əkinçi meşşanların könüllü surətdə köçürülməsi haqqında müvəqqəti qaydalar" barədə yeni bir qanun verildi. Bu qanuna görə yalnız rus mənşəli, provaslav dininə mənsub yerli adamların və ya üç idarənin-Daxili İşlər Nazirliyinin, Hərbi idarənin Qafqazda Mülki işlər üzrə baş rəisin mülahizəsi ilə raskolçuluq sektalarına mənsub şəxslərin imperiyanın müsəlman ucqarlarına, o cümlədən də Qafqaz diyarına köçürülməsinə icazə verilmişdi. 1903-cü ilin iyununda təsis edilmiş köçürmə işi üzrə xüsusi müşavirə yuxarıda adı çəkilmiş layihəyə əlavə edilmiş və Dövlət Şurasına təqdim olunmuş izahatnamədə göstərmişdi ki, "köçürmə aqrar məsələnin həlli ilə bağlı deyil, həm də rus əhalisinin faizinin az olduğu ucqarlarda məskunlaşdırılması siyasətini yerinə yetirməkdən ibarət idi".

Bir qayda olaraq köçürmə üçün münbit torpaqlar seçilirdi. Azərbaycanda belə ərazi **Mil və Muğan** düzləri idi. Bu torpaqlarda çar hökuməti yalnız rus köçkünləri üçün suvarma sisteminin qurulmasına dair bütöv bir proqram həyata keçirmişdi. Əvvəlcədən adamların xəzinə torpaqlarına köçürüləcəyini elan edən hökumət tədricən bu məqsədlə müxtəlif bəhanələr ilə yerli əhalinin torpaqlarını əllərindən alırdı. Bu məsələdə məhkəmə, yerli və ali hakimiyyət instansiyaları yekdildilər, buna görə də azərbaycanlı əhalinin şikayət etməyə yeri qalmamışdı. Düzdür, çoxsaylı şikayətlərin izi ilə göndərilən xüsusi məmurlar yerli əhalinin mənafelərinin sıxışdırılması faktlarını etiraf edir və ərznamələr tərtib edərək onları ali dövlət idarələrinə təqdim edirdilər. Lakin bunların heç birinin nəticəsi olmurdu.

Alar kənd camaatının büsbütün Lənkəran qəzasından Cavad qəzasına köçürülməsi və bu torpaqların Pokrovka rus kəndindən olan köçkünlərə verilməsi barədə çar hakimiyyət orqanlarının sərəncamı yerli əhalinin torpaq ilə təmin edilmədən dədə-baba yurdlarından məcburi surətdə köçürülməsinə və boşaldılan torpaqlara gəlmə ünsürlərin yerləşdirilməsinə dair dəhşətli faktlardan biridir. 1905-ci ildə "Bakı şəhərini və Bakı quberniyasını təftiş etməyə" gəlmiş senator A.M.Kuzminski bu faktı qeyd etmişdi.

Bu məsələyə narazılığını bildirən Əlimərdan bəy Topçubaşov "Kaspi" qəzetində dərc etdirdiyi məqalədə sərəncamın verilməsində "köçkünlərin işi ilə məşğul olan bürokratların əli olduğunu" göstərərək yazırdı ki, "özlərinə hər hansı bir məşğuliyyət axtaran bu bürokratlar Qafqazda köçürmə məntəqələrinin yerləşdirilməsi üçün yararlı olan gen-bol münbit torpaqlar olduğunu təsvir edən Peterburqdakı rəisləri şirnikləndirirlər". Əlbəttə, məsələ təkcə hakimiyyət orqanlarının bürokratlığında deyildi. Lakin hər şeydən əvvəl məhz bu cəhət Azərbaycanda qurulmuş rejimin müstəmləkə xarakterini çar hakimiyyət orqanları nümayəndələrinin kəndlilərə qarşı qərəzli münasibətinə diqqəti cəlb edərək göstərirdi ki, onların torpaqları əllərindən alınıb köçkünlərə verilir.

O, 1905-ci ilin iyulunda "Ədalətli tədbir" məqaləsində çarizmin köçürmə siyasətini tənqid atəşinə tutaraq qeyd edirdi ki, bu siyasət azərbaycanlı əhalinin mənafelərinin tapdalanması hesabına həyata keçirilmişdir.

Ə.M.Topçubaşov aqrar məsələlərdə qəsdən qeyri-müəyyənlik və qarışılıq yaradıldığı, torpaq sahələri arasında sərhəd qoyulmadığı, kəndlilərin torpaq paylarının satın alınmadığı barədə yazırdı. Buna görə də Ə.M.Topçubaşov 1899-cu ildə Qazax qəzasının kəndlilərindən alınmış 3.3 min desyatin torpağın onlara qaytarılması barədə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun göstərişini ədalətli tədbir kimi qiymətləndirmişdi. O, bu addıma "yerli əhalinin istəyinin nəzərə alınmasına doğru qəti dönüş" kimi baxırdı. Əslində isə çar idarəsinin bu göstərişi Azərbaycan kəndlilərini bir qədər sakitləşdirmək, onları öz hüquqları uğrunda mübarizədən yayındırmaq istəyindən irəli gəlirdi.

Qeyd etmək lazımdır ki, hakimiyyət orqanları tərəfindən öz doğma torpaqlarını tərk etməyə məcbur edilənlər əksər hallarda yaşamaq üçün yararlı olmayan iqlim şəraitinə düşürdü. Bu isə çox vaxt insanların xəstələnməsinə səbəb olurdu. Diyarın kənd əhalisi arasındakı narazılıq və iğtişaşlar Qafqazda köçürmə işinin müdirini məcbur etmişdi ki, 1905-ci ilin aprelində köçkünlərin işlərinə baxan məmur aparatına köçkün-

lərin hərəkətini müvəqqəti olaraq dayandırmaq barədə müraciət etsin. Lakin o, eyni zamanda belə bir cəhəti də göstərirdi ki, bu sərəncam əvvəlki yaşayış yerindən birdəfəlik üzülüşmüş və köçürmə yerlərinə doğru hərəkətdə olan adamlara aid deyildir. Bu bir daha sübut edirdi ki, köçürmə planauyğun və ardıcıl surətdə həyata keçirilirdi, belə sərəncamlar isə yalnız yerli kəndlilərin avamlığı və sadəlövhlüyü üçün nəzərdə tutulmuşdu.

Çarizm özünün köçürmə siyasətindən heç vaxt dönməmişdi. Əksinə, artıq XX əsrin əvvəllərindən başlayaraq, xüsusən isə 1905-1914-cü illər ərzində çarizmin Qafqazdakı köçürmə siyasətində belə bir meyl aşkar nəzərə çarpırdı ki, köçürmə problemi ilə yanaşı böyük iqtisadi əhəmiyyəti olan ərazilərdə təsərrüfat quruculuğu vəzifəsi həyata keçirilir. Bununla əlaqədar diyarın rus kəndlilərinin yerləşdirilməsi üçün sahə dəqiq müəyyən edilmiş və demək olar ki, ərazi cəhətdən məhdudlaşdırılmışdı. Bundan sonra rus kəndliləri Qafqazda başlıca olaraq Şərqi Zaqafqaziyanın düzən rayonlarında və Qara dəniz quberniyasının torpaqlarında yerləşdirilirdi.

Stolıpinin aqrar islahatları 1906-cı il 9 noyabr və 1910-cu il 14 iyun tarixli qanunlarla həyata keçirilməyə başlamış və bunlar imperiyanın ucqarlarına köçürmə əməliyyatında mühüm mərhələ olmuşdu.

Qafqaza köçürmə siyasəti ilə bağlı hökumət partiyalarının qarşısına qoyulmuş vəzifələr xarici siyasət məsələlrində heç vaxt unudulmurdu. Çarizm Muğanın strateji mövqeyini yaxşı başa düşürdü.

Muğan çölündə köçkün sahələrinin hazırlanması üçün köçürmə idarəsi tərəfindən bu məqsədlə 1910-cu ildə 79.670 rubl vəsait ayrılmışdı. Bakı quberniyasının Cavad qəzasında Yeni Araz çayının üzərində şlüz açılmışdı. Onun vasitəsilə Muğan çölünün mərkəzi hissəsində 50.000 desyatindən çox sahənin becərilməsi nəzərdə tutulmuşdu.Yaxın 3 il ərzində isə mərkəzi quberniyalardan olan 500.000-dək köçkünün Zaqafqaziyada yerləşdirilməsi nəzərdə tutulmuşdu.

Canişin hesablamalarına görə, diyarda 3,5 milyon desya-

tinə yaxın köçürməyə yararlı, boş qalmış xəzinə torpaqları vardı ki, bunlar da şoranlaşma zamanı meliorasiya işlərinin görülməsini tələb edirdi.

Qeyd edək ki, Duma Muğan çölünün becərilməsi, suvarılması layihəsini bəyənmiş, bu iş üçün 5 il müddətinə 4 milyon rubl vəsait ayırmışdı. Bu suvarılma layihəsi 1915-ci ildə yerinə yetirilməli idi.

Torpaq təminatı və əkinçilik üzrə Baş idarə 1908-ci il oktyabrın 25-də Muğan çölünün becərilməsinə vəsaitin buraxılması zəruriliyinin əsaslandıraraq Dövlət Dumasına müraciət edir. Mərkəz üçün Araz və Kür çayları boyunca Bakı quberniyasının cənubi-şərq hissəsindəki çöl sahələri, hansı ki, Bolqar çayı ilə iki hissəyə ayrılırdı (cənub, yəni Lənkəran qəzasının tərkibinə daxil olan hissə şimal, yəni Cavad qəzasının tərkibinə daxil olan hissə) müstəmləkələşmə üçün olduqca böyük əhəmiyyət daşıyırdı. Xüsusilə qeyd olunmalıdır ki, Muğan torpaqları təkcə taxılçılıq və şəkər qamışı, çuğundur üçün deyil, həm də qiymətli sənaye bitkiləri-pambıq və üzüm üçün əlverişlidir.

Rus müstəmləkəçiliyi üçün əlverişli sahələr hələ 1908-ci ildə aparılmış qeydlərdə bölgələr üzrə desyatinlə belə ifadə olunmuşdur: Muğan düzündə - 324,303 desyatin; Mil düzündə-318,869 desyatin; Salyan düzündə - 85, 233 desyatin və s.

Krevoşein “Muğan suvarılmasının diyarda rus suvarma işinin ilk uğuru olduğunu” qeyd etməyi zəruri saymışdı. Lakin, bununla belə o, belə bir fikir irəli sürmüşdür ki, boş torpaqlarda yeni sahələrin suvarılması (xüsusi iri kapitalın iştirakı ilə) da həmçinin arzuolunandır. Ancaq iki şərt daxilində: 1) suvarılmanın texniki layihələri Kür və Araz çaylarının sularından ümumi istifadə planı ilə razılaşdırılması üçün hökumət tərəfindən onların təsdiq edilməsi; 2) suvarılan torpaqların yalnız ruslarla məskunlaşdırılması üçün verilməsi.

Qeyd etmək lazımdır ki, hələ 1902-ci il noyabrın 26-da “Novoye vremya”qəzetində “Qafqazın müstəmləkələşdirilməsi tarixindən”adlı məqalə çap edilmişdi. Orada məlumat verilirdi ki,Yelizavetpol quberniyasının Gədəbəy mis əritmə zavodunun

yaxınlığındakı Düz-yurd sahəsinə köçürülmüş köçkünlər qrupu polis mühafizəçiləri ilə quldurlar arasında qanlı silahlı qarşıdurmanın şahidi olmuşdu. Nəticədə iki polis və dörd quldur öldürülmüşdü. Bu qanlı hadisədən sarsılmış bütün köçkünlər bir nəfər kimi düşdükləri yerdən yığışıb geriyə – Kubana dönmüşdülər.

1908-1911-ci illər ərzində "Moskovskie vedomosti" öz səhifələrini mərkəzi hakimiyyət tərəfindən Zaqafqaziyada yeridilən köçürmə siyasəti ilə əlaqədar olaraq mükalimə mübahisələri üçün ayırmışdı.

1908-ci ildə qəzet müxbirləri Qafqazın ruslar tərəfindən məskunlaşdırılması üçün bir sıra tədbirlər təklif edirdilər:
- Qafqazın qapılarının köçkünlərin üzünə açılması;
- yerli əhalinin icarəsində olan dövlət torpaqlarının satın alınması yolu ilə mülkiyyətə götürülməsinin dayandırılması;
- yerli əhaliyə xəzinə torpaqlarının paylanmasının dayandırılması;
- köçürmə idarəsinin tərkibinin gücləndirilməsi;
- kəndli bankının fəaliyyətinin gücləndirilməsi;
- Şərqi Zaqafqaziyada irriqasiya şəbəkəsinin həyata keçirilməsi;
- Şərqi Zaqafqaziyada, məskunlaşma rayonlarında araba yolları şəbəkəsinin inşa edilməsi;
- köçkünlərin təcrübəli təlimatçılar ştatı ilə təmin edilməsi;
- Şərqi Zaqafqaziyanın nəhəng bataqlıq sahələrinin qurudulması və suların düzgün axıdılmasının təşkili;

Bununla belə, ən başlıcası, bütün tədbirlərin əsası - bu qanunvericilik qaydasında Qafqaz diyarının ruslarla geniş və planlı surətdə məskunlaşdırılması haqqında məsələnin həlli idi.

Qafqazın ruslar tərəfindən müstəmləkələşdirilməsi məsələsi həm hakimiyyət dairələrində, həm də rus cəmiyyətində olduqca müxtəlif rəylər doğurdu. Qafqaz canişininin beşillik fəaliyyəti haqqında (1905-1911) hesabatı onun idarəçiliyinə qarşı növbəti tənqid aktına səbəb oldu. "Moskovskie vedomosti" qəzetinin müxbiri Muğandakı rus köçkünlərinin ağır sınaqları haqqında yazırdı ki, təcrübəsiz və qabiliyyətsiz, bacarıqsız "mujik" ilk vaxtlar bir çox məhrumiyyətlərə dözməli olmuşdu. Malyariya bir çox qurbanlar aparmışdır... Rusların tatarlara və ermənilərə alçaldıcı

tabeçiliyinə qarşı ən ciddi qəti tədbirlər görülməlidir. Bu tabeçilik onların məhvinə, sonra isə ümumiyyətlə, diyarın Rusiyadan ayrılmasına aparıb çıxardacaqdır.

"Hökumət xəbərləri" qəzeti hesab edirdi ki, rus kəndlilərinin Muğana yerləşdirilməsi təcrübəsi əla nəticələr verir. Qəzetlərin bəzilərinin hesablamaları Muğanın gələcəyinin optimist mənzərəsini yaradır. Belə ki, xəzinədən ayrılmış bütün xərcləri 5 il ərzində ödəmək mümkün olacaqdı. Muğandan ildə 30 milyon rubl məbləğində gəlir götürürdülər. Buraya köçürülmüş əhali isə əldə etdiyi gəlirin ildə 5 faizini dövlətə ödəsə, büdcədən köçürmə işlərinə ayrılmış vəsait 5 il ərzində ödənilərdi: 1.566.693 desyatin qış otlağından 643.172 desyatini Muğan və Mil düzlərində yerləşirdi. Bu ərazi İranla sərhəd olan çöllüklər idi. 1910-cu ildə 7.897 desyatin torpağın hazırlanması, 1911-ci ildə isə Qafqazın quraqlıq düzlərinin əsasən Muğan çölünün su ilə təmin olunması haqqında qərar qəbul olunmuşdu.

1912-1914-cü illərdə köçürmə işləri dövri mətbuatın səhifələrində müzakirə olunan mövzu olaraq qalırdı.

Çarizm, Osmanlı və Qacarlar İranı ilə sərhədboyu rayonlarda hərbi-strateji mövqelərini möhkəmləndirməklə yanaşı, Azərbaycanı Mərkəzi Rusiya iqtisadiyyatının xammal əlavəsinə çevirməyə çalışırdı.

Artıq qeyd etdiyimiz kimi, Kür–Araz ovalığının sağ sahili boyunda yerləşmiş Muğan çölü qədimdən əkinçilik ocaqlarından biri olub. O, Bakı quberniyasının Cavad və Lənkəran qəzalarının tərkibinə daxil idi. XX əsrin əvvəllərində buraya köçürülmüş rus kəndlilərinin hesabına əhalinin say tərkibində dəyişiklik yaranmışdı. Muğan və ona söykənən Salyan çölünün yerli əhalisi Kür və Araz çayları boyunca yerləşmişdi. Buraya köçürülmüş rus kəndliləri isə çölün daxili hissələrində məskunlaşdırılmışdılar ki, bu da burada suvarma sistemlərinin inkişafına kömək edirdi.

Muğanda əhalinin ümumi artımına təkan verən amillərdən biri 1900-cü illərdən başlayaraq Muğan çölünün rus köçkünləri tərəfindən məskunlaşdırılması prosesinin gücləndi-

rilməsi və Muğanda rus məskənlərinin nəhəng massivlərinin yaranması oldu.

Azərbaycanın çöl rayonlarının müstəmləkələşməsi üzrə çar hökumətinin siyasətinin əsas məqsədi burada sənaye pambıqçılıq mərkəzinin yaradılması idi. Rus köçkünlərinin Mil və Muğanda yerləşməsi üçün 1904, 1908-1909 və 1913-cü illərdə bu regionlara xüsusi komissiyalar göndərilir.

Muğan və Milin məskunlaşdırılması ləng də olsa davam edirdi. Bu dövrdə digər rus köçkünləri də Qafqazdakı hökumət idarələrinə müraciət edərək Muğanda məskunlaşmaq üçün icazə verməlarini xahiş edirdilər.

Qeyd etmək lazımdır ki, İranla sərhədboyu zonada Mərkəzi Muğanın suvarılması nəticəsində nisbətən qısa müddətdə 75 min nəfərədək rus əhalisindən ibarət rayon yaradılır.

Muğanda əvvəlki məskunlaşma rayonlarına yeniləri də əlavə olundu. Cavad qəzasının çöl rayonlarında rus əhalisi 20,6 %, Lənkəran qəzasında isə 11,2 % təşkil edirdi. Məlumdur ki, məhz Muğan düzünün əsas hissəsi iki adı çəkilən qəzanın hüdudlarında idi. Bu ərazilərdə yerləşdirilmiş rus əhalisinin tərkibi də müxtəlif idi. Diyarın bir sıra rayonlarında pravoslav etiqadlı əhalinin sayı rus əhalisinin sektant hissəsini xeyli üstələyirdi. Məsələn, XX əsrin əvvəllərindən etibarən müntəzəm surətdə mənimsənilən Cavad qəzasında pravoslavların sayı 21.733 nəfər, sektantların sayı isə 2.091 nəfər idi.

Rus müəllifi N.Şavrovun yazdığına görə, sektantlar Muğan və Mildə vahid ümumi plan əsasında məskunlaşdırıldılar. Onlar rabitə yolları boyunca, qoşunların hərəkəti olan yerlərdə və qoşunları təchiz etmək zərurəti olan yerlərdə yerləşdirilir və üzərlərinə uzun müddətli natural mükəlləfiyyətlər qoyulurdu. Bütün çətinliklərə baxmayaraq rus əhalisi nisbətən böyük zənginliklərə nail olmuş və geniş çeşidli təşəbbüslərlə çıxış etmişdir".

Rus əhalisinin XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif bölgələrində məskunlaşdırılmasının davam etdirilməsi nəticəsində bölgədə onların sayı 1914-cü il yanvarın 1-ə olan məlumata görə 108.825 nəfərə çatmışdı.

Cavad qəzasında yaşayan ümumi sayı 1914-cü ildə 132.008 nəfər olan əhalinin 23.824 nəfəri, yəni 18 faizi rus əhalisindən ibarət idi. Salyan məntəqəsində yaşayan 17.465 nəfər əhalinin 164 nəfəri, yəni 0,1 faizi rus əhalisindən ibarət idi. Lənkəran qəzasında da əhalinin artımında rus əhalisinin sayının artımı müəyyən rol oynamışdı. Çar hakimiyyət orqanları Lənkəranın mühitini coğrafi və hərbi-siyasi və strateji əhəmiyyətini nəzərə alaraq oranın rus əhalisi ilə məskunlaşdırılmasına xüsusi diqqət yetirirdi.

Ümumilikdə, 1914-cü ildə Lənkəran şəhərində yaşayan 13.967 nəfər əhalinin 3.428 nəfəri və ya 24.5 faizini rus əhalisi təşkil edirdi. Bütövlükdə isə Lənkəran qəzasında 167.144 nəfər əhalinin 20.568 nəfərini ruslar təşkil edirdilər ki, bu da ümumi əhalinin 12.3 faizini təşkil edirdi.

Muğanın rus əhalisi suvarma sistemləri boyunca məskunlaşmışdılar. Pambıqçılıqla başlıca olaraq yerli kəndlilər məşğul olurdular, rus kəndliləri isə pambıq bitkisini yalnız öz şəxsi təsərrüfatlarında uğurla inkişaf etdirirdilər və onun ilk pionerləri XX əsrin əvvəllərindən etibarən Muğan köçkünləri oldular.

Rus tədqiqatçısı X.Rumanın fikrincə pambıq əkinlərinin sahəsinin artması üç amillə izah olunurdu: 1) köçkünlərin sayının artırılması: 2) pambıqçılıqla məşğul olan kəndlilərin sayının artırılması: 3) pambıq əkin sahələrinin genişləndirilməsi. Əgər Şimali və Mərkəzi Muğanda olan köçkünlər təsərrüfat fəaliyyətlərində pambıqçılığa əsas diqqət yetirirdilərsə, Cənubi Muğanda olan köçkünlər taxıl təsərrüfatına, (xüsusilə buğdaya) üstünlük verirdilər.

Çar hökuməti Muğanın məskunlaşdırılmasını orada əkinçiliyin inkişafı ilə paralel surətdə aparırdı. Rus müəllifi A.V.Krivoşqin öz "Qeydlərində" göstərirdi ki, suvarmanın ardınca Orta Muğanın məskunlaşdırılması prosesi də aparılırdı ki, burada da artıq 27 yeni qəsəbə salınmış və 8.000 rus köçkünü yerləşdirilmişdi.

XX əsrin əvvəllərində yeni məskənlərin salınması prosesi davam etdirilirdi ki, bu da Mil, Muğan bölgələrində əhalinin artımına süni surətdə təsir göstərmişdi. Belə ki, bu zaman

Lənkəran qəzasında köçkün rus əhalisi üçün 27 məskən salınmışdı, Cavad qəzasında isə bu rəqəm 80 olmuşdu. Bu regionlara köçürülən rus əhalisinin inkişafına yerli amillərin təsiri müəyyən rol oynayırdı. Onların doğum və ölüm hallarında yoluxucu xəstəliklərin rolu, əlverişli olmayan təbii və iqlim şəraitinə uyğunlaşma prosesi də əhalinin xüsusi çəkisinin artmasına və ya azalmasına öz təsirini göstərirdi.

1905-1907-ci illər inqilabı dövründə Qafqaza miqrasiya axını kəskin surətdə aşağı düşmüşdü. Burada bərqərar olmuş siyasi şərait əks hərəkətin miqyasına təsir göstərə bilməzdi. Azərbaycanın müxtəlif bölgələrindən geri dönənlər, yəni əks hərəkət, birbaşa diyara gələnlərdən dəfələrlə çox idi.

Köçkünlərin əks axınının xeyli güclənməsi 1905-1907-ci illər inqilabının başlanması ilə ölkədə köçkünlər üçün yaranmış əlverişsiz şəraitdən doğurdu. Bu zaman Biləcəri vasitəsilə 2115 nəfərdən ibarət 499 ailə geri dönmüşdü.

1913-cü il yanvarın 1-də yerləşmə məntəqələrindən Qafqazın digər yerlərinə çıxıb getmiş köçkünlərin sayı diyarda bütün məskunlaşdırılanların 5,75 faizini təşkil edirdilər. Ayrı-ayrı yerlərdə bu faiz xeyli yüksək olmuşdur. Məsələn, Muğan çölündə Bolqar çay boyunca yerləşmiş məskənlərdə, yəni Cavad qəzasına aid yerlərdə 19 faizə çatırdı. Mil düzündə yerləşmiş qəsəbələrdən isə köçüb gedənlərin sayı 18 faiz olmuşdur. Çıxıb getmənin əsas səbəbləri çəyirtkə və malyariyanın törətdiyi fəlakətlər idi.

Şimali Muğanda və Lənkəran qəzasında qəsəbələrin tərk olunmasının başlıca səbəbi isə malyariya ilə xəstələnmələr olurdu. Digər tərəfdən Mərkəzi və Cənubi Muğanda malyariya ilə xəstələnmələrlə yanaşı əkinlərin siçanların, çəyirtkə və şoranlaşma ilə əlaqədar olaraq məhv olması idi.

I Dünya müharibəsi illərində, vaxtilə Muğanda məskunlaşdırılmış rus kəndlilərinin əksəriyyəti demək olar ki, öz kəndlərini tərk edərək kütləvi axın halında Şimali Qafqaza getmişdilər.

1917-ci ilin oktyabrına olan məlumata görə, köçürmə tarifi üzrə köçürmə təşkilatı tərəfindən 2.872 vəsiqə verilmişdi

ki, buna əsasən Muğandan 4.582 nəfər yaşlı və 812 uşaq çıxıb gedə bilərdi.

Stolıpinin aqrar islahatı imperiyanın ucqarlarına köçürmə hərəkatı üçün mühüm mərhələ oldu. Azərbaycanın Mil və Muğan zonalarına rus kəndlilərinin köçürülməsi bütövlükdə yerli əhalinin süni surətdə artırılmasına gətirib çıxarırdı. Belə bir şəraitdə ruslar üçün əlverişli olmayan təbii-iqlim şəraiti köçkünlər üçün ayrılması nəzərdə tutulan becərilməyə yararlı torpaqların sahəsinin (yəni boş torpaq sahələrinin) azalmasına gətirib çıxarırdı. Belə bir vəziyyətdə yerli azərbaycanlı müsəlman əhalinin də yararlı torpaq sahələrinin miqdarı xeyli məhdudlaşırdı ki, bu da onların iqtisadi vəziyyətlərinin aşağı düşməsinə səbəb olurdu. Nəticədə, azərbaycanlı əhalinin artımına da rus köçkünlərinin axın halında yerləşdirilməsi mənfi təsir göstərirdi. Çarizmin bölgədə türk-müsəlman əhalinin azalmasına hədəflənmiş tədbirlərinin növbəti mərhələsi XX əsrin əvvəllərində təzahür edir.

1905-1907-ci illərdə isə türk-müsəlman əhaliyə (azərbaycanlılara) qarşı açıq şəkildə qanlı aksiyalar həyata keçirilir. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Qarabağ və bütün Qərbi Azərbaycan ərazisindəki türk-müsəlman kəndlərini əhatə edir.

Yarandığı gündən hədəfi "türklərsiz" Ermənistan ideyasını gerçəkləşdirmək olan "Daşnaksutyun" partiyası XX əsrin əvvəllərində Azərbaycana qarşı aparılan soyqırım siyasətinin təşkilatçısı idi. Türk-müsəlman əhaliyə qarşı bu cür siyasət 1905-1907-ci illər inqilabının gedişində daha açıq şəkil alır. Həmin illərdə 10 minlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətlə yetirilir. Erməni silahlı dəstələrinə qarşı müqavimət göstərmək imkanında olmayan silahsız əhali doğma yurdlarını tərk edərək köçkünə çevrililər. Qırğınların kütləvi şəkil aldığı Zəngəzur, Naxçıvan, Qarabağ, Qazax və digər ərazilərdən Azərbaycanın şərqinə, İrana və Osmanlıya (Türkiyə) qaçır. Yüzlərlə azərbaycanlı kəndləri ermənilər tərəfindən dağıdılır.

M.S.Ordubadinin tarixi sənədlər, şəxsi müşahidələr və o hadisələri öz gözləri ilə görmüş insanların söylədikləri real

faktlar əsasında 1911-ci ildə yazmış “Qanlı illər”, C.Cabbarlının “1905-ci ildə”, Mir Möhsün Nəvvabın “Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri” əsərlərində erməni qırğınları haqqında geniş məlumat verilir. Həmçinin bu əsərlərdə tariximizin qanlı və faciəli səhifəsi olan 1905-1906-cı illərdə Rusiya imperiyasının, onun ermənipərəst məmurlarının fitvası nəticəsində erməni millətçilərinin türk-müsəlman əhaliyə qarşı düşmənçilik, qəsbkarlıq və soyqırımı siyasəti, ermənilərin Bakı, Tiflis, İrəvan, Naxçıvan, Zəngəzur, Göyçə, Gümrü, Dərələyəz, Gəncə, Qazax, Qarabağ, Şuşa və s. yerlərdə törətdikləri qırğınlar soydaşlarımızın zor gücünə öz torpaqlarından qovulması ayrı-ayrı epizodlarda öz əksini tapmışdır.

XX əsrin əvvəllərində Çar Rusiyasının Azərbaycan torpaqlarında apardığı milli və dini siyasət nəticəsində Cənubi Qafqazda olan 1,3 milyon erməninin 1 milyondan çoxu burada məhz işğaldan sonra məskunlaşdırılmış idi.

Nəticədə XX əsrin ilk onilliklərində İrəvan torpaqlarında say etibarilə üstün olmuş ermənilərin, Naxçıvan və Qarabağ bölgələrində də sayı artmışdır. Belə ki, 1916-cı ildə Qarabağda əhalinin təxminən 51%-i azərbaycanlı, 46%-i isə erməni idi. Köçkün ermənilərin çoxu Qarabağın dağlıq hissəsində məskunlaşırdı.

Bölgədə aparılan məqsədyönlü siyasət türk-müsəlman əhalinin sayının azalmasına gətirib çıxarsa da, say etibarılə yenə də üstün mövqedə qalırlar. Belə ki, 1916-cı il yanvarın 1-nə olan məlumata görə, hətta keçmiş İrəvan quberniyasına daxil olan qəzalarda belə əhalinin əsas hissəsini yenə də azərbaycanlılar təşkil edirdilər. Bu ərazilərdə azərbaycanlı əhalinin say tərkibinin azalmasında kəskin dəyişikliklər 1918-1920-ci illərdə “Daşnaksutyun” partiyasının yaratdığı Ararat respublikası zamanında başlanır. Bu illərdə həmin ərazilərdə erməni-daşnak quldur birləşmələrinin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlar nəticəsində keçmiş İrəvan quberniyası ərazisində yüzlərlə Azərbaycan kəndi yerlə-yeksan edilir, 100 minlərlə müsəlman ( azərbaycanlı) isə həmin ərazilərdə qətlə yetirilir və ya oradan qovulur.

Həmin dövrün məlumatlarına əsasən 100 minlərlə azərbaycanlı İrəvan, Naxçıvan, Qarabağ və digər bölgələrdən didərgin salınmışdı. 1917-1918-ci illərdə Yeni Bayazid, Eçmiədzin və İrəvan qəzalarından olan qaçqınların sayı 200 minə çatmış, İrəvan quberniyasında azərbaycanlılar yaşayan 211 kənd viran edilmişdi. Ümumiyyətlə, erməni qəddarlığı və təcavüzü nəticəsində 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Şuşa və Şamaxıdan 300 mindən çox azərbaycanlı qaçqın düşmüşdü.

Rusiya imperiyası dağılandan sonra, xüsusilə 1917-1920-ci illərdə Azərbaycan torpaqlarında məskunlaşan ermənilər Azərbaycan xalqına qarşı yeni ərazi iddiaları irəli sürmüş, Andronik, Dronin və b. hərbiləşdirilmiş daşnak quldur dəstələri İrəvan, Naxçıvan və Qarabağ bölgələrində dinc müsəlman əhalini qırmış, doğma yurd-yuvasından didərgin salmışlar. Nəticədə müsəlman əhalinin kütləvi xarakter alan məcburi miqrasiya prosesi baş vermişdi.

1917-ci ildə bolşeviklərlə ittifaqa girən erməni millətçiləri daha da azğınlaşırlar. Ermənistanda daşnak hökuməti özünün 30 aylıq hakimiyyəti dövründə (1918-ci ilin may – 1920-ci il noyabr) Azərbaycan əhalisinin 60%-ni qətlə yetirir. 1918-ci ilin may ayında Zaqafqaziya Seymi dağıldıqdan sonra AXC, Gürcüstan və Ermənistan respublikaları yaranır. Yarandığı ilk gündən təcavüzkar siyasət yeridən Ermənistan respublikası qonşu xalqlara qarşı ərazi iddialarına başlayır. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyəti elan ediləndən sonra Osmanlı dövlətinin hərbi və siyasi yardımı ilə Naxçıvanda və Qarabağda hərbi-siyasi vəziyyət azərbaycanlıların xeyrinə dəyişir.

1918-ci ilin martından erməni-daşnak S.Şaumyanın başçılıq etdiyi Bakı Kommunası "əksinqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən soyqırım planını həyata keçirir. Nəticədə 1918-ci il martın 31-dən aprelin 2-dək təkcə Bakı şəhərində 12 min nəfərdən çox azərbaycanlı ermənilər tərəfindən soyqırıma məruz qalır.

AXC yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə

xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyuluın 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul edir. Komissiya mart soyqırımı, ilkin mərhələdə Şamaxıda vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarixi İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə AXC tərəfindən Ümummilli matəm günü kimi qeyd edilmişdi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin AXC-nin süqutu bu işin başa çatmasına imkan vermədi.

AXC Parlamenti və Hökuməti yuxarıda bəhs etdiyimiz hadisələrdən sonra sosial gərginliyi aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirir.

Qaçqınların maddi ehtiyaclarının ödənilməsi və yerləşdirilməsi, onlara tibbi xidmət göstərilməsinin təşkili və bununla bağlı başqa məsələlərə xüsusi qayğı göstərilir. Hökumətin "Qaçqınların yerləşdirilməsi məsələsini nizama salmaq üçün Şamaxı qəzasına komissiya göndərilməsi haqqında" (1919, 17 fevral), "Qaçqın və köçkünlərin vəziyyətinin, onların daimi yaşayış yerlərinə qayıtması məsələsinin aydınlaşdırılması üçün mərkəzi komissiyanın yaradılması haqqında" (1919, 23 iyun), "Qaçqınların yerləşdirilməsi üçün təcili tədbirlərin görülməsi haqqında" (1919, 8 noyabr) qərarları və s. Parlamentin "Qaçqınların ehtiyacları üçün 21 milyon manat pul ayrılması haqqında" (1920, 8 yanvar), "Epidemiya ilə mübarizə və qaçqınlara tibbi yardım göstərilməsi üçün epidemiyaya qarşı 12 mübarizə dəstəsinin yaradılması haqqında" (1920, 26 fevral) qanunları bu istiqamətdə atılan mühüm addımlardan idi. Ölkədaxili ağır vəziyyətə baxmayaraq, Azərbaycan Hökuməti Gürcüstan və Ermənistan ərazilərində yaşayan azərbaycanlı əhaliyə də müntəzəm yardım edirdi.

Azərbaycan xalqının öz doğma yurd-yuvalarından qaçqın

düşməsi prosesi Avropa dövlətlərinin Cənubi Qafqaza müdaxiləsindən sonra da dayanmadı. Həmin dövrdə İrəvan quberniyasından Şərqi Azərbaycana 150 mindən çox qaçqın gəlmişdi. 1919-cu il oktyabrın 1-nə kimi Azərbaycanda, İrəvan quberniyasından 5.848 ailə, yaxud 30.741 nəfər qaçqın var idi. Qaçqınlar problemi ilə bağlı hökumətin qarşısında duran başlıca vəzifələr gələn saysız-hesabsız didərginlərə qayğı və diqqət göstərilməsi, onların zəruri ərzaq məhsulları ilə təmin edilməsi, təsərrüfatlarının təşkili üçün faizsiz borc, əkin üçün toxum, iş heyvanları verilməsindən ibarət idi. Azərbaycan Hökuməti Parlamentdən Zəngəzur qaçqınları üçün 3 aylıq yardım və qidalanma daxil olmaqla, 187.500 manat həcmində xüsusi kredit ayrılmasını xahiş etmişdi. Parlament göstərilən vəsaiti ayırmış və Zəngəzur qəzasını əhatə edən xüsusi idarələrarası komissiyanın sərəncamına vermişdi. 1919-cu ildə Şuşa, Cəbrayıl, Cavanşir, Ağdam, Füzuli və Bərdədə məskunlaşan 20 minədək qaçqına yardım edilmişdir.

Ermənistan və Gürcüstan hökumətlərindən fərqli olaraq, AXC, milliyyətindən asılı olmayaraq, bütün qaçqınlara kömək edirdi. Azərbaycan Hökumətilə yanaşı xalq da qaçqınlara yaxından köməklik edirdi. 1919-cu ildə Bakı şəhəri və mədən rayonlarında qaçqınlar üçün 308.000 manat toplanmışdı.

1920-ci ildə bütün Ermənistanda cəmi 10.000 azərbaycanlı qaldığı halda, 1922-ci ildə qaçqınların geri qayıtması ilə azərbaycanlıların sayı 77.767 nəfərə, 1931-ci ildə 105.838 nəfər, 1939-cu ildə isə 130.896 nəfərə çatır. Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra, qaçqınların geri qayıtması ilə Azərbaycan türkləri burada əhalinin 10%-ni təşkil edirlər. 1922-ci ildə İrəvan şəhərində cəmi 5.124 nəfər azərbaycanlı qalmışdı. Ermənilərin sayı isə 40.369 nəfərə çatmışdı.

1920-ci il aprelin 28-də Azərbaycanın bölşevik Rusiyası tərəfindən işğalı yenidən ölkənin vəziyyətini çətinləşdirdi. Bu hadisədən sonra ölkənin taleyini Azərbaycan xalqı yox, ermənilərin himayəçisi kimi çıxış edən RK (b)P-sı və onun Qafqaz Bürosu həll edirdi.

1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra, daşnak hakimiyyəti dövründə öz doğma yurdlarından didərgin salınmış, Azərbaycana, İrana, Türkiyəyə və Gürcüstana sığınmış müsəlman qaçqınların bir qismi öz doğma yurdlarına geri qayıtmağa müvəffəq oldular.

Ermənistan rəhbərləri qaçqınların geri qayıtmasının qarşısını almaq məqsədilə müxtəlif bəhanələr gətirir, onları Ermənistan ərazisinə buraxmaq istəmirdilər. 1922-ci ilin yayında Ermənistan hökuməti guya yoluxucu xəstəliklərin yayılmasını bəhanə edərək, İran ərazisində sığınacaq tapmış qaçqınların Culfa keçid məntəqəsindən keçərək Ermənistana qayıtmalarının qarşısını almaq üçün dəfələrlə Azərbaycan hökumətinə müraciət etmişdi. Vedibasar və Zəngibasar qaçqınlarına o şərtlə geri qayıtmağa icazə vermişdilər ki, onların 1918-1920-ci illərdə ermənilərə qarşı vuruşmalarda iştirak etməmələri sübuta yetirilmiş olsun.

Lakin Ermənistan hökumətinin müqavimətinə və orada hökm sürən aclıq və səfalətə baxmayaraq 1922-ci ildə 70 mindən artıq azərbaycanlı qaçqın doğma yurdlarına qayıtmışdı. Müsəlmanların yaşamış olduqları kəndlərin çoxunda Türkiyədən gəlmiş erməni ailələri yerləşdirilmiş, qayıdan qaçqınlar ermənilərlə birgə yaşamağa məcbur olmuşdular. Sonralar 80-dən artıq ermənilərlə qarışıq məskənlər belə yaranmışdır.

Daşnakların hakimiyyətdə olduğu dövrdə Qərbi Azərbaycanda 575.000 türk-müsəlmanlardan 565.000 nəfəri öldürülmüş və qovulmuşdur. Bu rəqəm 1932-ci ildə Z.Korkodyanın "Sovet Ermənistanının əhalisi (1831-1931-cü illər)" kitabında təsdiq edilmişdir.

Sovet hakimiyyəti dövründə Ermənistan SSR-də keçirilən ilk Ümumittifaq siyahıyaalma materiallarına əsasən əhalinin etnik tərkibi aşağıdakı kimi olmuşdur (cədvəl 7).

**Cədvəl 7**

**Ermənistan SSR-i əhalisinin etnik tərkibi (1926)**

| Milli tərkib | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|
| Bütün əhali, onlardan | 447.410 | 431.519 | 878.929 |
| Erməni | 375.088 | 368.483 | 743.571 |
| Türk* | 40.906 | 35.964 | 76.870 |
| Rus | 10.221 | 9.327 | 19.548 |
| Yezid | 6.056 | 6.181 | 12.237 |
| Qarapapaq ** | 3.252 | 3.059 | 6.311 |
| Fars | 2.722 | 2.321 | 5.043 |
| Kürd | 1.590 | 1.435 | 3.025 |
| Yunan | 1.512 | 1.468 | 2.980 |
| Ukraynalı | 2.337 | 489 | 2.826 |
| Gürcü | 142 | 132 | 274 |
| Digər millətlər | 3.584 | 2.660 | 6.244 |

***** "Türklər" adı altında azərbaycanlılar nəzərdə tutulmuşdur.

****** Qeyd etmək lazımdır ki, 1926-cı il əhali siyahıyaalması zamanı azərbaycanlılara aid edilmiş «qarapapaqlar» da siyahıya daxil edilmişdir. Azərbaycanlıların sayı 83.181 nəfər olmuşdur.

**Mənbə**: Всесоюзная перепись населения 1926. т. XVII. СССР М: 1929

1926-cı il siyahıyaalma materiallarında Ermənistan SSR-in 878.929 nəfər əhalisinin 85%-ni ermənilər, 10%-ni azərbaycanlılar, 2,2%-ni ruslar, 3%-i digər millətlərin nümayəndələrinin təşkil etdiyini görürük.

Cənubi Qafqazda türk-müsəlman əhalinin öz dədə-baba torpaqlarından çıxarılması və bu torpaqlarda ermənilərin yerləşdirilməsi (1813-cü il Gülüstan,1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra) ilə başlayan siyasi proseslər SSRİ yaradıldıqdan sonra da davam etdirilməkdə idi. II Dünya müharibəsindən sonra azərbaycanlı əhalinin öz torpaqlarından köçürülməsinin yeni mərhələsi başlayır.

1943-cü ildə üç dövlət (SSRİ, ABŞ, İngiltərə) başçısının (İ.V.Stalin, F.D.Ruzvelt, U.L.Çörçill) Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən erməni diasporu əlverişli məqamdan istifadə etdilər. Ermənistanın rəhbəri Q.E.Arutyunov (Arutyunyan) bu fürsətdən istifadə edərək, xaricdən gələn ermənilərin Ermənistanda yerləşdirilməsi üçün

azərbaycanlıların Ermənistandan zorla köçürülməsinə nail olur.

SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də “Ermənistan SSR-də yaşayan kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” 4083 saylı və 1948-ci il martın 10-da “Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında” 754 saylı qərarlar qəbul etdi. Birinci qərarın birinci bəndində deyilirdi: “1948–1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. 1948-ci ildə 10 min nəfər, 1949-cu ildə 40 min nəfər, 1950-ci ildə isə 50 min nəfər köçürülsün”. Qərarın axırıncı – 11-ci bəndində isə Ermənistan SSR Nazirlər Sovetinə tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülən azərbaycanlıların evlərinə xaricdən gələn ermənilər yerləşdirilsin. Qərar gözlənilməz olması ilə yanaşı, həm də məcburi idi.

Təsadüfi deyil ki, köçkünlərin Kür-Araz ovalığından kənarda məskunlaşdırılmasına yol verilirdi. Ən mühüm məsələlərdən biri də köçürülənlərin yeni köçürüldükləri torpaqlardan öz dədə-baba torpaqlarına geri qayıtmaları qadağan olunurdu. Onların boşaltdıqları tikililərdə və yaşayış evlərində isə xaricdən gələn ermənilərin yerləşdirilməsi nəzərdə tutulurdu. SSRİ rəhbərliyi hər iki ölkə üçün tədbirlər planı hazırlamış, Azərbaycana köçürüləcək insanlar üçün yaşayış yerlərinin təşkil edilməsi və digər göstərişlər verilmişdi. Lakin müharibədən sonrakı sosial-iqtisadi vəziyyət hazırlıq işlərini qısa müddətdə tamamlamağa imkan vermirdi.

Bununla yanaşı, «Kənd təsərrüfatı köçürülüşü üzrə güzəştlər haqqında» SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı 1947-ci ildə Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürülən azərbaycanlılara da şamil edildi. Bu qərar Sibir, Qazaxıstan və Uzaq Şərqə sürgün olunanlara aid idi. Qərarın tarixi torpaqlarından zorla və rəsmi olaraq çıxarılan azərbaycanlılara

aid edilməsi 1948-1953-cü il köçürülməsinin deportasiya olduğunu təsdiq edirdi.

1948-1953-cü illərdə Ermənistan SSR-dən köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmamış və "daxili köçürmə" adı altında 1949-cu ildə Dağlıq Qarabağdan 132 (549 nəfər) azərbaycanlı ailəsi Azərbaycan SSR-in Xanlar rayonuna köçürülmüşdü. Beləliklə də, "Böyük Ermənistan" üçün ərazilər boşaldılması işi planlı surətdə davam etdirilmişdir.

Tarixçi L.L.Həsənova "Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (Sovet siyahıyaalmaları əsasında)" adlı monoqrafiyasında deportasiyaya məruz qalmış azərbaycanlıların sayını aşağıdakı kimi göstərir:

**Cədvəl 8**

**1948-1953-cü illərdə Ermənistan SSR-dən Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına köçürülmüş azərbaycanlıların sayı**

| 1948 | 1949 | 1950 | 1951 | 1952 | 1953 | Cəmi köçürülənlər |
|---|---|---|---|---|---|---|
| 8.054 | 12.697 | 12.932 | 3.714 | 5.512 | 8.264 | 51.163 |

Köçkünlər Əli-Bayramlı, Salyan, Puşkin (Biləsuvar), Jdanov (Beyləqan), Saatlı, Sabirabad, Mirbəşir (Tərtər), Yevlax, Bərdə, Ağcabədi və digər rayonlarda yerləşdirilmişdilər. Göründüyü kimi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə daxil olan inzibati rayonlara azərbaycanlıların yerləşməsinə icazə verilməmişdir.

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin 1954-cü il oktyabrın 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə və Respublika Nazirlər Sovetinə yazdığı məktubunda göstərilirdi ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür-Araz ovalığına 11.914 təsərrüfat (53.000 nəfər) köçürülmüşdür. Azərbaycana köçürülənlərin sayı ilə əlaqədar bir faktı da qeyd etmək lazımdır ki, sənədlərdə göstərildiyi kimi həmin illərdə rəsmi köçürmə ilə yanaşı, köçürülən yerlərə getmək istəməyənlər, yaxud Ermənistanda

yaradılmış dözülməz şəraitdən canını qurtarıb Azərbaycana pənah gətirənlər də az olmamışdır. Onlar Azərbaycanın Ermənistanla sərhəd olan Gədəbəy, Tovuz, Şamxor, Zəngilan və b.rayonlara köçmüşlər. Lakin, respublka rəhbərliyi SSRİ Nazirlər Sovetinin 754 saylı qərarını rəhbər tutaraq onları Kür-Araz ovalığına getməyə məcbur edirdilər.

SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi İ.V.Stalinin vəfatından (1953, 5 mart) sonra azərbaycanlıların Ermənistan SSR-dən plan üzrə köçürülməsi dayandırıldı.

Zorla köçürülən azərbaycanlıların bir hissəsi geri qayıtmağa başladı. 1954-cü ilin aprelinə qədər 1.155 təsərrüfatın geri qayıtdığı bildirilir. Tədqiqatçı A.Ə.Paşayev 1948-1954-cü illərdə 13.628 ailənin Azərbaycandan Ermənistana (öz dədə-baba torpaqlarına) geri qayıtdığını göstərir.

Ümumittifaq siyahıyaalma materiallarına görə 1939-1989-cu illərdə Ermənistan SSR-in əhalisinin milli tərkibi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 9**

**Ermənistan SSR-i əhalisinin milli tərkibi (seçmə)**

| Milli tərkib | 1939 | 1959 | 1970 | 1979 | 1989 |
|---|---|---|---|---|---|
| Bütün əhali | 1.282.338 | 1.763.048 | 2.491.873 | 3.037.259 | 3.304.776 |
| Erməni | 1.061.997 | 1.551.610 | 2.208.327 | 2.724.975 | 3.083.616 |
| Azərbaycanlı | 130.896 | 107.748 | 148.189 | 160.841 | 84.860 |
| Rus | 51.464 | 56.477 | 66.108 | 70.336 | 51.555 |
| Kürd | 20.481 | 25.627 | 37.486 | 50.822 | 56.127 |

SSRİ-də keçirilmiş əhali siyahıyaalma materiallarına əsasən Ermənistan SSR-də azərbaycanlılar saylarına görə ermənilərdən sonra 2-ci yeri tutmuşlar.

1939-cu il - 1959-cu illər üzrə azərbaycanlıların sayının müqayisəsi göstərir ki, 20 il ərzində azərbaycanlıların sayı 23.148 nəfər azalmışdır. Bu onunla izah olunur ki, Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılar həmin illər ərzində represiya və deportasiyalara məruz qalmış, Böyük Vətən muharibəsində həlak olmuş, itkin düşmüş, Azərbaycana pənah gətirmişlər.

1959-cu ilin nəticələri ilə müqayisəsi göstərir ki, azərbaycanlıların təbii artımı 40.441 nəfər olmuşdur. 1970-ci ildə keçirilən Ümumittifaq siyahıyaalma materiallarına əsasən Ermənistanın azərbaycanlı əhalisinin say tərkibi təbii artım hesabına 148.189 nəfərə çatmışdır.

1985-ci ildə M.Qorbaçov Kommunist Partiyası İcraiyyə Komitəsinin I Katibi seçildikdən sonra, ermənilər "Böyuk Ermənistan" yaratmaq iddialarını gerçəkləşdirmək üçün yenidən fəallaşdılar.

1988-ci ilin noyabrından Dağlıq Qarabağa ərazi iddiaları ilə başlayan hadisələr Qərbi Azərbaycanın son yerli sakinlərinin də öz torpaqlarından qovulması ilə nəticələndi. Bütün Ermənistanda silahlı erməni dəstələri azərbaycanlılar yaşayan kəndlərə hücum edir, onları kəndi boşaltmağa məcbur edirdilər. SSRİ rəhbərliyinə və Azərbaycan hökumətinə ünvanlanmış müraciətlərə cavab olaraq Ermənistana Azərbaycan Nazirlər Soveti tərəfindən komissiya göndərilir. Komissiyanın işinin nəticəsində 1988-ci ildə Ermənistanda 208 min azərbaycanlının yaşadığı məlum olur.

1988-1991-ci illərdə Ermənistandakı 185 azərbaycanlı kəndindən və digər yaşayış məntəqələrindən azərbaycanlılar qovuldu. Onlara məxsus 31 min ev, 165 kolxoz və sovxoz əmlakı, çoxlu mal-qara talan edildi, 226 nəfər öldürüldü, 1.154 nəfər yaralandı, yüzlərlə insan işgəncələrə məruz qaldı.

Qeyd edək ki, azərbaycanlılarla yanaşı, kürdlər, yezidlər, ruslar, malakanlar da Ermənistan SSR-dən didərgin salındılar.

1991-ci il avqustun 8-də son azərbaycanlı kəndi Nüvədinin boşalması ilə monoetnik erməni dövlətinin yaranması prosesi başa çatdı.

Sovet və respublika mətbuatı yaranan vəziyyəti, əhaliyə qarşı aparılan soyqırımı, Ermənistandan azərbaycanlıların kütləvi şəkildə qovulması və bununla da onların qaçqınlığa məruz qalması, onların Azərbaycanın müxtəlif rayonlarında yerləşdirilməsi barədə heç bir məlumat vermirdi. Yalnız 1988-ci ilin iyun ayının 10-da Azərinform Ermənistandan Azərbaycana

3000 qaçqın gəldiyini etiraf etməyə məcbur olur. Lakin onları rəsmi olaraq «qaçqın» yox, «daimi yaşayış yerlərini müvəqqəti tərk edənlər» adlandırırlar .

Beləliklə, əldə olan arxiv sənədləri və statistik materiallara əsasən müəyyən etmək olur ki, XX əsr ərzində təqribən 1 milyon 500 min azərbaycanlı öz doğma yurdlarından qovulmuşdur.

1988-1991-ci il hadisələrindən sonra Qərbi Azərbaycanda - müasir Ermənistan respublikasında faktiki olaraq azərbaycanlı qalmamışdı.

1991-ci ildə Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra qaçqın və məcburi köçkünlərin hüquqlarını müdafiə edən mühüm qanunlar qəbul edir.

Azərbaycan dövlətində qaçqınların və məcburi köçkünlərin, «qaçqın» statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxslərin problemlərinin həlli ilə bağlı beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılmış, 46 Fərman və Sərəncam imzalanmış, Nazirlər Kabineti 215 qərar və sərəncam, Milli Məclis isə 23 Qanun qəbul etmişdir. 1992-ci il sentyabrın 29-da “Qaçqınların və məcburi köçkünlərin statusu haqqında”, 1999-cu il mayın 21-də isə «Qaçqın və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunlarda qaçqın və məcburi köçkün anlayışlarına, qaçqın statusunun verilməsi (həmçinin, verilməməsi), qaçqın statusu almaq istəyənlərə sığınacaq verilməsi, onların hüquq və vəzifələri və digər məsələlərə aydınlıq gətirilmişdir. Ermənistandan qovulmuş bütün qaçqınlara Azərbaycan vətəndaşlığı statusu verilmişdir.

1998-ci ildə isə Azərbaycan Respublikası prezidentinin sərəncamına əsasən “Qaçqınların və Məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı” təsdiq edilmişdir.

Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımlarının siyasi baxımdan qiymətləndirilməsinə Azərbaycanda milli azadlıq hərəkatının genişləndiyi ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində başlasa da ona tam siyasi qiymət həmin illərin sonunda verilmişdir. Bu qiymət Azərbaycan Respublikası Prezidenti

Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanında bütün dolğunluğu ilə əksini tapmışdır. Fərmanda deyilir: "1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı.... Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarımızın zəbti ilə müşayiət olunaraq ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir...." Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il noyabrın 14-də Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxış edərkən problemin yaranma səbəblərini belə göstərmişdir: "...bizim respublikada bu qədər qaçqının olmasının səbəbi Ermənistanın Azərbaycanın ərazisinə qəsd etmək məqsədi ilə başladığı əvvəl siyasi, sonra isə hərbi əməliyyatların nəticəsidir. Bunların hamısı öz başlanğıcını 1988-ci ildən götürür. Ermənistanda yaşayan bütün azərbaycanlılar həmin il zorakılıq nəticəsində, onlara qarşı göstərilən təzyiq, təqiblər, ciddi təxribatlar və başqa fiziki əməliyyatlar nəticəsində, oradan məcburi çıxarılıb. Onlar Azərbaycana köçməyə məcbur olublar. Bundan sonra Axıska türk-

lərinin bir qismi başqa regionlardan Azərbaycana köçüb....”.

Həmçinin Ümummilli lider Heydər Əliyevin 1997-cu il 18 dekabr tarixli “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərmanına əsasən həmin məsələlərin hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması üçün Prezidentin özünün sədrliyi ilə geniş tərkibdə dövlət komissiyası yaradılmışdı. Bu fərmanın Azərbaycan xalqına qarşı törədilən tarixi ədalətsizliklər – zorakı köçürmələr, soyqırım siyasətinin yenidən öyrənilməsi və beynəlxalq ictimaiyyətə çatdırılmasına mühüm təsiri olmuşdur.

Belə ki, 1988-ci ildə Ermənistan ərazisində azərbaycanlıların başına gətirilən müsibətlər bəşər tarixinin ən qanlı səhifələri olmaqla, bu hadisələr 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindən deportasiyasının bir növ məntiqi davamı hesab edilməlidir. Ermənilərin azərbaycanlıların əleyhinə həyata keçirdiyi soyqırımların tarixi kökləri, siyasi-ictimai, ideoloji cəhətlərinin hər biri dərindən tədqiq olunmalı, aşkarlanıb bu haqda əsl həqiqət dünyaya çatdırılmalıdır.

1988-1992-ci illərdə Ermənistan ərazisindən azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti misilsiz bir qəddarlıq və vəhşiliklə həyata keçirildi, 250 min soydaşımız öz ata-baba yurdlarından qovularaq qaçqına çevrildilər.

Rusiyanın köməyi ilə Azərbaycanın mərkəzi hissəsində - Dağlıq Qarabağda məskunlaşdılrılan ermənilər dəfələrlə Dağlıq Qarabağı Azərbaycandan ayırmağa cəhd göstərmişlər. 1988-ci ildə öz havadarlarının köməyinə arxalanan Ermənistan silahlı qüvvələri Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini yenidən ortaya atırlar.

1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi-Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı,Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) eləcə də ona bitişik olan 7 rayonun

(Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) ərazisi işğal olundu, bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.Dağlıq Qarabağda 6000 nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən Sovet qoşunlarının köməyi ilə bir gecədə darmadağın edildi, 613 nəfər dinc əhali vəhşicəsinə, qəddarlıqla qətlə yetirildi, 150 nəfər itkin düşdü. Bu qanlı faciədə 1000 nəfər dinc sakin şikəst oldu, 1275 nəfər qoca, qadın və uşaqlar isə əsir aparılaraq dəhşətli təhqirlərə, zülmə və həqarətə məruz qaldı.1990-cı ildə Mərkəzi Asiyadan didərgin salınmış 50 min nəfərədək ahıska (məshəti) türkü də Azərbaycanda sığınacaq tapdı. BMT Təhlükəsizlik Şurasında münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə 822, 853, 874, 884 saylı qətnamələr qəbul edilmişdi. Eyni zamanda 1994-cü ildə ATƏT-in Budapeşt, 1996-cı ildə Lissabon, 1999-cu ildə İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində tədbirlər müəyyənləşdirilmiş, həmçinin, ABŞ konqresinin müstəqil Azərbaycana yardım göstərilməsini qadağan edən ədalətsiz 907-ci düzəlişinin icrası dayandırılmışdır.

Bu illərdə Ermənistan Respublikası «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyasının (07.08.1954) və «Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında» Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini məhv edir və talayır (Konvensiya 20 mart 1883-cü ildən fəaliyyətdədir və Azərbaycan 1995-ci ildən onun üzvüdür).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, biz sülh yolu ilə Dağlıq Qarabağ probleminin həllinə çalışırıq. Lakin Azərbaycan xalqının da səbrinin müəyyən hüdudları vardır. Əgər sülh yolu ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın erməni tapdağından azad olunması alınmazsa, bu torpaqları silah gücünə olsa da azad etməyə hazırıq. Bu bizim konstitusion hüququmuzdur.

Beləliklə, qaçqın və məcburi köçkün problemi müasir dövrümüzün ümumbəşəri problemləri sırasındadır.

Ümumbəşər insan hüquqları deklarasiyasının 14-cü bəndində deyilir: “Hər bir insan izlənilməkdən qorunmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və ondan istifadə etmək hüququna malikdir. Nə qədər ki, dünyada müharibələr, təqib olunmalar, hüququ tapdalanmalar, dözümsüzlük və insanlığa laqeydlik mövcuddur, qaçqınlar və məcburi köçkünlər də mövcud olacaq. Bu insanlar müxtəlif irq və dinlərə mənsubdurlar. Onlara planetin hər bir küncündə rast gəlmək olar. Məcburi köçkünlər öz həyatlarını qorumaq və azadlıq naminə, qaçqınlar isə yad bir ölkədə qeyri-müəyyən gələcək üçün çox vaxt hər şeylərini – evlərini, mülklərini, ailələrini və vətənlərini atırlar. Onların acınacaqlı vəziyyəti müasir dövrün ən böyük faciələrindən biridir, onların müqəddəratı isə insan hüquqlarını müdafiə problemi kimi hər birimizi narahat etməlidir.Qaçqınlar və məcburi köçkünlər kimi problemlər beynəlxalq cəmiyyətə çağırış olaraq qalır. Qaçqın və məcburi köçkünləri qəbul edən ölkə qabaqcadan onların müdafiəsini təmin və başqa millətin nümayəndələrinə qarşı dözümlü bir şərait yaratmaqda kömək etmək kimi öhdəlikləri yerinə yetirməli, qaçqınların və məcburi köçkünlərin yarandığı ölkə əhalisinin kütləvi axınının yaranması səbəblərinin qarşısını almağa borcludur”.

Miqrasiyanın demoqrafik proseslərə həm mənfi, həm də müsbət təsiri vardır. Əhalinin hərəkəti insanların mədəni və ictimai səviyyəsinə təsir etdiyinə görə cəmiyyətin inkişafında mühüm rola malikdir. Xüsusilə, ölkənin iqtisadi inkişafının təmin edilməsi üçün regionlar arası miqrasiya böyük əhəmiyyətə malikdir.

Azərbaycan əhalisinin formalaşmasında miqrasiyanın rolunu ümumiləşdirsək, aşağıdakı nəticələri əldə edə bilərik:

a) XIX əsrin sonundan başlayan immiqrasiya nəticəsində əhalinin milli tərkibində dəyişiklik baş verimiş, Rusiya-İran və Rusiya-Osmanlı müharibələri nəticəsində bölgəyə başqa millətlərin (rus, erməni, polyak, alman v.s.) nümayəndələri köçürülmüşdür. XX əsrin I yarısına aid statistik materiallar əhalinin

ancaq say tərkibindəki dəyişiklikləri izləməyə imkan verir. 1979 və 1989-cu illərin Ümumittifaq əhali siyahıyaalma materialları, 1999-cu il müstəqil Azərbaycanın ilk əhali siyahıyaalma materiallarının müqayisəsi miqrasiya proseslərinin əhalinin demoqrafik strukturuna, milli tərkibinə təsirinin aydınlaşdırılmasında mühüm rol oynayır. Belə ki, bu materiallarda respublikada yaşayan yəhudi, erməni və rus millətindən olan əhalinin sayında azalma qeydə alınmışdır.

b) XIX əsrdə bölgəyə xristian rusların, ermənilərin, polyakların və almanların köçürülməsi əhalinin dini tərkibində yenilik etməsə də faiz nisbətində say dəyişikliyi yaradır.

c) XIX əsrin sonundan başlayaraq şəhər əhalisinin sayı artmışdır. XIX əsrin 50-60-cı illəri ilə əsrin sonunu müqayisə etdikdə, şəhər əhalisinin sayının immiqrantların hesabına artaraq bütün əhalinin 12,4%-dən 16%-ə çatdığı məlum olur. XX əsrdə sənayeləşmə prosesi nəticəsində əhalinin məskunlaşmasında urbanizasiyanın artması güclənir (bunu şəhər və kənd əhalisinin sayının dəyişməsi ilə aydın görmək olur).

d) Miqrasiya prosesi (urbanizasiya, kənd-şəhər v.s.) əhalinin cins və yaş tərkibinə də təsir etmişdir. Gənclərin və kişi əhalisinin azlığı kəndlərdə məşğulluğun azalmasına, kənd təsərrüfatında yeni texnologiyaların tətbiqinə mane olur. Bununla yanaşı, kəndlərdə doğumun azalmasına və əhalinin yaşlaşmasına səbəb olur. Şəhərlərdə əhalinin artımı isə "şəhərin yüklənməsi", yaşayış və məişət problemlərinin artması ilə nəticələnir.

e) XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində baş vermiş müharibə əhalinin sağlamlığı məsələlərində ciddi problemlər yaratmışdır. Nəticədə, ürək-damar və şəkər xəstəliklərinin sayı artmışdır.

f) XX əsr ərzində baş vermiş müharibələr əhalinin demoqrafik vəziyyətinə ciddi təsir göstərmişdir. v.s.

Müvəqqəti miqrasiyanın problemləri sırasında bəzi cəhətləri xüsusi qeyd etmək istərdik.

XIX əsr ərzində miqrasiya prosesləri Rusiya imperiyasının maraqlarına uyğun olaraq bir tərəfli qaydada həyata keçi-

rilmişdir. SSRİ dövründə isə, əsasən, sovet respublikaları arası miqrasiya mövcud olmuşdur. SSRİ-də əhalinin miqrasiyasını izləmək üçün qeydiyyatı aparılırdı və dövlət tərəfindən idarə edilirdi. Xüsusilə, dövlətin iqtisadi maraqlarına uyğun olaraq əhalinin hərəkəti geniş yayılmışdır. Azərbaycanda Mingəçevir və Sumqayıt şəhərlərinin salınması, şəhərlərdə sənaye obyektlərinin tikilməsi, ali və orta ixtisas təhsili müəssisələrinin açılması ilə əlaqədar digər respublikalardan mütəxəssislər işə cəlb edilirdi. Eyni zamanda, azərbaycanlılar müttəfiq respublikalarda aparılan quruculuq işləri ilə əlaqədar ora göndərilirdirlər.

"Beyin axını" miqrasiyanın diqqəti cəlb edən digər cəhətlərindən biridir. XX əsrin sonunda, əsasən SSRİ-nin dağılmasından sonra bu proses güclənmişdir. Buna səbəb isə elm və təhsilin yeni müstəqillik əldə etmiş yaranan dövlətlərdə yaranan problemlər fonunda qalması və elmin gəlirli sahə olmaması, yaradıcılıq şəraitinin olmaması, dövlətin iqtisadi vəziyyətinin zəifləməsi ilə elmi maliyyələşmənin azalması idi. "Beyin axın"nın iqtisadiyyat, kənd təsərrüfatı və digər sahələrə mənfi sosial-iqtisadi təsiri vardır, yeni konsepsiyaların, yeni texnologiyaların tətbiqini çətinləşdirir. Miqrasiyanın bu növü dövlətin və millətin gələcəyi üçün ciddi problemdir.

Beləliklə, müasir dövrdə miqrasiya ənənəsi çoxcəhətlidir və onların öyrənilməsi demoqrafiyanın vacib məsələlərindəndir.

Dövlət siyasi və iqtisadi problemləri həll etmək öz təhlükəsizliyini qorumaq üçün miqrasiya proseslərini tənzimləməli və zəruri tədbirlər həyata keçirməlidir. Azərbaycanın miqrasiya siyasətinin əsas məqsədi milli təhlükəsizliyi və milli maraqları qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, nəzarətsiz miqrasiya proseslərinin neqativ nəticələrinin qarşısının alınması, miqrantlara öz hüquqlarını həyata keçirmək üçün şəraitin yaradılması, əsas vəzifələri isə miqrasiya proseslərindən ölkənin inkişafı üçün səmərəli istifadə olunması; miqrasiya proqramlarının və tədbirlərinin həyata keçirilməsində dövlətin, cəmiyyətin və insanların mənafelərinə riayət edilməsi; qeyri-qanuni miqrasiyanın qarşısının alınması; miqrantların mövcud

sosial-iqtisadi vəziyyətə uyğunlaşmasını sürətləndirən şəraitin yaradılması və miqrantların hüquqlarının müdafiəsidir.

Bu məqsədlə bir sıra qanunvericilik sənədləri ("Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"; "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)"; "İmmiqrasiya haqqında"; "Əmək Miqrasiyası haqqında" v.s. Qanunlar) qəbul edilmiş, respublika qanunvericiliyi Konstitusiyaya və insan hüquqları sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılmışdır.

"Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nda miqrasiya proseslərinin tənzimlənməsinə dair 10 tədbir nəzərdə tutulmuşdur. Buna uyğun olaraq, miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə 2007-ci ildə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti yaradılmışdır.

"Regionların İqtisadi İnkişaf Proqramı"* da rayonlarda miqrasiya prosesinin tənzimlənməsi üçün bir sıra imkanlar yaradır.

Yuxarıda göstərilənlər – beynəlxalq və milli qanunvericilik (o cümlədən, xaricdə yaşayan azərbaycanlıların vəziyyəti ilə əlaqədar qəbul edilən qanunvericilik sənədləri), həmçinin digər dövlətlərin təcrübəsi miqrasiya prosesinin tənzimlənməsi barədə tədqiqatlar aparılması üçün bazanın mövcud olduğunu göstərir. Bundan əlavə, miqrasiyanın əsas istiqamətləri, səbəbləri, tənzimlənməsi, miqrasiya proseslərinin, diasporun demoqrafik göstəricilərinin öyrənilməsi və bu sahədə siyasətin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması üçün tarixi, xüsusilə tarixi-demoqrafik və miqrasiya problemlərinə dair tədqiqatların aparılması zəruridir. Məhz belə tədqiqatlar vasitəsilə

---

* Proqram 2003-2008, 2009-2013-cü illərə aid iki mərhələdə icra edilib. Hazırda 2014-2018-ci illəri əhatə edən üçüncü mərhələsi başlayıb.

xalqın formalaşmasına mühüm təsir göstərən amilləri müəyyən etmək mümkündür.

## Nəticə

Beləliklə, araşdırmalar göstərir ki, əhali problemi və onun bir qolu olan miqrasiyalar qlobal problemlər məngənəsində sıxılan müasir dünyanı ciddi narahat edən problemlər sırasındadır.

Əhali problemləri və miqrasiyalar dövlətlərin daxili və xarici siyasətinə təsir göstərən əsas faktorlar olduğundan, hər bir dövlət bu məsələləri nizamlamağa yardımçı olan qanunvericilik sənədləri qəbul edir və həmin prosesləri dövlətin nəzarətində saxlamağa çalışır. Azərbaycan hökuməti də miqrasiya problemini Azərbaycan Respublikasının Konstitusiyasına və insan hüquqları sahəsində tərəfdaş olduğu beynəlxalq müqavilələrə uyğun hazırlanmış və qəbul olunmuş qanunvericilik sənədləri – Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı; Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər); İmmiqrasiya haqqında; "Əmək Miqrasiyası haqqında" v.s. Qanunlar əsasında nizamlayır.

Araşdırmanın yekunu olaraq qeyd etmək istərdik ki, Azərbaycan tarixən miqrasiya proseslərini yaşayan ölkələrdən olmuşdur. Bu da onun yerləşdiyi coğrafi məkanın hərbi-strateji-iqtisadi əhəmiyyəti ilə bağlıdır.

XIX-XX əsrlərdən Azərbaycanda miqrasiya prosesləri daha intensiv şəkil alır ki, bu da həmin dövrdə onun tərkibinə daxil olduğu Çar Rusiyası və SSRİ-nin burada apardığı müstəmləkə, bölgəni tamamilə mənimsəmə siyasətilə bağlıdır.

Azərbaycan torpaqlarında bu siyasət iki istiqamətdə həyata keçirilmişdir: qeyri-müsəlman əhalinin daha münbit torpaqlarda məskunlaşdırılaraq, müsəlman əhalinin bölgədən sıxışdırılıb çıxarılması, eyni zamanda məcburi miqrasiyalar, yəni yerli əhalinin öz dədə-baba torpaqlarından qovulması, ərazinin inzibati islahatlar adı altında digər inzibati qurumlar arasında

paylaşdırılması.

Nəticədə, türk-müsəlman əhali yarım əsr ərzində öz dədə-baba torpaqlarının böyük bir hissəsindən məhrum edilmiş, onlara məxsus ərazilərin hüdudları süni şəkildə kiçildilmış və öz torpaqlarında "qaçqın" və "məcburi köçkün" statusları ilə yaşamağa məcbur edilmişlər.

Əslində, həlli düyünə salınmış Dağlıq Qarabağ problemi də bu məqsədli siyasətin nəticəsidir.

Beləliklə, bütün bu yuxarıda qeyd olunan məsələlərə yekun vuraraq, Azərbaycan əhali tarixinə miqrasiyanın təsirini aşağıdakı kimi ümumiləşdirmək olar:

**1.** XIX-XX əsrlərdə Azərbaycan torpaqları inzibati islahatlar adı altında imperiyanın digər inzibati vahidləri ilə birləşdirilmiş və azərbaycanlılar öz dədə-baba torpaqlarında milli azlıqlara çevrilmişlər.

**2.** XIX əsrin sonundan başlayan immiqrasiya nəticəsində əhalinin milli tərkibində dəyişiklik baş vermiş, Rusiya-İran və Rusiya-Osmanlı müharibələri nəticəsində bölgəyə başqa millətlərin (rus, erməni, polyak, alman v.s.) nümayəndələri köçürülmüş və daha münbit torpaqlarda məskunlaşdırılmışlar. Yerli əhali öz dədə-baba torpaqlarından sıxışdırılıb çıxarılmış, zorla qovulmuşlar.

**3.**XIX əsrdə bölgəyə xristian rusların, ermənilərin, polyakların və almanların köçürülməsi əhalinin dini tərkibində yenilik etməsə də faiz nisbətində say dəyişikliyi yaratmışdır.

**4.** XIX əsrin sonundan başlayaraq şəhər əhalisinin sayı artmış əsrin sonunda şəhər əhalisi immiqrantların hesabına artaraq bütün əhalinin 16%-ni təşkil etmişdir. XX əsrdə sənayeləşmə prosesi nəticəsində əhalinin məskunlaşmasında urbanizasiyanın artması güclənmişdir (bunu şəhər və kənd əhalisinin say nisbətindəki dəyişikliklər aydın göstərir).

**5.** Miqrasiya prosesi (urbanizasiya, kənd-şəhər v.s.) əhalinin cins və yaş tərkibinə də təsir etmişdir. Gənclərin və kişi cinsinin azlığı kəndlərdə məşğulluğun azalmasına, kənd təsərrüfatında yeni texnologiyaların tətbiqinə mane olur. Bununla yana-

şı, kəndlərdə doğumun azalmasına və əhalinin yaşlanmasına səbəb olur. Şəhərdə əhalinin artımı isə "şəhərin yüklənməsi", yaşayış və məişət problemlərinin artması ilə nəticələnir.

**6.** XX əsrin əvvəllərindən başlayaraq siyasi və sosial-iqtisadi vəziyyətlə əlaqədar əhalinin hərəkəti artmışdır. Birinci dünya müharibəsi, ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti, erməni-bolşevik hücumları daxili və xarici, həmçinin məcburi miqrasiyaları gücləndirilmişdir. Bir sıra tədqiqatçılar 20-ci illəri Azərbaycan əhalisinin xaricə miqrasiyasının ən geniş dövrü hesab edir. Bu dövrdən başlayaraq regiona rus millətindən olan əhalinin miqrasiyası əhəmiyyətli dərəcədə artmışdı. Xüsusilə, sənayeləşmə ilə əlaqədar Azərbaycana ixtisaslı mütəxəssislər göndərilirdi. XX əsrin 20-ci illərində sovet rejiminə etiraz əlaməti olaraq mühacirətin artması ilə yanaşı, 30-50-ci illərdə əhali Sibir və Mərkəzi Asiyaya deportasiya olunmuşdur. II Dünya müharibəsi illərində cəbhə xəttinə yaxın ərazilərin əhalisi, həmçinin sənaye strukturları və onların mütəxəssisləri (Belorus, Ukrayna v.s.) SSRİ-nin digər respublikaları ilə yanaşı Azərbaycana da köçürülmüşdür.

XX əsrin 50-ci illərindən başlayaraq, bütün dünyada olduğu kimi, Azərbaycanda da şəhərlər sürətlə inkişaf etmiş və böyümüşlər. Bu proses əhalinin yerləşməsi vəziyyətinə də təsir etmişdir. Mingəçevir və Sumqayıt şəhərlərinin salınması, Gəncə, Şuşa, Naxçıvan, Lənkəran və digər şəhərlərdə sənaye obyektlərinin tikilməsi, ali və orta ixtisas təhsili müəssisələrinin açılması, nəqliyyat sisteminin yaradılması əhalinin hərəkətinin canlanmasına səbəb olmuş əhalinin şəhərlərə miqrasiyası ilə nəticələnmişdir.

Həm Azərbaycan daxilində, həm də Azərbaycandan kənara (bu dövrdə SSRİ-nin müttəfiq respublikalarına) təhsil və əmək fəaliyyəti ilə əlaqədar başlayan müvəqqəti miqrasiya (o cümlədən, təyinatla) sonradan əhalinin daimi məskunlaşması ilə nəticələnirdi.

**7.** SSRİ-nin dağılması ilə sərhədlərin açılması, Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların qovulması – məcburi miq-

rasiyası, siyasi və sosial-iqtisadi vəziyyət XX əsrin sonunda Azərbaycanda miqrasiyanın, xüsusilə xarici miqrasiyanın canlanmasına səbəb olmuşdur. 1988-ci ildən başlayaraq Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və Azərbaycan ərazilərinin işğalı əhalinin məcburi miqrasiyasına səbəb olmuşdur.

**8.** XX əsrin sonlarında Ermənistanın Azərbaycana işğalçılıq siyasəti nəticəsində baş vermiş müharibə əhalinin demoqrafik vəziyyətinə, onun sağlamlığına,xalqın mənəvi psixoloji durumuna ciddi təsir etmişdir.

**9.** XX əsrin ortaları, xüsusilə də II Dünya müharibəsi dövründə azərbaycanlıların daha çox məskunlaşdıqları ölkələrdə təşkilatlanmaq üçün ilk cəhdlər edilmişdir. Amerika və Avropa qitəsində məskunlaşmış azərbaycanlıların əksəriyyəti bir müddət Türkiyə və Rusiyada yaşamış əhalidir. Hazırda Amerika və Avropa qitəsi ilə yanaşı, Mərkəzi Asiya, Hindistan, Banqladeş, Əfqanıstan, Pakistan, Çin, İndoneziya, İordaniya, Yəmən, Oman, Birləşmiş Ərəb Əmirliyi və digər Asiya və Afrika dövlətlərində yüz minlərlə azərbaycanlı yaşayır.

Azərbaycan hüdudlarından kənara miqrasiya edənlərin təşkilatlanması nəticəsində mövcud olduqları ölkələrdə öz dövlətlərinin maraqlarının qoruyucusu rolunda çıxış etmələrinə kömək edən diaspor təşkilatları yaranmışdır.

**10.** XX əsrin sonunda Azərbaycanla dünyanın aparıcı şirkətləri arasında imzalanmış müqavilələr, neft və qaz kəmərinin işə düşməsi, «Böyük İpək Yolu»nun bərpası və digər beynəlxalq layihələrin həyata keçirilməsi xaricdən bura əmək miqrantlarının axınına səbəb olmuşdur.

Beləliklə, XIX-XX əsrlərdə Azərbaycan ərazisində baş vermiş miqrasiya proseslərinin əsas səbəbi kimi siyasi və iqtisadi-sosial səbəbləri göstərə bilərik. Siyasi hadisələr əhalinin məcburi miqrasiyasını (mühacirət, deportasiya, qaçqın, məcburi köçkün), iqtisadi-sosial səbəblər isə əmək, təhsil, nikah və sair miqrasiyasını şərtləndirmişdir. Miqrasiya prosesləri nəticəsində əhalinin demoqrafik strukturunda bir sıra

dəyişikliklər baş vermişdir. Əmək miqrasiyası və «beyin axını» ölkənin iqtisadi-sosial həyatına mənfi təsir göstərmişdir.

**11.** XX əsrin əvvəllərindən başlayaraq azərbaycanlıların XX əsrdə 4 dəfə mərhələlərlə soyqırım və deportasiyaya məruz qalması onların əsasən qərbdən şərqə miqrasiyası ilə nəticələnmişdir. Soyqırımlar nəticəsində əhalinin qonşu regionlara – əsasən Türkiyə və İran istiqamətində də hərəkəti qeydə alınmışdır. 1920-ci ildə Azərbaycan və Ermənistan Sovet Sosialist Respublikaları qurulduqdan sonra Azərbaycana, İrana və Türkiyəyə məcburi miqrasiya etmiş əhalinin bir hissəsi öz tarixi torpaqlarına qayıtmışdır. Əsrin sonunda Ermənistandan qaçqın düşmüş vətəndaşlar, həmçinin müxtəlif xarici dövlətlərdən, xüsusilə də Əfqanıstan, İran, Rusiya (əsasən Çeçenistandan) qaçqın statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər də Azərbaycana immiqrasiya etmişdir.

Bundan əlavə, xarici miqrasiyanın əsas istiqamətlərini, həmçinin Azərbaycana olan axının istiqamətini də müəyyən etmək mümkündür. Həm emiqrantlar, həm də immiqrantlar üçün miqrasiyanın istiqaməti dəyişməmişdir: XX əsrin əvvəllərində Rusiya, Türkiyə, İran, Avropa ölkələri, sonlarında isə Rusiya, Türkiyə, Hollandiya, Almaniya, İsveç və ərəb dövlətləri olmuşdur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, 1991-1997-ci illər ərzində 272 min şəxs leqal şəkildə Azərbaycandan Rusiya, Ukrayna, Türkiyə, Almaniya, İsrail və Hollandiyaya miqrasiya etmiş və orada məskunlaşmışlar. Ümumiyyətlə, Avropa ölkələrindən Hollandiya və Belçika Azərbaycandan ən çox emmiqrant qəbul edən ölkələrdir.

**12.** Tədqiqatlar azərbaycanlıların ümumiyyətlə az hərəkətli olduqlarını göstərir. Bununla belə, Azərbaycan daxilində kənd və şəhər arasında, bir regiondan digərinə istiqamətlənən miqrasiyanın məcburi, mövsümü, əmək, təhsil, rəqqas kimi formaları mövcud olmuşdur.

Azərbaycan Respublikası miqrasiya proseslərinin tənzimlənməsi məqsədilə dövlət siyasətini müəyyənləşdirir və bir sıra proqramlar həyata keçirir. Beynəlxalq miqrasiyanın geniş-

ləndiyi bir dövrdə bu proqramlar həm əhalinin hərəkətini izləmək, həm də Azərbaycan diasporunun fəaliyyətini təşkil etmək üçün zəruridir.

**Ədəbiyyat**


1. "1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı, "Azərbaycan" qəzeti, 1997, 19 dekabr.
2. Arzumanlı V., Mustafa N.. Tarixin Qara Səhifələri. Deportasiya, Soyqırım. Bakı,"Qartal" 1988, s.280.
3. Azərbaycan diasporu: böyük yolun başlanğıcı. Bakı, Çaşıoğlu, 2006. – 208 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, "Lider" nəşriyyatı, Bakı, 2004.
5. Azərbaycan Respublikası 1991-2001.Bakı, XXI əsr - Yeni nəşrlər Evi, 2001,360 s.
6. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması. 1999-cu il. 12 hissədə. Bakı, Səda, 2000.
7. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı. s.3198-3224 // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2004, № 11 (89). – 3419 s.
8. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. 9 dekabr 1999-cu il. s.2921-2927// Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 1999, № 12. - 3008 s.
9. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər). s.1617-1627 // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2006, № 7 (109). - 1698 s.
10. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. I kitab. Bakı, "Qanun", 1997, 844 səh.
11. Azərbaycan Respublikasının Milli Dövlət Arxivi. Fond 895, siy 1, iş 9, v 65.
12. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin

nitqi. s.21-24. // Dünya azərbaycanlılarının qurultayı (9-10 noyabr 2001-ci il). Bakı, Azərnəşr, 2002, 351 c.
13. Azərbaycan Respublikasının Statistika Komitəsi. http://www.azstat.org/
14. Azərbaycan Sovet Ensiklopediyası, 10 cilddə, VII c., Bakı, 1982, 608 s.
15. Azərbaycan Tarixi. Ali məktəblər üçün mühazirələr kursu. 2 hissə (XIX–XXI əsrin əvvəli ). Bakı, 2010, - 544 s.
16. Azərbaycandakı miqrantların mövcud durumu və problemləri mövzusunda dəyirmi masa. 18 fevral 2009 http://deyerler.avantajprim.com
17. Cavadova Z.Ə. Şimal-Qərbi Azərbaycanın əhalisi və tarixi-demoqrafiyası (XIX əsrin əvvəlləri - 70-ci illəri). Bakı, Altay, 2002.
18. Deportasiya. Toplu. "Azərbaycan Ensiklopediyası" NPB, Bakı, 1998, 440 səh.
19. Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM" nəşriyyatı, 2009, 298 s.
20. Əhmədov H.O. Azərbaycan Demokratik Respublikası Hökumətinin milli ziyalı kadrlarının hazırlanması sahəsində fəaliyyəti (1918-1920-ci illərdə). Bakı, Elm və Təhsil, 2010, 113 s.
21. Fərəcov Ş.F. Ermənistan SSR-də azərbaycanlıların təhsil səviyyəsi. "XX-əsrin 20-80-ci illəri". // Tarix və onun problemləri.№3,Bakı,Adiloğlu nəşriyyatı 2007.
22. Fətullayeva M. Miqrasiyanın mahiyyəti, strukturu və xüsusiyyətləri. s. 285-290 // Dirçəliş – XXI əsr jurnalı. № 133-134/2009.
23. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində ( 1918-1920-ci illər ). Bakı, Azərnəşr, 1993-362 s.
24. Həsənova L.L. XX yüzilin ikinci yarısında Azərbaycanda əhalinin miqrasiyası (Sovet əhali siyahıyaalmaları üzrə). //Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. I buraxılış. Bakı, Bakı universiteti nəşriyyatı, 2003. - 156 s.
25. İbişov S. Quba xanlığının əhalisi. Bakı, Bakı universiteti

nəşriyyatı, 2004, 208 s.
26. İsayev V. Haradan gəlir bu köç. Bakı, Azərnəşr, 1995, -166 səh.
27. İsmayılov S.Ə. AXC Parlament sənədləri 1918-1920-ci illər vətən tarixini öyrənmək üçün mənbə kimi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2007, 267 s.
28. İsmayılova K.V.Qazax sultanlığı. s.88-102 // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM", 2009. – 298 s.
29. Qaçqınlar və məcburi köçkünlər haqqında normativ hüquqi sənədlər toplusu. Azərbaycan Respublikasının Qanunu. Bakı, "Borçalı" NPM, 2005, 544 s.
30. Qərbi Azərbaycanın əhalisi XIX-XX əsrlərdə. S. 142-177 // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM", 2009. – 298 s.
31. Quliyev N.Ə.. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı, Elm, 2006. - 162 s.
32. Quliyeva S.Z. Azərbaycanda miqrasiyanın səbəb və istiqamətləri (XIX-XX əsrlər). s.181-187. // BDU-nun xəbərləri. Humanitar seriyası, № 2, 2010.
33. Quliyeva S.Z. XIX-XX əsrlərdə Azərbaycanda baş verən miqrasiya proseslərinin nəzəri araşdırılması. s.262-274. // Народы Евразии. История, культура и проблемы взаимодействия. Материалы международной научно-практической конференции. 5-6 апреля 2012 года. Пенза-Баку-Белосток, Социосфера, 2012. – 287 с.
34. Mahmudov Y.M., Şükürov K.K.Qarabağ: Real tarix,faktlar, sənədlər. Bakı, "Təhsil", 2009, 144s.
35. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
36. Məmmədov İ., Əsədov S.. Ermənistan Azərbaycanlıları və onların acı taleyi.- Bakı, "Azərbaycan" nəşriyyatı, 1992, 72 səh.
37. Məmmədova A.Ə. Car-Balakən camaatlığı (XVII əsrin sonu-XIX əsrin 30-cu illəri). Bakı, UniPrint, 2009, 256 səh.
38. Məmmədova A.Ə. Car-Balakən camaatlığı ərazisində miqrasiya prosesləri. s. 33-39// "Tarix və onun problem-

ləri" jurnalı, 2008, №4.
39. Məmmədova A.Ə. Car-Balakən camaatlığının hərb tarixinə dair. s.20-27 // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. I buraxılış. Bakı: BDU Nəşriyyatı, 2003.
40. Molla Məhəmməd əl-Cari. Car salnaməsi / Ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər S.Süleymanovanındır. Bakı: Səda, 1997, 145 s.
41. Paşayev A.Ə. Açılmamış səhifələrin izi ilə. Bakı, "Azərbaycan"nəşriyyatı, 2001, 536 s.
42. Paşayev A.Ə.. Köçürülmə, Bakı, Azərnəşr,1995, 40 s.
43. Paşayeva U.M.. Dünyada qaçqın və məcburi köçkün anlayışlarının yaranma tarixi barədə. "Tarix və onun problemləri" jurnalı, № 3, Bakı, 2009, s. 249-253.
44. Paşayeva U.M.. XIX-XX əsrlərdə Azərbaycanda miqrasiya proseslərinin tarixi köklərinə dair. s. 217-222 // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM" 2009.
45. Paşayeva U.M.. Sovet dövründə Azərbaycanda köçkün və qaçqın problemi. ADU-nun Elmi Xəbərləri, № 1, Bakı, 2011, s. 353-358.
46. Rzayeva-Əliyeva Y.Ə.. XIX əsrin II yarısında Bakı əhalisinin tərkibində sosial dəyişikliklər barədə. s.210-215 // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM", 2009. – 298 s.
47. Seyidzadə D.. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 2004, s.13.
48. Şəki xanlığının əhalisi. s. 132-141 // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM", 2009. – 298 s.
49. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları. Bakı, Elm, 2004.-978 s.
50. Zeynalova T.Azərbaycanda milli dövlət quruculuğu tarixindən (1920-1930-cu illər). Bakı, "Elm", 2004, 176 səh.

***Xarici dillərdə***

51. Акты собранные Кавказской Археографической Комиссией в 12-ти томах. Под ред. А.П.Берже. Тип. Главного Управления Наместника Кавказского. Тифлис, 1866-1878.
52. Кавказский календарь на 1903 год. Под редакцией Кондратенко, Тифлис, 1904.
53. Абуталыбов Р.. Азербайджанская Демократическая Республика. Сборник статей, посвященный 90- летию Первой республики. Москва, 2008, - 136 с.
54. Багиров Ф.Э. К вопросу о переселенческой политике царизма в Азербайджане в начале XX в. // Материалы научно теоретической сессии АЗПИ им. В.И.Ленина, Баку, 1970.
55. Багиров Ф.Э. Переселенческая политика царизма в Азербайджане. (1830-1914). Москва 2009. -704 с.
56. Багратиони Вахушти. История царства Грузинского. / Пер., пред. Н.Т.Накашидзе. Тбилиси, 1976, 338 с.
57. Балаев А.. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку, 1990, - 95 с.
58. Валентей Д.И., Кваша А.Я.. Основы демографии. Москва, Мысль,1989, 286 с.
59. Во имя межнационального сотрудничества. Бюллетень Конгресса. Содружество. http// www.rosazcongress.ru
60. Всеукраинская перепись населения 2001 года. Государственный комитет статистики Украины. www.ukrcensus.gov.ua/rus/
61. Гай С.Гудвин-Гилл. Статус беженца в международном праве. Москва:1997, 647 с.
62. Грибоедов А.С. «Записки о переселении армян из Персии в наши области», Избранные произведения, 2-том, Москва, 1977, s.487.
63. Гусейнов Г-Б.Я.. Краткая энциклопедия города Дербента. Махачкала: Юпитер, 2005, 768 с.
64. Движение горцев Северо-Восточного Кавказа в 20-50 гг. XIX века. // Сборник документов. Москва, 1959

65. Демографический ежегодник СССР. 1990 год. Москва, Финансы и статистика, 1990.
66. Дубровин Н. История войны и владычества русских на Кавказе, т. II, кн. I. Санкт-Петербург, 1871.
67. Европейское Соглашение об отмене виз для беженцев (Страсбург, 20 апреля 1959) //Сборник международных документов, 1995, № 2.
68. Исмаилзаде Д.И. Русское крестьянство и Закавказье. Москва, 1982.
69. Итоги Всероссийской переписи населения 2002 года в 14-ти томах. Москва, ИИЦ «Статистика России», 2004-2005.
70. Итоги переписи населения 1999 в Республике Казахстан. Алматы,2000.
71. Кажлаев А.Н. Возникновение и экономическое развитие Дербента. Махачкала: Даг. кн. изд., 1972, 164 с.
72. Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, 648 с.
73. Конвенция о статусе беженцев (Женева, 28 июля 1951 г.) // Сборник международных документов, 1995, № 2, с.22-29
74. Краткий политический словарь. Москва: Политиздат, 1989, 623 с.
75. Международные акты о правах человека. Москва: 1998, 405 с.
76. Морозов И.Л. религиозные компоненты в политике. // Молодые учёные и студенты Волжского. Публикации. 2002. http://poisk.vlz.ru
77. Население Закавказья. Всесоюзная перепись 1926 г. Тбилиси,1928.238с.
78. Население СССР за 70 лет. Отв. ред. Рываковский Л.Л. АН СССР. Институт социалогии. Москва, Наука, 1982, 212 с.
79. Национальный состав населения РСФСР. По данным Всесоюзной переписи населения 1989 г. Москва, Респ.инфор.-издат.центр. 1990 г.

80. Национальный состав населения РСФСР. По данным Всесоюзной переписи населения 1989 г. с.4. Москва, Республиканский информационно-издательский центр. 1990.
81. Новрузова Г.Т. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989–2002 гг.). Автореферат диссертации на соискание ученой степени доктора философии по историческим наукам. Баку, 2010.
82. Новрузова Г.Т. Азербайджанцы Украины:проблемы исторической демографии. // X Международная научно-практическая конференция "Пути и проблемы развития человеческого общества». Украина, г. Одесса, 28.09-04.10.2011.
83. Новрузова Г.Т. Правовое регулирование образования национальных меньшинств, общин и миграции в Российской Федерации // Bakı Universitetinin Xəbərləri Humanitar elmlər seriyası. № 4. Bakı: 2005.
84. Новрузова Г.Т.Формирование азербайджанской диаспоры в республике Казахстан. // Азербайджан и Азербайджанцы. Vol.103-104. № 1-2, Bakı, 2009.
85. Обзор Дагестанской области за 1899 год. Приложение ко всеподданнейшему отчету военного губернатора. Темир-Хан-Шура, 1900
86. Обзоры о состоянии Дагестанской области за 1892 год (Приложения к всеподдан-нейшим отчетам по гражданскому и военно-народному управлениям). Темир-Хан-Шура, 1893.
87. Обзоры о состоянии Дагестанской области за 1896 год. Темир-Хан-Шура, 1897.
88. Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. СПб., 1836, ч. 1-4.
89. Общероссийская общественная организация Всероссийский Азербайджанский Конгресс. http//www.rosazcongress.ru.
90. Памятная книжка и Адрес – Календарь Дагестанской

области на 1901 года. Темир-Хан-Шура, 1901.
91. Пашаева У.М. Депортация азербайджанцев в период сталинских репрессий как результат политики армян по захвату земель Азербайджана. Республика Дагестан, г.Кизляр, 2-ая Международная научно-практическая конференция , 2010,с.128-134,с. 128-134
92. Первая всеобщая перепись населения Российской империи 1897 г. Дагестанская область. СПб, 1905, Т.62.
93. Потапов В.И.Беженцы и международное право. Москва: 1986,с.10
94. Речь Президента России Владимира Путина. Главная. Диаспора. Азербайджан. В Москве состоялся П съезд ВАК. http//www.vakmos.org.
95. Рукописной фонд ИИЯЛ им. Г.Цадасы АН Дагестанской Республики: Ф.1, оп.1, д. 2659
96. Свод статических данных извлеченных из посемейных списков населения Закавказья. Дагестанская область. Тифлис, 1890.
97. Снисаренко В.. Этническое предпринимательство в большом городе современной России (на материалах исследования азербайджанской общины Санкт-Петербурга) http//www.rambler.ru Азербайджанская община России.
98. Соглашение о помощи беженцам и вынужденным переселенцам. 24 сентября 1993 г., Москва
99. Соглашение о сотрудничестве. Бюллетень Конгресса. Новости. http//www. rosazcongress.ru.
100. Устав Управления Верховного Комиссара ООН по делам беженцев (14 декабря 1950 г.) // Сборник международных документов, 1991, № 4, с.34-38
101. Учредители ФНКА АЗЕРРОС. Федеральная Национально-культурная автономия Азербайджанцев России. www.azerros.ru.
102. Федеральный закон «Основы законодательства Российской Федерации о культуре» от 9 октября 1992 г.;

№74–ФЗ; Почетный работник образования. Диаспора. www.azeri.ru.
103. Федеральный закон Российской Федерации «О Национально-культурной автономии» от 17 июня 1996 года.
104. Фомичёва О.В. Структурирование миграционного пространства в эпоху глобализации: роль развитых государств. //Международные отношения. Политология. Регионоведение. Вестник Нижегородского университета им. Н.И. Лобачевского, 2007, № 5, с. 167–174.
105. Государственный Исторический Архив Грузии (ГИАГ), ф.240,оп.1,д.499
106. ГИАГ, ф.16, оп.1 д.4415
107. ГИАГ, ф..2, оп.1 д.2676
108. ГИАГ, ф.2, оп.1 д.60
109. ГИАГ, ф.236, оп.2 д.13
110. ГИАГ, ф.236, оп.2 д.22
111. ГИАГ, ф.236, оп.2 д.27
112. ГИАГ, ф.236, оп.2 д.37
113. ГИАГ, ф. 236, оп.2 д.38
114. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи,СПБ, 1852, с.560.
115. La reconnaissance de la qualite de refurgie et l ostor de l asile // Collection de droit international. Bruxelles, 1990, pp. 9-10.
116. The global approach to migration one year on: A comprehensive European Migration Policy // http://europa.eu/, 30/11/2006.
117. Vernant J. Les refugies dans l après-guerre. Monako, 1953, 164 p.
118. World Population Policies 2005. United Nations Department of Economic and Social Affairs/Population Division, www.unpopulation.org, P. 26–31.
119. World Population Prospects: the revision 2006. United Nations Department of Economic and Social Affairs / Population Division, www.unpopulation.org, P. 25.

# II BÖLMƏ

## AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ

**Dos. Mehman Abdullayev**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi**

### Azərbaycan xanlıqlarında ali zümrənin say tərkibi (Quba, Bakı, İrəvan və Naxçıvana aid materiallar əsasında)

Xanlıqlarda cəmiyyətin yuxarı pilləsində dayanan ali zümrənin say tərkibinin statistik mənbələr əsasında öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Bir neçə xanlığın timsalında apardığımız təhlillər ruhanilərin də yuxarı təbəqəsinin daxil olduğu ali zümrənin əhalinin ümumi say tərkibində xüsusi çəkisinin müəyyən edilməsinə imkan vermişdir. Bu baxımdan Quba, Bakı, İrəvan, Naxçıvan və digər xanlıqlar üzrə tərtib etdiyimiz cədvəllərdəki statistik məlumatlar əsasında əldə edilən nəticələr araşdırılan məsələ ilə bağlı ümumi bir fikri formalaşdırmaq üçün yetərli sayıla bilər (Bax, əlavələrə). Bununla bağlı bir neçə cədvəli nəzərdən keçirək.

1 saylı cədvəlin təhlilindən aydın olur ki, 1810-cu ildə Quba xanlığı ləğv olunarkən buradakı bütün həyətlərin sayı 5.363-ə çatırdı. Ali zümrəni təşkil edən bəy həyətlərinin sayı 77 idi. Bu, bütün əhalinin 1,4 %-i demək idi. İri ruhanilər olan axundları da (63 nəfər və ya 1,17 %) əlavə etsək, ali zümrənin xüsusi çəkisi xanlıq üzrə 2,6 %-ə bərabər idi. Xanlıqda axundlarla yanaşı, seyidlər, mollalar və xristian din xadimlərinin (cəmi 2 ailə) daxil olduğu ruhani zümrəsinin ümumi sayı 250

həyətdən ibarət olmaqla, xüsusi çəkisi 4,7% təşkil edirdi. 1810-cu ildə Bakı şəhəri də daxil olmaqla, Bakı xanlığında 6007 həyət qeydə alınmışdı. Bütün həyətlərin 140-ı və yaxud 2,3 %-i bəy zümrəsinə məxsus idi. Bakı şəhəri ilə birlikdə 34 kənddə 275 nəfər seyid və 346 nəfər molla (cəmi 612 nəfər) yaşayırdı. Xanlıq üzrə ruhani zümrəsinin xüsusi çəkisi 1,3 %-ə bərabər idi. Sənədlərdə Bakı xanlığında xristian din xadimi qeydə alınmamışdır (1; 2; 3; 4).

İrəvan və Naxçıvan xanlıqlarında əhalinin sosial-silki quruluşunun araşdırılması müəyyən spesifik yanaşma tələb edir. Çünki 1827-ci ildə bu iki xanlıq rus işğalına məruz qalmış və 1828-ci ildə çar hökuməti tərəfindən “Erməni vilayəti"nə çevrilmişdi. Bu vilayət İrəvan və Naxçıvan əyalətlərindən və Ordubad dairəsindən ibarət idi. Statistik sənədlərə görə "Erməni vilayəti"ndə 752 abad kənd qeydə alınmışdır. 359 Azərbaycan kəndinin əhalisi işğal zamanı ruslar tərəfindən kütləvi qırğınlara məruz qalmış və nəticədə Azərbaycan türkləri öz doğma ocaqlarından qovulub çıxardılmışdır. Boş qalmış 359 kəndlə (310-u İrəvan əyalətində) birlikdə, vilayətdə 1111 kənd qeydə alınmışdır (5).

Həm XIX əsrin əvvəllərində, həm də 20-ci illərin sonlarında Qacar dövlətindən və Osmanlı imperiyasından kütləvi şəkildə köçürülüb gətirilən 130 min nəfərə yaxın erməninin böyük hissəsinin məhz bu bölgədə yerləşdirilməsi demoqrafik vəziyyətdə ciddi dəyişikliklərə gətirib çıxarmışdı. Daha çox dəyişikliklər İrəvan və Naxçıvanın kənd əhalisinin tərkibində baş vermişdi.

Bölgəni hərtərəfli şəkildə təhlil etmiş İ.Şopenin statistik məlumatları əsasında tərtib etdiyimiz cədvəli nəzərdən keçirək.

3 saylı cədvəlin təhlili göstərir ki, İrəvan, Naxçıvan və Ordubad bölgələrində ümumilikdə 16.078 türk-müsəlman ailəsi (43.294 kişi, 38.455 qadın, cəmi 81.749 nəfər) yaşayırdı. İ.Şopen əvvəlcə bu bölgənin yerli, köklü əhalisi olmadıqlarını dəqiq bildiyi üçün ermənilər haqqında danışarkən düzgün olaraq "əvvəldən yaşayanlar" (yəni Türkmənçay müqaviləsindən əvvəll)-M.A.) ifadəsini işlətdiyi halda, tərtib etdiyi bəzi

cədvəllərdə nədənsə fikrini dəyişərək ermənilər bölgənin "yerli" əhalisi kimi təqdim etməyə çalışmışdır. 1832-ci il kameral siyahıyaalmasında "yerli", yəni "əvvəldən yaşayan" erməni ailələrinin sayı 4.428-ə (13.058 nəfər kişi, 12.093 qadın, cəmi 25.151 nəfərə) çatırdı. Cədvəldən aydın görünür ki, kütləvi köçürmələrdən qabaq həmin üç bölgənin əhalisinin böyük əksəriyyətini -78,4%-ni Azərbaycan türkləri təşkil edirdi. Lakin dörd il ərzində Rusiyanın həyata keçirdiyi köçürmə siyasəti bölgənin demoqrafik mənzərəsini kəskin şəkildə dəyişdirmişdi. Cədvəldən göründüyü kimi, çox qısa müddət keçəndən sonra 1832-ci ildə "Erməni vilayəti" adlandırılan bölgədə yaşayan ailələrin sayı 31.201-ə və yaxud 164.450 nəfərə (86.786 kişi, 77.664 qadın) çatmış və bölgədə bir növ "demoqrafik partlayış" baş vermişdir. Nəticədə əhalinin tərkibində Azərbaycan türklərinin say nisbəti kəskin şəkildə azalaraq 51,53%-ə düşmüş, erməni əhalisinin say nisbəti isə 21,6%-dən 48,47%-ə çataraq 2,2 dəfədən çox artmışdır. 1828-1832-ci illər arasında keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə tarixi ədəbiyyatda "İran" adlandırılan Qacar dövlətindən 6.949 erməni ailəsi və yaxud 35.560 nəfər erməni (18.837 kişi, 16.723 qadın), Osmanlı imperiyasından isə 3.682 erməni ailəsi və yaxud 21.666 nəfər erməni (11.417 kişi, 10.249 qadın) köçürülərək məskunlaşdırılmışdı. Beləliklə, Qacar dövlətindən və Osmanlı imperiyasından köçürülən ailələrin ümumi ailələrin tərkibində say nisbəti 34 %-i keçərək çox sanballı bir rəqəmə çevrilmişdi (5, s.543-642).

1828-ci ildə İrəvan xanlığı ləğv ediləndə, burada yaşayan 12.694 ailənin 9.196-sını və yaxud 49.875 nəfərini Azərbaycan türkləri, 3.498 ailə və ya 20.073 nəfərini isə burada "əvvəllərdən yaşayan" ermənilər təşkil edirdi (5, s.543-642). Beləliklə, İrəvan bölgəsinin əhalisinin 72,5%-dən çoxunu buranın əsil sahibi olan Azərbaycan türkləri təşkil edirdi. Müəlliflər kollektivi tərəfindən 2010-cu ildə çapdan çıxmış "İrəvan xanlığı" adlı sanballı kitabda İ.Şopenin statistik məlumatları əsasında xanlıq işğal olunarkən Azərbaycan türklərinin tərk etdiyi 310 kənddə təqribən 38.750 nə-

güsü saxlanılır. 1999-cu il siyahıyaalmasına görə Şəki rayonuna 82 yaşayış məskəni daxil idi ki, onların arasında əhalisinin sayı 6-7 min nəfər olan Baş Göynük, Aşağı Göynük, Kiçik Dəhnə kimi böyük kəndləri xüsusi qeyd etmək lazımdır. Həmin siyahıyaalma zamanı Şəki rayonu üzrə qeydə alınan 82 yaşayış məskənində 157.353 nəfər yaşayırdı, onlardan da 61.415 nəfəri Şəki şəhər, 94.241 nəfəri isə kənd əhalisi idi.

Beləliklə, Şəki rayonu respublikanın əsas iqtisadi rayonlarından biri olmaqla yanaşı, həm də son dövrlərədək şimal-qərb rayonları arasında əlaqələndirici mərkəz rolunu oynayırdı. Lakin, son dövrlərdə həmin bölgənin spesifik xüsusiyyətləri nəzərə alınmadan Şəkinin bölgənin mərkəzi kimi tarixən oynadığı rolu azaldılmışdır.

**Ədəbiyyat siyahısı:**

1.Административно-территориальное деление Союза ССР. Районы и города СССР. Издательство «Власть советов» при президиуме ВЦИК. Москва-1931 г. 320 стр.

2. ASŞÇ inzibati bölünüşü. Məskun yerlər ( rayonlar ). Kənd Şüraları Siyahısı. Burada 1933-il 1.01-nə olan əhalinin miqdarı, milli tərkib və təsərrüfatın sayı göstərilmişdir. Az.XTUİ nəşriyyatı. Bakı: 1933-cü il 292, əlavələr

3. СССР Административно-территориальное деление союзных республик на 1 октября 1938 года. Издательство «Власть Советов», Москва: 1938, 330 стр.,

4. Всесоюзная перепись населения 1939 г. http://demoscope.ru/weekly/2013/0571/arxiv01.php

5. СССР. Административно-территориальное деление союзных республик на 1 января 1947 года. Издание пятое допол. Издательство «Известия советов депутатов трудящихся СССР». Москва,1947 г., 488стр.

6.Численность населения СССР по переписи на 15 января 1959 года по республикам, краям, областям, национальным округам, районам, городам, поселкам городского типа, районным центрам и крупным сельским населенным

местам (о административно-территориальному делению на 1 января 1960 года). Москва, 1960.523 с.
7. Азербайджанская ССР Административно-территориальное деление на 1 января 1961 года, типография «Красный Восток» Мин культуры Азерб.ССР, 280 стр.
8. Центральное статистическое управление при Совета Министров Азербайджанской ССР. Численность, состав, естественное и механическое движение населения Азербайджанской ССР. Статистический сборник. Баку, 1967 г. 375 стр.,стр.20-22
9. Азербайджанская ССР Административно-территориальное деление на 1 января 1977 года, издание четвертое. Азербайджанское Государственное Издательство, Баку, 1979 г. 220 стр, с.5-7
10. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, “Səda” nəşriyyatı, 2000, I hissə, 566 səh., s.25, 33
11. Территориальное и административное деление Союза СССР на 1-е января 1926 года, Москва, 1926 г.
12. Статистическое Управление Азербайджанской ССР, 1930 г. ст.1188-1191.
13. СССР. Административно-территориальное деление союзных республик на 1 января 1941 года. Издание третье допол. Издательство «Ведомостей Верховного Совета СССР». Москва,1941 г.490 стр.
14. Постановление ЦК ВКП (б) о ликвидации округов. 15 июля 1930 г. “Правда” от 16 июля 1930.
15. Постановление Президиума ЦИК СССР от 9 августа 1930 года «Об организации работы городских Советов в связи с ликвидации округов» //
http://lawru.info/dok/1930/08/09/n1199020.htm;
http://base.consultant.ru/cons/cgi/online.cgi?req=doc;base=ESU;n=27348

**t.f.d.Səidə Quliyeva**
**Bakı Dövlət Universiteti,**
**Tarix fakültəsi, böyük elmi işçi**

## Vartaşen (Oğuz) rayonu əhalisinin say dinamikası və yerləşməsi (1930-2010)

*Məqalə Oğuz (Vartaşen) rayonunun yaradılmasının 85 illiyinə həsr edilir.*

**Giriş.** Azərbaycan Respublikasının həyata keçirdiyi əsas dövlət proqramlarından biri regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramıdır. Proqram iki mərhələdə – 2003-2008, 2009-2013-cü illərdə icra edilib. Hazırda proqramın 2014-2018-ci illəri əhatə edən üçüncü mərhələsi başlayıb [6]. Proqramın icrasına aid olan tədbirlər planında sosial-iqtisadi inkişaf və məşğulluqla əlaqədar vəzifələrlə yanaşı bu sahədə elmi-tədqiqatların aparılması da əks olunur. Bu səbəbdən proqramın icrasına elmi cəhətdən yanaşaraq, regionların demoqrafik inkişaf xüsusiyyətlərini araşdırmaq vacibdir.

Ərazinin inzibati-idarəetmə sistemi, əhalinin yerləşməsi, say dinamikasının dəyişməsi, milli tərkibi, təhsil vəziyyəti və məşğuliyyətinin tarixi ənənələrinə nəzər salmaq zəruridir [6; 7]. Cəmiyyətdə baş verən sosial proseslərin tədqiqi üçün həmin ərazidə yaşayan əhalinin say dinamikasının və strukturunun izlənməsi mütləqdir. Bu məqsədlə, tədqiqatda Şəki-Zaqatala iqtisadi zonasına daxil olan Oğuz (Vartaşen)* rayonu əhalisinin say dinamikasını araşdırmaq nəzərdə tutulur.

* Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 7 fevral tarixli qərarı ilə Vartaşen rayonunun adı dəyişdirilərək Oğuz adlandırılmışdır.

Tədqiqat dövrünü iki mərhələyə - sovet dövrü** və müstəqillik dövrünə ayırıb Vartaşen (Oğuz) rayonu əhalisinin say dinamikasının neçə dəyişdiyini müqayisəli izləmək mümkündür.

Sovet dövrü materiallarına SSRİ-də keçirilmiş Ümumittifaq əhali siyahıyaalma materialları (1921, 1926, 1939, 1959, 1970, 1979, 1989), SSRİ və Azərbaycan SSR-in inzibati ərazi bölgüsünü göstərən toplular aiddir [1; 3; 4; 11; 12; 13; 14; 15; 16; 19]. Yaşayış məntəqələri haqqında məlumatlar 1921-ci il Azərbaycan kənd təsərrüfatı siyahıyaalma və 1933-cü ilin inzibati bölgüyə dair materiallarında daha ətraflı verilmişdir. 1959-cu il əhali siyahıyaalma materiallarında isə kəndlər üzrə əhalinin sayı göstərilmişdir.

Sovet dövrünə aid statistik materiallarda Azərbaycan SSR, o cümlədən Vartaşen (Oğuz) rayonunun əhali problemlərinin öyrənilməsi üçün məlumatlar kifayət qədərdir. Bu məlumatlarda əhalinin şəhər və kənd üzrə yerləşməsi, həmçinin cinslər üzrə bölgüsü verilir.

Bu materiallarla yanaşı, 1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra keçirilən əhali siyahıyaalma materialları da (1999 və 2009) tədqiqata cəlb edilmişdir. Həmin materiallar əhalinin yerləşməsi və say dinamikasındakı dəyişiklikləri sovet dövrü materialları ilə müqayisəli araşdırmaq imkanı verir [2; 5].

**1. İnzibati bölgü.** 1922-ci ildə SSRİ yaradıldıqdan sonra idarəetməni təkmilləşdirmək məqsədilə ölkədə inzibati-ərazi islahatları başlanır. Buna uyğun olaraq, 1921-ci ildə Azərbaycan SSR-də quberniyalar ləğv edilir, respublika ərazisi qəzalara bölünür. 1929-cu ildə aprelin 1-dən 9-dək keçirilən VI Ümumazərbaycan Sovetlər qurultayı respublikanın dairə, rayon və kənd şuraları üzrə inzibati-ərazi bölgüsünün həyata keçirilməsini qərara alır. 1930-cu il iyulun 15-də SSRİ Kommunist (b) Partiyası Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları sovetinin Dairələrin ləğv edilməsi barədə qərarına əsasən avqustun 8-də

---

** Sovet dövrü dedikdə, Azərbaycan SSR-i dövrünü - 1920-1991-ci illəri nəzərdə tuturuq.

həmin qərar Azərbaycan SSR ərazisinə də şamil edilir. Respublika inzibati cəhətdən rayonlara bölünür və qərarla Vartaşen (Oğuz) rayonu inzibati ərazi vahidi yaradılır [8; 10; 17; 18].

Vartaşen rayonunun ərazisinə Nuxa qəzasının tərkibindəki Vartaşen yaşayış sahəsinin doqquz kənd soveti, Cəfərabad yaşayış sahəsinin dörd kəndi və Ərəş qəzasının Böyük Söyüdlü kənd soveti daxil edilir [rayonun inzibati ərazi dəyişiklikləri barədə daha geniş məlumat üçün bax: 10].

**Oğuz rayonunun xəritəsi (2009)**



1961-ci ilə qədər Vartaşen rayonunun mərkəzi Vartaşen kəndi olmuşdur. Kəndə 1961-ci il sentyabrın 4-də rayon tipli qəsəbə, 1968-ci il martın 15-də isə şəhər statusu verilir. Sonrakı illərdə rayonun ərazisində ciddi inzibati-ərazi dəyişiklikləri olmamışdır.

Hazırda rayonda 1 şəhər - Oğuz şəhəri, 33 kənd - Bayan, Calut, Bucaq, Muxas, Baş Daşağıl, Qumlaq, Hallavar, Şirvanlı, Tayıflı, Xalxal, Xalxalqışlaq, Ərmənət, Kərimli[**], Qarabaldır, Padar, Dəymədərə, Yemişanlı, Yaqublu, Yenikənd, Top, Zərrab, Böyük Söyüdlü, Qarabulaq, Astraxanovka, Vladimirovka, Sincan, Tərkeş, Dəymədağlı, Mollalı, Xaçmaz, Xaçmazqışlaq, Abdallı və Filfili, 2 yaşayış sahəsi – Malıx və Daşüz, var [5].

**2. Əhalinin say dinamikası və yerləşməsi.** Tədqiqata cəlb etdiyimiz materiallar onu göstərir ki, XX əsrdə Vartaşen (Oğuz) rayonu əhalisinin təqribən 80%-dən çoxu kəndlərdə məskunlaşmışdır. Bu, əsasən, rayonun təbii-coğrafi şəraiti və əhalinin məşğulluğunu şərtləndirən amillərlə əlaqədar olmuşdur. Ona görə də, XX əsr boyu kənd əhalisinin sayı şəhər əhalisinin sayından üstün olmuşdur.

1969-cu ildə Vartaşenə şəhər statusu verildikdən sonra da kəndlərdən şəhərə güclü axın olmayıb. Məlumdur ki, şəhərlərdə əhali artımına təbii artımla yanaşı miqrasiya prosesləri də ciddi təsir göstərir. Şəhər əhalisinin sayının dəyişməsini müqayisə etsək görərik ki, 1966-cı ildən sonra şəhər əhalisinin sayında azalma baş vermiş, 1970-1985-ci illərdə artım qeydə alınmışdır [2; 9; 12; 15; 16; 19]. 1 saylı cədvəldən göründüyü kimi, 1985-ci ildə Vartaşen (Oğuz) şəhərində miqrasiya saldosu 64 nəfər olmuşdur. 1980-1989-cu illərdə ən aşağı miqrasiya saldosu – 258 (1989-cu il) nəfər olmuşdur [19, s.111-128]. Göründüyü kimi, XX əsrin sonlarında respublikada baş verən proseslər Vartaşen (Oğuz) rayonuna da təsir etmiş və əsasən miqrasiyalar hesabına şəhər əhalisinin sayı azalmışdır. 1989-

[**] 1991-ci ilin fevralında Azərbaycan SSR Ali Sovetinin qərarına əsasən, Vardanlı kəndinin adı dəyişdirilərək Kərimli adlandırılmışdır.

1993-cü illərdə rayon əhalisinin artımı əsasən şəhər əhalisinin artımı hesabına baş vermişdir. Bu illərdə kənddən şəhərə axın müşahidə edilir. 1993-1996-cı illərdə isə əksinə – şəhər əhalisinin sayında artım qeydə alınmır, rayon əhalisinin sayı məhz kənd əhalisinin sayında olan artımla əlaqədar olmuşdur. 1997-ci ildən başlayaraq isə şəhər əhalisinin sayında artım müşahidə olunur. Bu dəyişikliklər onu göstərir ki, SSRİ dövründə Azərbaycanda sənayeləşmənin inkişafına baxmayaraq, 1959-1989-cu illərdə əhalinin 75-83%-i, 1990-cı ildən isə 81-82%-ni kənd əhalisi təşkil edirdi [2; 3; 4; 5; 9; 11; 13; 15; 16; 19].

**Vartaşen (Oğuz) şəhəri üzrə miqrasiya hərəkəti**




Müqayisəli şəkildə rayon üzrə əhalinin artım faizinə nəzər salaq. 1966-cı illə müqayisədə 1970-ci ildə əhali artımı 5,7%, 1970-ci illə müqayisədə 1979-cu ildə 7%, 1979-cu illə müqayisədə 1989-cu ildə 4%, 1989-cu illə müqayisədə 1999-cu ildə 14%, 1999-2009-cu illərdə isə 9,2% olmuşdur [16, s.111-128].

1921-1999-cu illərdə Oğuz (Vartaşen) rayonu əhalisinin sayı təqribən 20 min nəfər artmışdır. Azalma 1939 və 1959-cu illər arasındakı dövrdə müşahidə olunur. Güman edirik ki, bu proses əsasən repressiyalar və II dünya müharibəsi, həmçinin müharibədən sonrakı dövrdə təhsil və əmək miqrasiyası ilə

əlaqədar olmuşdur. XX əsrin 60-80-ci illərində sabitlik, mədəni-məişət şəraitinin yaxşılaşması, səhiyyə və sosial həyatdakı müsbət dəyişikliklər əhalinin sayının artımına səbəb olmuşdu. Əhalinin sayı 1959-cu ildə 19.7 min nəfərdən 1980-ci ildə 30 min nəfərə çatmışdır [4; 16, s. 3-20; 13].

**Cədvəl 1**

**Oğuz (Vartaşen) rayonunun əhalisinin say dinamikası və yerləşməsi (1930-2009, min nəfərlə)**

| İllər | Cəmi əhali | şəhər əhalisi | | kənd əhalisi | |
|---|---|---|---|---|---|
| | | min nəfər | faizlə | min nəfər | faizlə |
| 1933 | 20.2 | - | - | 20.2 | 100 |
| 1939 | 21.6 | - | - | 21.6 | 100 |
| 1959 | 19.7 | - | - | 19.7 | 100 |
| 1966 | 26.1 | 6.3 | 24,1 | 19.8 | 75,9 |
| 1970 | 27.7 | 4.8 | 17,3 | 22.9 | 82,7 |
| 1979 | 29.8 | 5.7 | 19,1 | 24.1 | 80,9 |
| 1985 | 30.2 | 6.1 | 20,1 | 24.4 | 79,9 |
| 1989 | 31.1 | 5.1 | 16,4 | 26.0 | 83,6 |
| 1990 | 31.7 | 5.7 | 17,9 | 26.0 | 82,01 |
| 1991 | 31.3 | 5.8 | 18,5 | 25.5 | 81,5 |
| 1992 | 32.6 | 6.1 | 18,7 | 26.5 | 81,3 |
| 1993 | 33.4 | 6.3 | 18,8 | 27.1 | 81,2 |
| 1994 | 34.4 | 6.3 | 18,3 | 28.1 | 81,7 |
| 1995 | 34.9 | 6.3 | 18 | 28.6 | 82 |
| 1996 | 35.1 | 6.3 | 17,9 | 28.8 | 82,1 |
| 1997 | 35.2 | 6.5 | 18,46 | 28.7 | 81,54 |
| 1998 | 35.8 | 6.8 | 18,4 | 29.0 | 81,6 |
| 1999 | 36.5 | 6.4 | 17,5 | 30.1 | 82,5 |
| 2009 | 40.2 | 6.8 | 17,1 | 33.4 | 82,9 |

**Qaynaq:** ASŞÇ inzibati bölünüşü, s.89; Всесоюзная перепись населения 1959 г. Численность наличного населения городов и других поселений, районов, районных центров и крупных сельских населенных мест на 15 января 1959 года по регионам союзных республик (кроме РСФСР) // http://demoscope.ru/weekly/ssp/ussr59_reg1.php; Численность, состав, естественное и механическое движение населения Азербайджанской ССР. Статистический сборник. Центральное статистическое управление при Совета Министров Азербайджанской ССР. Баку, 1967 г. S.38-44; Всесоюзная

перепись населения 1970 года. Таблица 1 с. РГАЭ. Ф 1562. Оп. 336. Д. 3831-3838; Всесоюзная перепись населения 1979. Таблица 1с. РГАЭ. Ф 1562. Оп. 336. Д. 5943-5951; Всесоюзная перепись населения 1989 г.; Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. I hissə. s.136.

Əhalinin sayının dəyişməsinə bir başa təsir edən amillər doğum, ölüm və miqrasiyadır. 1967-ci il statistik materiallarına əsasən, 1965-ci ildə Vartaşen (Oğuz) rayonunda 1.291 doğum, 172 ölüm qeydə alınmışdır. Əhalinin hərəkəti barədə verilən məlumatda isə mexaniki artımın 9 nəfər qeydə alınmışdır [9; 19, 341-342].

XX əsrin sonunda sosial-iqtisadi böhran, müharibə, yaşayış səviyyəsinin aşağı düşməsi, sosial xidmətlərin məhdudluğu, iş yerlərinin azalması, qaçqın və məcburi köçkünlər, ekologiya problemləri və digər proseslər demoqrafik vəziyyətin kəskinləşməsinə birbaşa təsir etmişdir [7]. 1989-1991-ci illərdə əhalinin sayında artım qeydə alınmır. Müstəqillik dövründən - 1992-ci ildən başlayaraq isə əhalinin sayında yenidən artım qeydə alınır.

1980-1990-cı illərin məlumatlarına görə rayonda doğum səviyyəsi respublika tempinə uyğun dəyişmişdir, lakin respublika göstəricilərindən yüksək olmuşdur. Məsələn, 1980-ci ildə respublika üzrə hər 1000 nəfərə 25,2 nəfər, rayon üzrə 29,6 nəfər doğum qeydə alınmışdısa, 1990-cı ildə fərq daha çox olmuşdur: respublika üzrə hər 1000 nəfərə 26,4, rayon üzrə 37 nəfər. Ölüm göstərici isə əksinə - respublika göstəricisindən aşağı olmuşdur [19, 341-342].

Tədqiqata cəlb edilən materiallar əsasında əhalinin əsasən hansı yaşayış məskənlərində məskunlaşdığını aydınlaşdıra bilərik. XX əsr – XXI əsrin əvvəllərində rayonun əsas yaşayış məntəqələri Vartaşen, Xaçmaz, Vardanlı, Baş Daşağıl, Böyük Söyüdlü və Padar olmuşdur:

1959-cu ildə Vartaşen (Oğuz) rayonunun 35 yaşayış məskənindən 5-nin əhalisi 1000 nəfərdən çox, 2 yaşayış məntəqəsində 51-100 nəfər olmuşdur (Hallavar – 54 nəfər; Abdallı – 15 nəfər; Zərrab 84 nəfər) [4].

**Cədvəl 2**

**Vartaşen (Oğuz) rayonun əhalisinin sayı 1000 nəfərdən çox olan yaşayış məskənləri və onlarda yaşayan əhalinin sayı (seçmə)**

| | 1933 | 1959 | 1999 | 2010 |
|---|---|---|---|---|
| **Rayon üzrə cəmi əhali** | 20.268 | 19.656 | 36.488 | 40.284 |
| **Vartaşen/Oğuz** | 2.481 | 3.508 | 6.410 | 6.891 |
| **Xaçmaz** | 3.707 | 2.901 | 5.614 | 6.284 |
| **Vardanlı/Kərimli** | 1.204 | 1.226 | 2.818 | 3.187 |
| **Baş Daşağıl** | 1.300 | 898 | 1.053 | 1.211 |
| **Böyük Söyüdlü** | 557 | 1.011 | 1.069 | 1.228 |
| **Padar** | 956 | 1.197 | 1.318 | 2.305 |

**Qaynaq:** ASŞÇ inzibati bölünüşü, s.89; Всесоюзная перепись населения 1959 г.; Всесоюзная перепись населения 1979. Таблица 1с. РГАЭ. Ф 1562. Оп. 336. Д. 5943-5951; Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. I hissə. s.136; Azərbaycan Respublikası Əhalinin siyahıyaalınması. 2009-cu il, I cild. nəşriyyatı, 2010. I cild, s.175-176.

1979-cu ildə 35 yaşayış məskənindən 6-nın əhalisi 1000 nəfərdən çox olmuşdur. 3 yaşayış məskənində isə əhalinin sayı 17-83 nəfər arasında dəyişirdi. Bu dövrdə Balakən və Qutqaşen (Qəbələ) rayonlarında əhalisinin sayı 1000 nəfədən çox olan 16, Şəkidə 22, Zaqatalada 20, Qaxda 11 yaşayış məskəni var idi [15].

1999-cu ildə 35 yaşayış məntəqəsindən 11-də əhalinin sayı 1000 nəfərdən çox, 3 kəndin isə əhalisi 100-200 nəfər arasında dəyişirdi (əhalisi 100 nəfərdən az olan kənd yox idi). Əhalisi ən az olan kəndlər Hallavar (135 nəfər), Vladimirovka (142 nəfər) və Abdallı (152 nəfər) olmuşdur [2].

2009-cu ildə 33 yaşayış məntəqəsindən 10-da əhalinin sayı 1000 nəfərdən çox olmuşdur. Əhalisinin sayı 200 nəfərdən az olan üç kənd var idi: Hallavar (87 nəfər), Vladimirovka (111 nəfər) və Abdallı (156 nəfər) [5].

Göründüyü kimi Abdallı və Hallavar kəndlərində əhalinin sayı həmişə az olmuşdur.

Bu göstəricilərə əsasən deyə bilərik ki, əhali əsasən təbii-coğrafi şəraitə münasib, nəqliyyat yollarına yaxın, məşğuliy-

yətləri üçün imkanlar olan, əmək təhsil və səhiyyə müəssisləri yerləşən yaşayış məntəqələrində məskunlaşmışlar.

Əlavə edək ki, rayon ərazisi respublika üzrə ən az məskunlaşan ərazilərdəndir. 1959-cu ildə Oğuz (Vartaşen) rayonunda əhalinin ümumi sıxlığı hər kv.km-ə təqribən 18 nəfər, 1970-ci ildə 26 nəfər, 1979-cu ildə 28 nəfər, 1999-cu ildə 30 nəfər, 2009-cu ildə 33 nəfər olmuşdur [2; 4; 5; 14; 15].

**Yekun.** Mövzunun yekunu olaraq deyə bilərik ki, bütün bu dövrdə əhalinin məskunlaşmasında ciddi dəyişiklik baş verməmişdir: rayon əhalisinin təqribən 80%-dən çoxu kəndlərdə məskunlaşmışdır.

Əhalinin sayının artımı əsasında proqnoz vermək olar ki, yaxın 5 ildə əhalinin sayı əz azı 10% arta bilər. Bu artıma uyğun olaraq, əhalinin yerləşdirilməsini və əhaliyə xidməti tənzimləmək məqsədilə dağ kəndlərində, xüsusilə əsas yaşayış məntəqələrindən uzaq olan kəndlərdə nəqliyyat sistemini qaydaya salmaq, bütün yaşayış məntəqələrində təhsil müəssisələri və səhiyyə məntəqələrinin fəaliyyətini əhalinin sayına uyğun gücləndirmək lazımdır. Yeni iş yerlərinin açılması üçün ərazinin ənənəvi məşğulluq sahələrini və yerli xüsusiyyətləri nəzərə almaq faydalı olardı. Xüsusilə, son illərdə turizmin inkişafını nəzərə alaraq tarixi abidələr, etno və eko turizm marşrutlarını uyğun yaşayış məskənlərinə yönəltmək olar. Bütün bu tədbirlər, eyni zamanda, regionların inkişafı proqramına daxildir [6; 7].

**Ədəbiyyat siyahısı:**

1. ASŞÇ inzibati bölünüşü. Məskun yerlərin rayonlar, kənt şüraları siyahısı. Bakı, Az.XTUİ nəşriyyatı, 1933. - 292 səh.
2. Azərbaycan Respublikası Əhalisinin siyahıya alınması. 1999-cu il. I cild. Bakı, Səda, 2000.
3. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması. 1989-cu il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arxivi.
4. Azərbaycan SSR. Əhalinin Siyahıyaalınması. 1959-cu il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin

arxivi; http://demoscope.ru/weekly/ssp/ussr59_reg1.php.
5. Azərbaycan Respublikası Əhalinin siyahıyaalınması. 2009-cu il, I cild. Bakı, “9 saylı kiçik müəssisə” nəşriyyatı, 2010.
6. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı // Azərbaycan Respublikası. İqtisadi İnkişaf Nazirliyi. http://www.economy.gov.az
7. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakin-liyinin inkişafı sahəsində Dövlət Proqramı. s.3198-3224 // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2004, № 11 (89). – 3419 s.
8. Azərbaycanın inzibati ərazi quruluşu: 1828-2010 / tərt. İ. Qarayev. Bakı, "Səma Qrafik" MMC, 2010. - 332 s.
9. Əfəndiyev V. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 2002.-397 s.
10. Quliyeva S.Z.Oğuz rayonunun inzibati ərazi bölgüsü və əhalinin yerləşməsi. s.126-133// “Bakı Universitetinin Xəbərləri”, Humanitar elmlər seriyası, № 3. Bakı, 2013.
11. Азербайджанская Сельско хозяйственная перепись 1921 года. Стр.22-23, 32-33, 42-43.
12. Азербайджанская ССР Административно-террито-риальное деление на 1977 г.. Баку, Азерб. Государ-ственное изд., 1979.
13. Всесоюзная перепись населения 1959 г. Численность наличного населения городов и других поселений, районов, районных центров и крупных сельских населенных мест на 15 января 1959 года по регионам союзных республик (кроме РСФСР) // http://demoscope.ru/weekly/ssp/ussr59_reg1.php.
14. Итоги Всесоюзной переписи населения 1970 года по Азербайджанской ССР. 4 Т. Баку, Центральное стати-стическое управление при Совете Министров Азербай-джанской ССР. 1972 г.
15. Итоги Всесоюзной переписи населения 1979 года по Аз.ССР. 4 Т. Б.1980. - 41стр.
16. Некоторые демографические и социально-экономи-

ческие показатели Азербайджанской Республики за 10 лет. Азербайджанская Республика Государственный Комитет по статистики. ДВП. Баку, 1991, 259 стр.
17. Постановление ЦК ВКП (б) о ликвидации округов. 15 июля 1930 г. “Правда” от 16 июля 1930.
18. Постановление Президиума ЦИК СССР от 9 августа 1930 года «Об организации работы городских Советов в связи с ликвидации округов» // http://lawru.info/dok/1930/08/09/n1199020.htm; http://base.consultant.ru/cons/cgi/online.cgi?req=doc;base=ESU;n=27348
19. Численность, состав, естественное и механическое движение населения Азербайджанской ССР. Статистический сборник. Центральное статистическое управление при Совета Министров Азербайджанской ССР. Баку, 1967 г. 375 стр.

**Şəbnəm Məmmədli**
**BDU-nun məzunu,**
**Oğuz rayonunun Kərimli kənd sakini**

## Oğuz rayonunun tarixi abidələri

Qədim Oğuz rayonu Azərbaycanın şimal-qərbində yerləşir. Bunu rayon ərazisində yerləşən tarixi abidələr, aparılmış arxeoloji qazıntı işləri zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri əsasında söyləmək mümkündür. Rayonun tarixinin öyrənilməsində tarixi abidələrin tədqiqi mühüm rol oynayır. Bunların bir qismi qorunub saxlanmış, bir qismi isə təəssüf ki, zamanla uçulub dağılmışdır. Bu gün Oguz rayonunda islam, xristian və iudaizm dinlərinə sitayiş edən millətlər yaşayır. Rayonda hər üç dinə məxsus abidələr var.

**1.Müxtəlif dinlərlə bağlı olan tarixi abidələr**.

***1) Uğan mağarası***. Vaxtı ilə burada yaşayan əhali ibtidai dinlərə sitayiş edib. Baş Daşağıl kəndinin girişində, Uluçayın qərbində, nəhəng qayaların arasında Uğan mağarası yerləşir. Mağara ibtidai insanların yaşayış məskəni olub. Uğan sözü "Sahib", "Rəbb" kimi mənalandırılır. Elə buradan görünür ki, rayon əhalisi erkən dövrlərdə qədim türklərdə olduğu kimi dağ-qaya toteminə sitayiş edib.

***2) Atəşpərəstliklə bağlı: Muxas qülləsi.*** Oğuz rayonunda atəşpərəstliyin izlərinə də rast gəlinir. Məsələn, elə rayonun Muxas kəndində yerləşən qülləni araşdırdıqda vaxtı ilə Oğuz rayonunda atəşpərəstliyə sitayiş olunduğunu görə bilirik. Qüllə yerləşdiyi kəndin adi ilə Muxas qülləsi adlandırılıb. Bu tarixi abidənin eranın IX əsrində düşmən qoşunlarının hücumlarının qarşısını almaq məqsədilə tikildiyi söylənir. Lakin Muxas qülləsi özünün tikilmə üslubuna görə Bakı, Ramana, Nardaran qalalarına bənzəyir. Bun-

dan nəticə çıxarıb deyə bilərik ki, qüllə ilk öncə atəşpərəstlik təlim və ayinlərini həyata keçirmək məqsədilə, həm də IX əsrdə yox, ondan çox-çox əvvəllər tikilib. Qüllə çay daşı və kirəclə tikilib, üç mərtəbəlidir, perimetri 24,7 m, hündürlüyü 11,6 m-dir [1, səh.34].

***3) Xristianlıqla bağlı abidə: Alban ibadətgahları.*** Albaniya dövlətinin mövcudluğu dövründə Oğuz rayonunun ərazisi də bu dövlətin tərkibində olub. Yunan alimi Strabon, alban tarixçisi Musa Kalankaytuklu öz əsərlərində yazırdılar ki, eranın I əsrində Qafqaz Albaniyasında 26 tayfa yaşayıb. Bu tayfalardan biri olan utilər (yerli əhali onları udin adlandırır) bu gün də rayonda yaşayırlar. Rayonun etnik tərkibi tarixən zəngin olub. Albanlar və utilərlə yanaşı avarlar, saxurlar da rayonun etnik tərkibini təşkil ediblər. Bu gün rayonun əhalisinin əsas hissəsi azərbaycanlılardır. Eramızın I əsrində Oğuz rayonunda aparıcı tayfa albanlar olub. Bunu rayonda mövcud olmuş alban kilsələrinə əsasən də söyləmək olar. Oğuz rayonunda 7 alban ibadətgahı olub. Bu ibadətgahlardan 3-ü rayon mərkəzində, 2-si Calut kəndində, 2-si isə Qarabulaq kəndində olub. Rayonda yaşayan xristianlar vaxtı ilə bu ibadətgahlardan kilsə kimi istifadə ediblər. Hər ikisi rayon mərkəzindədir. Bu iki məbəddən yalnız biri tam qorunub saxlanıb [1, s.34-35]. İbadətgah tarixi abidə kimi qorunub saxlandığından kilsə kimi istifadə olunmur. Bu abidə XVIII əsrin I yarısına aiddir, 1700-1750-ci illərdə inşa olunub. İbadətgah 1981-ci ildə bərpa olunub. Elə həmin vaxtdan Tarix Diyarşunaslıq muzeyi kimi fəaliyyət göstərir. Muzeydə rayonun tanınmış şəxsləri haqqında məlumatlar, əsasən Saleh Qazıyevin apardiğı arxeoloji qazıntılar nəticəsində tapılmış maddi-mədəniyyət nümunələri, yerli əhali tərəfindən tapılıb muzeyə təqdim olunan müxtəlif dövrlərə məxsus pullar, bəzək əşyaları, saxsı qablar, əl işləri və s. saxlanır.

***4) İudaizmlə bağlı abudələr: Yəhudi sinaqoqları.*** Oğuz rayonunda müxtəlif millətlərin nümayəndələri yaşayır. Bunlardan biri də yəhudilərdir. Rayonda yaşayan yəhudilərin sayı 179 nəfərdir. Onlar yerli əhaliyə qaynayıb-qarışsalar da, adət-ənənələrini qoruyub saxlamışlar. Yəhudilər öz dinlərinə sitayiş edirlər. Oğuz tatdilli dağ yəhudilərinin keçmiş nəsilləri Şəki xanlığına XII əsrin

II yarısında gəlmişlər. Zalam, Mücü kəndlərində və rayonun Yuxarıbaş məhəlləsində yaşamışlar. Oğuzda yaşayan yəhudilər özlərini "şəkiyi" adlandırırlar. Hazırda yəhudilər Oğuzun "Cuhudlar məhəlləsi" adlanan hissəsində yaşayırlar. "Cuhudlar məhəlləsi" şəhərin cənub-qərbində yerləşir. Burada yəhudilərə məxsus 2 sinaqoq fəaliyyət göstərir. Bu sinaqoqlardan biri tarixi abidə statusu daşıyır. Tarixi abidə olan bu sinaqoq 1849-cu ildə inşa olunub. İkinci sinaqoq isə yenidir [1].

***5) İslam dini ilə əlaqədar abidələr***. Oğuz rayonunun əhalisinin əsas hissəsini müsəlmanlar təşkil edir. Buna görə də rayonun dini abidələri içərisində əsas yeri məscidlər tutur. Oğuz rayonunda 11 məscid var. Rayon mərkəzindəki məscid Cümə məscidi adlanır. Oğuz rayonunun Xaçmaz kəndində 2 qədim məscid var. Məscidlərin tikilmə tarixi 1800-cü illərə gedib çıxır. Bu məscidlər vaxtı ilə onları tikdirən şəxslərin adıyla adlandırılır: "Hacı Bəhaçin bəy" və "Hacı Səməd bəy". Xaçmaz kəndində yerləşən bu abidələr tarixi baxımdan çox əhəmiyyətlidir. Bu gün də məscid kimi fəaliyyət göstərir.

Rayonun Xaçmaz, Sincan, Filfilli, Qumlaq, Muxas və Bayan kəndlərində XIX əsrin əvvəllərində, Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyası tərəfindən 1920-ci ilin aprel ayında işğal olunmamışdan əvvəl tikilmiş İslam dininə aid ibadətgahlarının-məscidlərin qalıqları bu gün də qalmaqdadır [1].

Rayonun tarixi baxımdan zəngin olan kəndlərindən biri də Kərimli kəndidir. Kənddə qədim ziyarətgah var. Bu ziyarətgah "Hacı Mir Sadıq Əfəndi ziyarətgahı" adlanır. Ziyarətgahda bu şəxsin məzarı yerləşir. Hacı Mir Sadıq Əfəndi kəndin nüfuzlu şəxslərindən biri olub. Məzar daşının üzərindəki yazıdan onun 1773-1851-ci illərdə yaşadığı məlum olur. Ziyarətgah insanlar arasında "Çərşənbə ocağı" kimi tanınır [4].

**2. Oğuz rayonu ərazisinə vaxtı ilə köçüb gəlmiş tayfalar və onların yaratdığı tarixi abidələr.**

***1) Xaçmazlar.*** Müxtəlif dövrlərdə Oğuz rayonu ərazisinə türk mənşəli tayfalar, qəbilələr köçüb gəlmişlər. VII əsrin II yarısında Xaçmaz rayonu ərazisindən hun qəbilələri birliyinə daxil

olan Xaçmataka qəbiləsinin (sonradan bu ad transformasiyaya uğramışdır) bir hissəsi Oğuz rayonunun ərazisinə köçüb gəlmişdir (tayfanın adına VII əsrin ortalarından mənbələrdə Xaçmaz şəklində rast gəlinir). Bu tayfalar Oğuz rayonunda Xaçmaz kəndini yaratmış və Xaçmaz Govur qalasının əsasını qoymuşlar. Onların əsasını qoyduqları *Xaçmaz Govur qalası* (VII əsr) Xaçmaz kəndindən 2 km şimal-qərbdə Qaladağın zirvəsində yerləşir. Qala çay daşı və kirəclə tikilib. 2 mərtəbəlidir, 7 bürcdən ibarətdir. Qalaya su kəməri çəkilib [1, səh.33]. XVI əsr ədəbiyyat qaynaqlarında Xaçmaz Govur qalasının adına rast gəlirik. Abbasqulu ağa Bakıxanovun verdiyi məlumata görə, 1578-1583-cü illərdə Səfəvilərlə Osmanlılar arasında baş vermiş müharibələr zamanı qalanın qarşısında şiddətli döyüşlər olmuşdur. Deyilənlərə görə, kənd əhalisi qaladan düşmənlərdən müdafiə olunmaq üçün istehkam kimi istifadə ediblər.1965-ci ildə qalanın sahəsində qazıntı işləri aparılıb, saxsı məmulatlar aşkar edilib.

***2) Padarlar.*** Oğuz rayonu ərazisinə köçüb gəlmiş türk qəbilələrindən biri də padarlardır. Padarların Azərbaycanda yerləşməsindən Məhəmmədhəsən bəy Vəlili Baharlı bəhs etmişdir. Hülakülər XIII əsrdə İranda hakimiyyəti ələ keçirdikdən sonra mövqelərini möhkəmləndirmək məqsədilə 200 min türk ailəsini İran ərazisinə köçürmüşlər. Bir müddət sonra bu ailələr Azərbaycan ərazisinə keçiblər. Bunlar Qayı adlanan türk tayfasıdır ki, onlar Ağ hunların övladları hesab olunurlar. Qayı türklərinin məşhur qəbilələrindən biri də padarlardır. Padarlar əvvəlcə Cənubi Azərbaycanda yaşamışlar. Cəsur tayfa olduqları üçün müəyyən hissəsi XV-XVII əsrlərdə Səfəvilərin köçürmə siyasəti nəticəsində Şimali Azərbaycana gəlmiş, eləcə də Oğuz rayonunda məskunlaşmışlar. Padarların bura köçürülməsində əsas məqsəd şimaldan dağlı xalqların hücumlarından qorunmaq olub [3,səh.7]. Hazırda Oğuz rayonunda Padarların yaratdığı Padar kəndi var. Padar kəndində respublikanın qədim məktəblərindən biri yerləşir. XIX əsrin II yarısında çar hökuməti Zaqafqaziyanın bir neçə kəndində dövlət hesabına rus məktəbinin açılmasına icazə vermişdi. Bu məktəblərdə dərslər

ancaq rus dilində aparılmalı idi. Bildiyimiz kimi bu məktəblərin açılmasında məqsəd yerli əhalinin savadlanması yox, çar məmurlarının və yerli ağaların uşaqlarının oxudulması idi. Çar milli ucqarlarda müstəmləkəçilik siyasətini həyata keçirmək üçün Azərbaycanın bir sıra qəzalarında və kəndlərində ilk rus dilli məktəblər açdırdı. Bu məktəblərdən biri də Padar məktəbi idi. Beləliklə,1883-cü il, noyabrın 1-də Padar kəndində ilk məktəbin əsası qoyuldu. Padarda açılmış ilk ikisinifli rus-tatar məktəbi bir nəfər müdir-müəllim və dörd nəfər şagirdlə fəaliyyətə başladı. Məktəbin ilk müdir-müəllimi Qori seminariyasının məzunu Mahmudbəy Mahmudbəyov olmuşdur [2, səh.11].

Məqalədən göründüyü kimi, Oğuz rayonu tarixi abidələrlə zəngindir. Bu abidələr rayonun tarixinin öyrənilməsində mühüm mənbədirlər. Müxtəlif dinlərlə bağlı olan abidələrin araşdırılmasından gələn nəticəyə əsaslanaraq Oğuzun tolerant rayon olduğunu deyə bilərik. Burdan da görünür ki, rayon ərazisində müxtəlif vaxtlarda bir neçə din mövcud olub.

Digər abidələri tədqiq edərkən ayrı-ayrı vaxtlarda bura müxtəlif tayfaların (qəbilələrin) köçüb gəldiyini, rayonda məskunlaşdıqlarını öyrənirik. Bu tayfalar rayonun etnik tərkibinin zənginləşməsinə səbəb olmuşlar. Eləcə də köçüb gələn qəbilələr rayonda kəndlər salmış, öz abidələrini yaratmışlar. Ümumilikdə, Oğuz rayonu təbii, tarixi, dini və etnik baxımdan çox zəngindir və Azərbaycanın qədim yaşayış məskənlərindən olmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Səyyaf Abbasov, Yusif Rzayev. Oğuz rayonu dünən, bu gün, sabah. Mingəçevir, 2010.
2. Məsim Kərim. 120 yaşlı məktəb. Bakı, “Müəllim nəşriyyatı", 2003.
3. Paşa Yaqub. Padar kəndinin ensiklopediyası. Bakı, 2012.
4. Oğuz yurdu” qəzeti. 31 iyul 1992.
5. Yusif Rzayev. Mingəçevir. 2004
6. Yusif Rzayev. Oğuzda "Avesta"nın izləri. Mingəçevir, 2010.
7. Oğuz rayon Diyarşünaslıq muzeyinin materialları.

**Kəmalə Mustafayeva**
Bakı Dövlət Universiteti,
Tarix fakültəsinin IV kurs tələbəsi

## "Maaf" institutu və onun xanlıqların idarəetmə sistemində yeri

"Maaf" termini vergilərdən azad edilmiş şəxs mənasında Ön və Mərkəzi Asiya ölkələrinə lap çoxdan, ən azı XI əsrdən məlumdur. Azərbaycan da isə Hülakilər və daha sonra Qaraqoyunlu və Ağqoyunlu hakimiyyəti dövründə, XV-XVI əsrlərdə "maaf" termini geniş mənada hər hansı bir şəxsin və ya kollektivin (kənd icması, köçəri tayfa, şəhər cəmiyyəti, dərvişlər məskəni, xristian monastırları və.s) digər bir şəxsin və ya kollektivin xeyrinə vergilərdən azad olunması kimi nəzərdə tuturdu. Bu termin yalnız divan və ya şah tərəfindən vergi immuniteti kimi ayrı-ayrı şəhər və digər yaşayış məskənlərinə verilən güzəştlər, ümumi qaydaları nəzərdə tutmurdu, həm də şahın öz şəxsi düşüncələrinə və münasibətinə əsaslanan fövqəladə vəziyyətlərlə bağlı imtiyazlar və güzəştlər idi. Xüsusilə də Səfəvilərin hakimiyyəti dövründə bu şəkildə imtiyaz və güzəştlər həyata keçirilirdi. Məsələn, I Təhmasib 1573-cü ildə Təbrizdə baş verən şəhər yoxsullarının və sənətkarların üsyanının təhlükəli miqyas almasının qarşısını almaq məqsədi ilə şəhərə bəzi güzəştlər və imtiyazlar vermiş və bununla da şəhər rəhbərlərinin Səfəviləri dəstəkləməsinə nail olmuşdu (9, s.92-93).

"Maaf" anlayışı xanlıqlar dövründə daha geniş yayılır və xüsusi maaf zümrəsi yaranır. Həmin dövrdə maaf rütbəsi xanın qarşısında xüsusi xidmətləri olan və ya kəndli qadınlarla nikaha girmiş bəylərin xahişi ilə verilirdi. XIX əsrə aid sənədlərdən birində Şirvan əyaləti maaflarının ictimai mövqeyi aşağıdakı

kimi xarakterizə olunur: "Maaf anlayışının mahiyyəti xan hakimiyyəti dövründə bütün vergi və mükəlləfiyyətlərdən azad olunmuşlardır". Maaf hüququ xan qarşısında ya xüsusi xidmətlərinə görə, ya bəylərin ərizəsi ilə vergilərdən azad etmək məqsədi ilə sadə kəndlilərlə qohumluğu olanlara verilir, ya da ki, xanın özündən kifayət qədər hədiyyələrlə alınırdı. Maaf xanın ən yaxşı ordusunu təşkil edir və heç bir vergi ödəmir və mükəlləfiyyət daşımırdılar. Əksinə, xandan hədiyyələr (at, silah və s.) alırdılar. Xanlar onlardan müxtəlif tapşırıqların yerinə yetirilməsində istifadə edirdilər (7, s. 42-43). Vergi və mükəlləfiyyətlərdən azad olunan bu təbəqə bəzi vaxtlar ali, bəzi vaxtlar isə kəndli zümrəsinə daxil edilərək xanlıqların daxili nizam-intizamında müstəsna rol oynamışlar. Xan onlara vergi və mükəlləfiyyətdən tam azad olunduqlarını təsdiq edən "təliqə" adlı sənəd verirdi. Maaflara, mahal bəylərinə, tək-tək şəxslərə göndərilən xan təliqələri (fərmanlar) mirzələr vasitəsilə yazılırdı (1, s. 18-19). Lakin qeyd etmək lazımdır ki, xanlıqlarda xan təliqəsinə malik maafların sayı çox deyildi. Məsələn, 1823-cü il statistik təsvirinə əsasən apardığımız hesablamalara görə, Qarabağ xanlığında 198 maaf ailəsi yaşayırdı. 198 maafdan cəmi 34 maaf xan təliqəsinə malik olmuşdur. Qalanları isə xanın şifahi əmrinə əsasən bu rütbəyə yüksəlmişdi. Təkcə Qərvənd elində 7 maaf bu rütbəni xanın şifahi əmrinə əsasən, yəni təliqəsiz almışdı (8). Hesab edirik ki, maafların vergi və mükəlləfiyyətlərdən azad olunması heç də onların ali zümrəyə mənsub olmasını göstərmirdi. Çünki xan bunun əvəzində onları hərbi xidmətə səfərbər edirdi (3, s. 31).

Maaflar xanın qoşununun əsasını təşkil edirdi. Xan,onların sadiqliyini təmin etmək və hərbi qabiliyyətini artırmaq üçün onlara torpaq sahəsi verir, at və ya silah-sursat, hətta kənd, dəyirman, bağ, kanallar hədiyyə edirdi. Və bunların hamısı xan tərəfindən verilən təliqələrdə dəqiqliklə qeyd olunurdu. Maaflara bu imtiyazlar və təminatlılığı vergi verən əhalinin hesabına təmin edirdilər. Xanlar maaflara təminatlı həyat şəraiti yaradaraq onları ilk hərbi çağırışa vaxtında gəlməyə məcbur edirdilər. Maaflar

xanın bütün göstərişlərini hökmən yerinə yetirməli idilər. Onlar xan hakimiyyətinin etibarlı silahı idi. Xanlıq dövründə mövcud olan maafları şərti olaraq üç təbəqəyə ayırmaq olar:

1. Ali zümrəyə mənsub olan maaflar (bura daxildir: bütün kiçik xan və bəylər, yüzbaşılar, onbaşılar, keçmiş maaf dəstələrinin rəhbərləri, kəntxudalar və.s)

2. Ruhani zümrəsi (mollalar, axundlar, seyidlər və digər ruhani təbəqəsindən olanlar)

3. Aşağı zümrəyə mənsub olanlar (7, s. 42).

I qrupa daxil olanlar xanın əsas hərbi dəstəsi idi. Xan müharibə vəziyyəti yarananda, yaxud şəhər və kənd mərkəzlərinin idarəçiliyində onlardan istifadə edirdi. II qrupu təşkil edənlər isə bir növ "xanın yerlərdəki qulağı" funksiyasını daşıyırdılar. Xanı əyalətlərdə əsas dini mərkəzlərin necə idarə olunması, şəriət və məhkəmə işlərinin necə təşkili barədə xəbərdar edirdilər. Fövqəladə vəziyyət olmadığı hallarda onlar hərbə belə çağrılmırdılar. Aşağı zümrədən olan maaflar isə rütbəcə aşağı olmaqla bərabər, həm də cəza dəstələri funksiyasını daşıyırdılar. Qeyd edək ki, Qarabağ əyalətində bu zümrədən olan maaflardan əsasən, təcili sənədlərin çatdırılmasında və dustaqlar üzərində nəzarət üçün istifadə olunurdu. Amma bu işləri onlar təklikdə icra etmirdilər.

Adətən maaf rütbəsi irsi keçirdi. Lakin bəzən də xan bu rütbəni müvəqqəti verirdi (Müvəqqəti verilmə əsasən, aşağı zümrədən olan və cəza dəstəsi funksiyasını daşıyan maaflara aid idi.) (6, s. 391). Maaf rütbəsinin atadan oğula irsən ötürülməsi üçün isə xanın təliqə ilə təsdiqi lazım idi. Məsələn, Qarabağ xanlığının Tərəkəmə elində 2 maafın oğullarına rütbənin ötürülməsi xan tərəfindən təsdiq edilmişdi. Bundan irəli gələrək, Qarabağ xanlığı ləğv edilərkən çar məmurları bu sosial silkə öz münasibətlərini bildirərkən qeyd edirdilər ki, maafların xan təliqəsinə malik olub, olmamaları dəqiq yoxlanılmalı və təliqəsizlərə vergi təyin olunmalıdır (8). Mövcud siyasi vəziyyət də bunu tələb edirdi. Artıq xanlıq ləğv edildiyindən xanın qoşunlarını təşkil edən maafların xidmətlərinə də ehtiyac

qalmamışdı. Bu isə 1844-cü ildə Qarabağ qəzasında* yaşayan maaf ailələrinin sayının 150-yə enməsinə gətirib çıxarmışdı. (4, s. 135). XIX əsrə aid sənədlərin birində Şirvan əyaləti maaflarının ictimai mövqeyi aşağıdakı kimi xarakterizə olunur: "Tarixçilərin çoxu nədənsə maafları da feodal ierarxiyasına daxil edirlər". Biz belə hesab edirik ki, bu düz deyildir. Maaflar kəndlilər içərisindən çıxmış, feodallara xidmət müqabilində (əsasən, qoşun dəstələrində) müəyyən güzəştlər edilmiş, vergi və mükəlləfiyyətdən azad edilmiş kəndlilər idi. Doğrudur, maaflardan bəziləri xüsusi xidmətlərə görə hətta bəylik rütbəsinə də çatırdılar. Bunları feodal ierarxiyasına daxil etmək olar. Onlar bəzən kəntxuda, yüzbaşı təyin olunur, kəndli kütləsi içərisində olub feodallara casusluq edir, xanın müxtəlif tapşırıqlarını yerinə yetirirdilər. Lakin digər tərəfdən, V.Leviatov öz əsərində maraqlı bir faktı qeyd edir: «Maafların vəzifəsi ondan ibarətdir ki, xanların hökmü ilə düşmənə qarşı hücuma göndərilir, yerli rəislərin göstərişlərini yerinə yetirir, gözətçilərə başçılıq edir, ancaq xəzinəyə vergi vermirdilər». Beləliklə, onların böyük hissəsi güzəştlər almış kəndlilər idilər. Ancaq bəziləri feodalın qəzəbinə keçib bütün hüquqlardan məhrum edilərək vergi mükəlləfiyyətləri ödəyən kəndlilərin sırasına qayıtmalı olurdular (7, s. 44). Bu da onların hakimiyyətdən narazılığına səbəb olur, bəzən maaf üsyanlarına gətirib çıxarırdı.

Maafların bir çoxu, məsələn: hərbçilər, onbaşılar, kəndxudalar, hətta kənd təsərrüfatı ilə məşğul olanlar da istifadə etdikləri ərzağın çox hissəsini xalqdan alırdılar. Onlar aşağı təbəqəni bəy və xanlardan az incitmir və heç də onlardan az yükləmirdilər. Maaflar xanlar tərəfindən onlara hədiyyə olunan torpaq sahələrində kəndliləri ağır şəraitdə işləməyə məcbur edirdilər. Onların hər biri imtiyazlı idi,"ağalıq" edirdi. Bizdə

---

* Çar hökuməti 1830-cu il üsyanlarının təsiri nəticəsində Cənubi Qafqazda 1840-cı il 10 aprel inzibati-hərbi islahatı keçirdi. Bu islahata görə Qarabağ əyaləti Şuşa qəzasına çevrilmiş və Kaspi vilayətinə (mərkəz Şamaxı) tabe edilmişdi. Bununla da Qarabağ anlayışı siyasi mənasını itirmiş oldu və yalnız coğrafi anlayış kimi qaldı.

maafların XVIII əsrdəki vəziyyətini və sayını, mənsub olduqları kateqoriyanı göstərəcək tam siyahısı yoxdur, lakin ayrı-ayrı xanlıqların daxili vəziyyətini öyrənmək məqsədilə Rusiya imperiyasının keçirdiyi kameral təsvirlərdə bu sosial qrup haqqında məlumat var. Məsələn, 1824-cü il kameral təsvirinə əsasən, Şəki əyalətində 1.809 nəfər kişi maaf, 1.582 nəfər qadın maaf var idi. Bunlardan heç kəsə vergi ödəməyən 1.530 nəfər kişi, 1.346 nəfər qadın müəyyən edilmişdi.

Çar hakimiyyəti dönəmində Rusiyaya birləşdirilmiş Azərbaycan torpaqlarında xan hakimiyyəti zamanı vergi və mükəlləfiyyətlərdən azad olan, lakin indi öz hüquqlarını sübut edə bilməyən maaflar da vergi ödəyicisi siyahısına alınmışdı. Beləliklə, təkcə Şəki əyalətində XIX əsrin 20-ci illərində təqribən ailələri ilə birlikdə maafların sayı 6.250 nəfər olmuşdu. Bu da vergi ödəyicilərinin vergi və mükəlləfiyyət daşıyan əhalinin 7%-ni təşkil edirdi (7, s. 43-44). Elə bu rəqəmin özü də yuxarıda qeyd olunan məsələ haqqında fikir söyləməyə imkan verir ki, maafları feodal iyerarxiyasına aid etməyək. Şəki xanlığında maaflar Qarabağ və Quba xanlıqlarına nisbətən az idi, bu da həmin xanlıqlarda orduya səfərbərlərin sayının çox olması ilə bağlı idi (5, s.44).

Sonda gəlinən nəticəyə görə "maaf " institutu adlanan bir sistem ilk əvvəllər xanlıqların daxildəki nizam-intizamın qorunması və tez-tez yaşanan kəndli çıxışlarının yatırılması üçün nəzərdə tutulmuşdu. Bununla bərabər onu da qeyd etmək lazım gəlir ki, xanlar əsasən hərbçilərdən və kiçik rütbəli bəylərdən təşkil olunmuş maafları hazırlarkən yalnız şəxsi ordu yaratmaq məqsədi güdmürdülər, həm də xanlığın daxilində özlərinə sosial dayaq yaratmaq planını həyata keçirirdilər. Yəni xanların maaflara torpaq sahələri, xüsusi imtiyazlar verərkən əsas məqsədləri bunu təmin etmək idi. Maaflar Rusiya imperiyasının işğalına qədər Azərbaycan xanlarının və o cümlədən, bəylərin sosial dayağı olmuşlar.

**Ədəbiyyat:**

1. Ağamalı.F.R. XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarında sosial-iqtisadi münasibətlər. Bakı,"Bakı Universiteti" nəşriyyatı, 2007, 280 səh.
2. Azərbaycan Tarixi. III cild. Bakı, "Elm" nəşriyyatı, 2007, 592 səh. // http://azerinfo.eu/old/upload/Tarix/Muasir/Azerbaycan.pdf
3. Bayramova. N. Şamaxı xanlığı. Bakı,"Təhsil" nəşriyyatı, 2009, 396 səh.
4. Gülmalıyev. M.M. XVIII əsrin son rübü - XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. Bakı, 1989. 280 s.
5. Mahmud.İ, Bağırova.M "Şəki xanlığı"- Bakı,"Azərnəşr" nəşriyyatı, 1997, 76 səh. // http://ebooks.preslib.az/pdfbooks/azbooks/shekxan.pdf
6. Дубровин.Н " История войны и владычества русских на Кавказе". СПБ., 1871, 431 с. т.1, кн. 2.
7. Левиатов В.Н "Очерки из истории Азербайджане в XVIII веке". Баку, 1948, 227с.
8. Описание Карабахской провинсции составленное в 1823 действителным статским советникам Могилевким полковником Ермоловым 2-м. Тифлис, 1866
9.Петрушевский. И. П "Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв". Ленинград., 1949, 181 с.